Xalq qəzeti

Xalqın qəzeti!

№ 284 (30688) 24 dekabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Qalib sərkərdə, müdrik lider



Səhifə ⇨ 5

## Güclü Azərbaycan davamlı və ali hədəfimizdir



Səhifə ⇨ 6

## Prezident İlham Əliyev – Səmimiyyət, Praqmatizm və Müasirlik



Səhifə ⇨ 7

## Milli qürur və başəri ideyaların təcəssümü



Səhifə ⇨ 8

## Xalqını yeni qələbələrə aparan lider



Səhifə ⇨ 9

# 21 illik yüksəliş marafonu yeni mərhələdə



**Ulu öndər Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi hədəflərini müəyyənləşdirən strategiyası artıq 21 ildir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca məqsədinə – qüdrətli Azərbaycanın davamlı yüksəlişinə xidmət edir. Dahi öndərimizin təməlini qoyduğu inkişaf və tərəqqi konsepsiyasına söykənən həmin strategiya müasir mərhələdə yeni keyfiyyət və kəmiyyət çalarları ilə getdikcə zənginləşir.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixinin son 21 ilində ölkəmiz dünya birliyində öz layiqli yerini tutaraq iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevirilib. Dövlətimizin başçısının müdrik siyasəti ilə ölkəmizin ərazi bütövlüyü bərpa edilib, güclü milli iqtisadiyyata əsaslanılaraq regionumuzda sülh, əmin-amanlıq və inkişaf üçün yeni şərait yaradılıb.

Ötən illər ərzində respublikamızın sosial-iqtisadi inkişafının sürətləndirilməsi daim diqqət mərkəzində saxlanılıb. Ölkə rəhbəri İlham Əliyevin prezidentlik fəaliyyətində qəbul etdiyi ilk mühüm qərar da bu sahə ilə bağlı olub: Dövlətimizin başçısı tərəfindən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərman imzalanıb və bununla da respublikanın hərtərəfli inkişafına dair davamlı və sistemli proqramların əsası qoyulub, sosial-iqtisadi inkişafın real dinamikası gerçəkləşdirilib.

**(ardı 12-ci səhifədə)**

# AYİB ölkəmizin strateji layihələrini dəstəkləyir

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) respublikamızdakı daimi nümayəndəliyinin rəhbəri Natali Mouravidze mediaya açıqlamasında bildirib ki, təmsil etdiyi maliyyə qurumunun Azərbaycanla bağlı əsas məqsədlərindən biri yerli maliyyə institutlarını gücləndirmək, onların özəl sektorun böyüməsi üçün lazımi maliyyə vəsaitinə asan çıxışlarını gerçəkləşdirməkdir.**




N.Mouravidze qeyd edib ki, AYİB 2024-cü ildə Azərbaycan Beynəlxalq Bankı ilə əməkdaşlığa başlayıb. COP29-da yerli kiçik və orta biznes strukturlarını (KOB-ları) maliyyələşdirmək üçün qurumun ilk "yaşıl" krediti "Bank Respublika"ya verilib.

**(ardı 17-ci səhifədə)**

# Ermənistan–Fransa–Hindistan hərbi alyansında yunan izi



**Ermənistan hakimiyyəti silah aldığı ölkələrin siyahısını genişləndirmək üçün dəridən-qabıqdan çıxır. Ölkənin müdafiə naziri Suren Papikyanın sorağı ənənəvi tərəfdaşları – Fransa və Hindistanla yanaşı, gah Çindən, gah Cənubi Koreyadan, gah da Yaponiyadan gəlir. Hayların müdafiə nazirinin müxtəlif ölkələrə səfərləri son vaxtlar xüsusilə intensivləşib. Bu səfərlərin məqsədi, sözsüz ki, həmin ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi adı altında silah tədarükünə nail olmaqdır.**

**(ardı 13-cü səhifədə)**

## "Böyük manipulyator"




Səhifə ⇨ 10

## D-8-ə üzvlük Azərbaycana yeni imkanlar açır




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə redaksiyamıza təqdim etdiyi məqalədə bildirir ki, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzv seçilməsi respublikamızın inkişaf etməkdə olan həmin dövlətlərlə qarşılıqlı iqtisadi əlaqələrinin genişlənməsinə, investisiya və xarici ticarət dövriyyəsinin artmasına əsas yaradır.**

**(ardı 17-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə dost Azərbaycan sosial-iqtisadi inkişaf yolu ilə inamla addımlayır, dünya arenasında öz mövqeyini möhkəmləndirir. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin qurulmasına və möhkəmləndirilməsinə şəxsi töhfənizi olduqca yüksək qiymətləndirirəm.

Mehriban yoldaşlıq əlaqələrimizi çox dəyərləndirirəm. Əlbəttə, ikitərəfli və beynəlxalq gündəliyin aktual məsələləri ilə bağlı birgə sıx işimizin davam etdirilməsinə şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə ürəkdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram. Ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ürəkdən gələn arzularımı qəbul edin.

Yorulmaz səyləriniz və uzaqgörən siyasətiniz sayəsində Azərbaycan sosial sabitliyinin, iqtisadi davamlılığının və beynəlxalq nüfuzunun möhkəmləndirilməsində heyrətamiz uğurlar əldə edib. Sizin müdrik rəhbərliyinizlə ölkə irimiqyaslı layihələr həyata keçirərək və xalqın rifahını yaxşılaşdıraraq inamla irəli addımlayır.

Qazaxıstan ilə Azərbaycan arasında çoxəsrlik dostluğa və qarşılıqlı dəstəyə əsaslanan strateji tərəfdaşlığın dərinləşdirilməsinə böyük töhfənizi yüksək qiymətləndirirəm.

Ölkələrimiz sıx qarşılıqlı fəaliyyətin daha da inkişafı üçün böyük potensiala malikdir. Əminəm ki, biz birgə səylərimizlə nailiyyətlərimizi artıracaq və Qazaxıstan-Azərbaycan çoxşaxəli dövlətlərarası əlaqələrini məhsuldar əməkdaşlığın yeni səviyyəsinə yüksəldəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ailənizə firavanlıq və qardaş Azərbaycanın mənafeyi naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu, dəyərli Qardaşım!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizi Azərbaycan Respublikasının hərtərəfli inkişafına, ölkənin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunmasına, əhalinin rifahının yüksəldilməsinə, eləcə də beynəlxalq arenada dövlətinizin nüfuzunun möhkəmləndirilməsinə həsr olunmuş misilsiz xidmətlər göstərən görkəmli dövlət və siyasət xadimi, xalqınızın əsl vətənpərvər və fədakar övladı kimi tanıyır, Sizə yüksək hörmət bəsləyirik.

Ölkənizin bütün prioritet sahələrdə əldə etdiyi mühüm nailiyyətlər Azərbaycanın əsas maraqlarına cavab verən, onun böyük məqsəd və hədəflərini tam əks etdirən uzaqgörən və səmərəli siyasətinizin parlaq nəticəsidir.

Biz Özbəkistan ilə Azərbaycan arasında qədimdən mövcud olan tarixi dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinə, çoxtərəfli və uzunmüddətli qarşılıqlı münasibətlərin genişləndirilməsinə verdiyiniz böyük töhfəni yüksək qiymətləndiririk.

Xüsusilə son illərdə Sizinlə aramızda olan qardaşlıq və həmrəylik münasibətlərinin daha da gücləndiyini, yüksəksəviyyəli daimi dialoqların və qarşılıqlı səfərlərin fəallaşdığını böyük məmnuniyyətlə qeyd etmək istəyirəm.

Hörmətli Prezident, Zati-aliləri.

Əminəm ki, birgə səylərimiz nəticəsində ölkələrimiz arasında qarşılıqlı etimad, bir-birini dəstəkləmək ruhunda qurulan strateji tərəfdaşlıq münasibətləri dost xalqlarımızın ümumi inkişafı naminə daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Əziz qardaşım, Sizi həyatınızın bu yaddaqalan və sevincli günü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, Uca Allahdan Sizə və ailə üzvlərinizə uzun ömür, möhkəm cansağlığı, xoşbəxtlik, xalqınızın rifahı naminə həyata keçirdiyiniz yüksək məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, davamlı yüksəliş və rifah arzulayıram.

**Sonsuz hörmət və ehtiramla,**

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

***

**Zati-aliləri, əziz dostum!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram. İsrail Dövləti bu əlamətdar günü Sizinlə birgə qeyd edir.

Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadi inkişafın, firavanlığın, sülhün və sabitliyin hökm sürdüyü dinamik inkişaf edən dövlətə çevrilib. Bunun, əlbəttə ki, ən gözəl təcəssümü ölkənizin nümunəvi dini tolerantlıq və anlayış modelidir. Xüsusilə antisemitizmin bütün dünyaya yayıldığı bu dövrdə Azərbaycan birlikdə harmoniyada yaşamaq üçün kollektiv potensialın parlaq nümunəsidir. Bununla da Siz atanız, möhtərəm Heydər Əliyevin əziz xatirəsini uca tutaraq bütün sahələrdə olduğu kimi, onun sülh yolunu da davam etdirirsiniz.

Sizin gözəl qeyd etdiyiniz kimi, multikulturalizm qəbul edilməli olan bir nemətdir. Sizdən bu səmimi münasibəti birbaşa hiss edən Azərbaycanın yəhudi icması xalqlarımızı daha möhkəm birləşdirən canlı körpü rolunu oynayır. Sizin ölkənizlə strateji tərəfdaşlığımız həm İsrail, həm də daha geniş regionumuz üçün sabitliyi təmin edir. Biz bir çox sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək və möhkəmləndirmək üçün Sizinlə işləməyə davam etmək fürsətinə görə dərin minnətdarlığımızı bildiririk.

Gözəl ölkənizə səfərimiz zamanı Sizin və birinci xanım Mehriban Əliyevanın məni və xanım Mixalı səmimi və xoş qarşılamağınızı həmişə xatırlayır və bunu yüksək qiymətləndiririk. Ümid edirəm ki, yaxın gələcəkdə həm Sizi, həm də birinci xanım Mehriban Əliyevanı İsraildə qarşılamaq şərəfinə nail olacağam. Əlbəttə, mən də Sizi növbəti dəfə Davosda keçiriləcək Dünya İqtisadi Forumunda görməyi səbirsizliklə gözləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, Sizi keçən ay COP29-a uğurla ev sahibliyi etməyiniz münasibətilə təbrik etmək istərdim. Azərbaycan millətlər birliyində liderdir və bu, gələcək nəsillərin sağlamlığının, təhlükəsizliyinin təmin edilməsinə sadiq olduğunuzun növbəti təzahürüdür.

2024-cü ili yola salıb 2025-ci ili qarşıladığımız vaxtda mən də səmimi-qəlbdən arzu edirəm ki, yeni il Sizin üçün, ailəniz və bütün Azərbaycan xalqı üçün uğur və firavanlıq ili olsun.

**Səmimiyyətlə,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə davamlı sosial-iqtisadi inkişaf yolunda irəliyə doğru inamla addımlamaqda davam edir, regional və beynəlxalq məsələlərdə mühüm konstruktiv rol oynayır. Bu istiqamətdə ardıcıl fəaliyyətiniz Sizə həmvətənləriniz arasında və dünya arenasında yüksək nüfuz qazandırıb.

Ölkələrimiz arasında dostluq münasibətlərinin və əməkdaşlığın hərtərəfli genişləndirilməsinə Sizin daimi diqqətinizi xüsusi qeyd etmək istərdim. Möhkəm siyasi iradə sayəsində biz bu il Tacikistan-Azərbaycan qarşılıqlı münasibətlərini keyfiyyətcə yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik. Qardaş xalqlarımızın köklü maraqlarına uyğun olaraq bu prosesin gələcəkdə də inkişaf etdirilməsinə hazırıq.

Dostluğumuzun və şəxsi münasibətlərimizin etimada əsaslanan xarakterini yüksək qiymətləndirirəm. Əminəm ki, biz birgə səylərlə gələcəkdə də ölkələrimizin çoxtərəfli əlaqələrini yeni quruculuq nümunələri ilə zənginləşdirəcək və əməkdaşlığımızın daha da möhkəmlənməsinə nail olacağıq.

Əziz İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Səmimiyyətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının dünya proseslərinin fəal iştirakçılarından birinə çevrildiyini məmnunluqla qeyd edirəm.

Dünyada ən böyük tədbir olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ilk dəfə olaraq qardaş ölkədə keçirilməsi və yüksək səviyyədə təşkil edilməsi faktı bizi sevindirir.

Əminəm ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq ölkələrimizin xalqlarının rifahı naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ailə səadəti və ali dövləti fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirəm.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, cansağlığı, şəxsi həyatınızda və ali dövləti fəaliyyətinizdə çoxlu uğurlar arzulayıram.

Əminəm ki, bizim dost ölkələrimiz bundan sonra da ümumi əlaqələrimizin yaxşılaşdırılmasına və əməkdaşlığın yeni formalarının tapılmasına çalışacaq. Ölkələrimizin malik olduğu iqtisadi imkanlar daha yaxşı və daha məzmunlu əməkdaşlığı təşviq edə bilər.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizə cansağlığı və xoşbəxtlik diləyirəm.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

***

**Hörmətli cənab Prezident!**

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırım.

Azərbaycan Macarıstan üçün böyük əhəmiyyət daşıyır. Mən şadam ki, əlaqələrimiz ötən illər ərzində möhkəmlənməkdə davam edib və müstəsna əhəmiyyət kəsb edən strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Cənab Prezident, əminəm ki, Sizin fədakarlığınız olmadan bizim ümumi uğurlarımız mümkün olmazdı. Fürsətdən istifadə edərək dəstəyinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Ölkələrimiz arasında əməkdaşlığın xüsusilə enerji və su idarəçiliyi kimi əsas sahələrdə daha da genişlənməsi üçün böyük potensialı var.

Sizi əmin edirəm ki, gələcəkdə əməkdaşlığımızı dərinləşdirmək və ümumi məqsədlərimizə nail olmaq üçün mənim şəxsi dəstəyimə və hökumətimin dəstəyinə arxayın ola bilərsiniz.

Sizə möhkəm cansağlığı, mühüm önəm kəsb edən vəzifələrinizin həyata keçməsində böyük uğurlar arzulayıram.

**Hörmətlə,**

***Viktor ORBAN,***
***Macarıstanın Baş naziri***

***

**Zati-aliləri!**

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim. Sizə möhkəm cansağlığı, əmin-amanlıq və uğurlar arzulayıram.

Azərbaycan Respublikasının inkişafında və rifahında Sizin xidmətiniz əvəzolunmazdır.

Eyni zamanda, Gürcüstan ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın güclənməsində Sizin şəxsi töhfələrinizi minnətdarlıq hissi ilə qeyd etmək istərdim.

Şadam ki, ölkələrimiz arasında mövcud olan ənənəvi möhkəm dostluğumuz və strateji tərəfdaşlığımız bütün sahələrdə uğurla inkişaf edir. İnanıram ki, çoxşaxəli və qarşılıqlı faydalı əlaqələrimizi ölkələrimizin və regionun rifahı naminə gələcəkdə də uğurla davam etdirəcəyik.

Zati-aliləri, Sizi bir daha səmimi-qəlbdən təbrik edir və Sizə ən dərin ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

***

**Hörmətli cənab Prezident!**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un Baş Katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin yürütdüyü müdrik və sülhsevər siyasət nəticəsində Azərbaycan Respublikası davamlı surətdə inkişaf edir, dünya ölkələri arasında tutduğu layiqli yerini daha da möhkəmləndirir.

Türk dünyasının aparıcı ölkələrindən biri olan qardaş Azərbaycanın zəngin mədəni irsinin TÜRKSOY təşkilatı vasitəsilə dünyada tanıdılması istiqamətində aparılan işlərə verdiyiniz daimi dəstək bizi daha da ruhlandırır.

Əmin ola bilərsiniz ki, Azərbaycan və TÜRKSOY arasında mövcud olan mədəni əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edəcək, üzv ölkələrimizdə və dünyanın müxtəlif ölkələrində həyata keçirəcəyimiz tədbirlərlə Türk xalqları arasında mədəni inteqrasiyanın və həmrəyliyin daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək, TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz müdrik lider kimi uzun illərdir ölkənin möhkəmləndirilməsində böyük nəticələr əldə edərək Azərbaycan xalqını tərəqqi yolu ilə irəli aparırsınız. Dövlətin ahəngdar inkişafı prosesi Sizin ən yüksək rəhbər nüfuzunuza, siyasi müdrikliyinizə, uzaqgörənliyinizə, problemləri müxtəlif tərəflərdən görmək və onların optimal həllini tapmaq bacarığınıza əsaslanır.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasında Sizin Rusiya–Azərbaycan strateji tərəfdaşlığının möhkəmlənməsinə, o cümlədən parlament xətti ilə çoxplanlı əməkdaşlığa verdiyiniz əvəzsiz töhfəni xüsusi qeyd edirlər.

Rusiya və Azərbaycan qanunvericiləri arasında dialoqa göstərdiyiniz diqqətə görə Sizə minnətdaram. Əminəm ki, Sizin dəstəyinizlə bu mühüm qarşılıqlı fəaliyyət kanalı həmişə ikitərəfli müttəfiqlik münasibətlərinin bütün kompleksinin intensivləşdirilməsi üçün səmərəli vasitə olaraq qalacaqdır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə uğurlar arzulayıram. Qoy təcrübə və biliyiniz, qətiyyət və məqsədəyönlülüyünüz Azərbaycan Respublikasının rifahı naminə səmərəli fəaliyyətiniz üçün həmişə etibarlı bünövrə rolunu oynasın!

Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

***

**Möhtərəm cənab Prezident!**

Türk dünyasının fəxri və qalib sərkərdəsi.

Sizi doğum gününüz münasibətilə Türk Dünyası Mediatorlar Birliyi adından səmimi-qəlbdən təbrik edirəm. Türkdilli dövlətlərin mediasiya birlikləri və mediatorları adından Sizə, ailə üzvlərinizə uzun ömür, cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, Sizin Azərbaycan Respublikasında bütün istiqamətlərdə apardığınız islahatlar, o cümlədən mediasiya islahatları nəinki ölkə daxilində, eyni zamanda dünya miqyasında və türkdilli dövlətlərdə də müsbət əks-səda doğurur və öyrənilir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasındakı tarixi imzanız təkcə Türk dünyasının deyil, bütün dünyanın tarixinə qızıl hərflərlə yazılıb.

Sizin barənizdə ən xoş sözləri, ən yüksək fikirləri cümlələrlə ifadə etməkdə çox çətinlik çəkirik. Sizinlə, gördüyünüz işlərlə qürur duyuruq. Dünya səviyyəsində qəbul olunan liderlərdən biri kimi hər zaman Sizin izinizlə, getdiyiniz yolla addımlamaq bizim üçün böyük şərəf və iftixardır.

Gördüyünüz işlər sayəsində Azərbaycan beynəlxalq mərkəzə çevrilir. Biz hər zaman Azərbaycanımızı Türk dünyasının əsas mərkəzlərindən biri kimi görmüşük. Məhz bu səbəbdən Türk Dünyası Mediatorlar Birliyinin 2024-cü il

28 noyabr–3 dekabr tarixlərində Ankara şəhərində keçirilən Beynəlxalq Qurultayında 2025-ci ildə türkdilli dövlətlərin mediatorlarının Beynəlxalq Qurultayının Azərbaycanda keçirilməsi qərara alınmışdır. Qurultay çərçivəsində 10 ölkəni təmsil edən 400 mediatorun iştirakı ilə Azərbaycan Respublikasının Mediasiya Şurası ilə birlikdə təşkil etdiyimiz Qarabağ Gecəsinin açılışı Sizin sözlərinizlə başlamış və rəhbərliyinizlə işğaldan azad edilmiş ərazilər uğrunda şəhid olan qardaşlarımızın, eyni zamanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi ehtiramla yad edilmiş, Ulu öndərin müdrik fikirləri ekranda səsləndirilmişdir. Həmçinin ümummilli lider Heydər Əliyevin Ankara şəhərində adını daşıyan parkda ucaldılmış abidəsi qurultay iştirakçıları tərəfindən ziyarət edilmiş, xatirəsi hörmət və ehtiramla anılmışdır.

Bunları qeyd etməkdə məqsədim odur ki, biz Türk dünyasının liderlərindən olan Heydər Əliyevin xatirəsini hər zaman uca tuturuq, Azərbaycan, Türk dünyası, bütün dünya üçün gördüyü tarixi işlərə görə onun xatirəsini hörmət və ehtiramla anırıq. Bu isə bizim keçmişimizə, dahi şəxsiyyətlərimizə dəyər verməyimizin bariz nümunəsidir. Biz ümummilli lider Heydər Əliyevin xatirəsini bütün türkdilli dövlətlərə səfərlərimiz zamanı böyük hörmət və ehtiramla anmaqla tariximizə sədaqətimizi hər zaman göstərmişik.

Sizi əmin etmək istəyirəm ki, biz hər zaman Sizin tutduğunuz yola, apardığınız siyasətə uyğun olaraq fəaliyyətimizi davam etdirəcəyik. Siz Azərbaycanda yüzlərlə ilklərin müəllifisiniz. Məhz Sizin təşəbbüsünüzlə hazırlanan və imzaladığınız Azərbaycan Respublikasının "Mediasiya haqqında" Qanunu və bu Qanundan irəli gələrək ölkədə aparılan islahatlar çərçivəsində mediasiya institutunun inkişafı, Azərbaycan mediasiyasının beynəlxalq aləmdə örnək kimi qəbul olunması bizi qürurlandırır.

Cənab Prezident, biz Sizinlə fəxr edirik.

Allah Sizi, ailənizi və Azərbaycan xalqını qorusun!

**Dərin hörmət və ehtiramla,**

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

***

**Zati-aliləri!**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, hər zaman yüksək əhvali-ruhiyyə, xalqınızın davamlı sevgi və dəstəyini arzu edirik.

Bu il Sizin uzaqgörən liderliyinizin və Azərbaycanın tərəqqisi naminə mühüm fədakarlığınızın daha bir sübutunun şahidi olduq. Azərbaycanın COP29 Sədrliyi ölkənin iqlim dəyişmələri, qlobal əməkdaşlıq kimi məsələlərdə liderlik bacarığını, beynəlxalq dialoq və fəaliyyətdə rolunu bir daha nümayiş etdirdi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə təşəkkürümüzü bildiririk. Bizə və missiyamıza olan inamınızın nəticəsidir ki, Mərkəz 2024-cü ildə də böyük nailiyyətlər əldə etdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin getdikcə genişlənən yüksəksəviyyəli beynəlxalq fəaliyyəti Azərbaycanın mühüm ölkə kimi nüfuzunu artırmaqda davam edir, ona yeni dost və tərəfdaşlar qazandırır.

Zati-aliləri, doğum gününüz münasibətilə Sizi bir daha ürəkdən təbrik edirik, Azərbaycan naminə həyata keçirdiyiniz uzaqgörən siyasətinizdə Sizə yeni-yeni uğurlar diləyirik. Əminik ki, Sizin rəhbərliyinizlə xalqınız qarşıdakı illərdə daha böyük nailiyyətlər qazanacaqdır. Sizinlə 2025-ci il martın 13-15-də keçirilməsi nəzərdə tutulan XII Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirik.

**Ən yüksək ehtiramımızla,**

**Vayra Vike-FREYBERQA,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,**
**1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti,**

**İsmail SERAGELDİN,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,**
**1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti,**

**Mariya Fernanda ESPİNOZA,**
**BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri,**
**2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri**

**Tarya HALONEN,**
**2000-2012-ci illərdə Finlandiyanın Prezidenti,**

**Boris TADİÇ,**
**2004-2012-ci illərdə Serbiyanın Prezidenti,**

**Rosen PLEVNELİYEV,**
**2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti,**

**İv LÖTERM,**
**2009-2011-ci illərdə Belçikanın Baş naziri,**

**Əmr MUSA**
**2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi,**

**İvo YOSİPOVİÇ,**
**2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti,**

**Zlatko LAQUMCİYA,**
**2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri,**

**Petar STOYANOV**
**1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti,**

**Tzipi LİVNİ,**
**2006-2009-cu illərdə İsrailin xarici işlər naziri,**

**Jan BADERŞNEYDER,**
**“Müasir Köləliyə Son Qoyaq” Qlobal Fondunun**
**İdarə Heyətinin sədri,**
**“ExxonMobil” şirkətinin sabiq vitse-prezidenti,**

**Filip VUYANOVİÇ,**
**2003-2018-ci illərdə Monteneqronun Prezidenti,**

**Çau Çak VİNQ,**
**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin**
**Qlobal Dərnəyinin həmsədri,**
**Çinin Kingold Qrupunun sədri,**

**Eka TKEŞELAŞVİLİ,**
**2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini,**

**David PAN,**
**Çinin Tsinxua Universiteti Şvarzman kollecinin baş dekanı**

# Azərbaycan Biznesinin İnkişafı Fondunun fəaliyyətinin təmin edilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Biznesinin İnkişafı Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**2** "Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**3** Ləğvetmə prosesində olan müvəkkil kredit təşkilatları vasitəsilə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlıq subyektlərinə verilmiş güzəştli kreditlər üzrə 189.751.707,0 (bir yüz səksən doqquz milyon yeddi yüz əlli bir min yeddi yüz yeddi) manat həcmində qalıq aktivlər Sahibkarlığın İnkişaf Fondunun nizamnamə fondundan silinsin və tələb hüququ həmin müvəkkil kredit təşkilatlarının aktivlərinə transfer edilsin.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydanın (bundan sonra – Qayda) 1.3.1-ci yarımbəndinə uyğun olaraq, sahibkarlıq subyektlərinin güzəştli kreditlərlə maliyyələşdirilməsi qaydasını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. Qaydanın 1.3.3-cü yarımbəndinə uyğun olaraq, investisiya qoyuluşunun həyata keçirilməsi qaydasını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3.iqtisadiyyatın tələbləri nəzərə alınmaqla, Qaydanın 1.3.1-ci yarımbəndində göstərilən güzəştli şərtlərlə digər maliyyələşmə mexanizmlərinin tətbiqi imkanlarını öyrənsin və nəticəsindən asılı olaraq təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1.Fondun strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

5.2.bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6** "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 368 (Cild I) 4-cü hissəsində "İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Biznesinin İnkişafı Fondunun" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 4-cü hissəsinin "Göstərdiyi xidmətlər" sütununun 5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

7.1.ikinci abzas ləğv edilsin;

7.2.üçüncü abzasda "Sahibkarlığın" sözü "Azərbaycan Biznesinin" sözləri ilə əvəz edilsin.

**8** "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1510 (Cild I) 3-cü hissəsi, 5.2–5.6-cı bəndləri və 6-cı hissəsi ləğv edilsin.

**9** "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasının yaxşılaşdırılması, Aparatının və regional bölmələrinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2603 (Cild I) 2.1-ci bəndində "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə, "Respublikası Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditlər üzrə daxilolmalarının (faiz, cərimə və sair)" sözləri "Biznesinin İnkişafı Fondunun dəstək mexanizmləri üzrə yerləşdirilmiş vəsaitindən və fəaliyyətindən əldə olunmuş gəlirlərin (faiz, cərimə, dividend və s.)" sözləri ilə, "güzəştli kreditlər üzrə daxilolmaların" sözləri "dəstək mexanizmləri üzrə yerləşdirilmiş vəsaitdən və fəaliyyətindən əldə olunmuş gəlirlərin" sözləri ilə əvəz edilsin.

**10.** "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası"nın təsdiq edilməsi və "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli 1052 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 694 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**11.** "Sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1461 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1105 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

11.1.3.2-ci bənddə "9 (doqquz)" sözləri "5 (beş)" sözləri ilə əvəz edilsin;

11.2. 3.3-cü bəndin birinci abzasında "5 (beş)" sözləri "2 (iki)" sözləri ilə və "4 (dörd)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

11.3.3.3.3-cü yarımbənd ləğv edilsin;

11.4.3.3.4-cü yarımbənddə "Turizm Agentliyi" sözləri "Neft Fondu" sözləri ilə əvəz edilsin;

11.5.3.5-ci bəndin birinci cümləsinə "rəhbərliyi" sözündən sonra "sədr və 4 (dörd) müavin olmaqla" sözləri əlavə edilsin.

**12.** "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli 1395 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 283 (Cild I) 2-ci və 3-cü hissələri ləğv edilsin.

**13.** "Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1680 (Cild I) 3.2-ci bəndində "Sahibkarlığın" sözü "Azərbaycan Biznesinin" sözləri ilə əvəz edilsin.

**14.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli 3406 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2115 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondunun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

**15.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 260, № 11, maddə 2287 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

**16** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

**17** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 271 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "Respublikasının Sahibkarlığın İnkişafı Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC," sözləri "Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

**18** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 977 (Cild I) ilə təsdiq edilmiş "2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın 5.0.3-cü yarımbəndində "Sahibkarlığın İnkişafı Fondunun, "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin," sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondunun və" sözləri ilə əvəz edilsin.

**19** "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının 2024-cü ildə Azərbaycan Respublikasında təşkili ilə əlaqədar həyata keçiriləcək layihələr çərçivəsində sahibkarlara kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə faizlərin subsidiyalaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2461 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 142 (Cild I); 2024, № 5, maddə 527) aşağıdakı dəyişikliklər edilsin:

19.1. 1-ci, 2-ci, 6-cı hissələrdə və 5.1-ci bənddə "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə əvəz edilsin;

19.2. həmin Fərmanla təsdiq edilmiş "Sahibkarlara kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə faiz subsidiyalarının verilməsi Qaydası"nın adında və 1.1-ci bəndində "Respublikasının Sahibkarlığın" sözləri "Biznesinin" sözü ilə əvəz edilsin.

**20.** İqtisadiyyatın qeyri-neft sahələrinin inkişafını təmin edən və ölkə daxilində, eləcə də ölkə xaricində yerli biznesin inkişafı ilə əlaqədar olaraq həyata keçirilən layihələrə investisiya qoyuluşu, o cümlədən bu sahələrdə fəaliyyət göstərən təsərrüfat cəmiyyətlərinin və digər kommersiya təşkilatlarının nizamnamə kapitalındakı iştirak payını (səhmlərini) almaqla müddətli investisiya qoyuluşu fəaliyyəti bu Fərmanın 4.2-ci bəndində nəzərdə tutulan normativ hüquqi aktlar qüvvəyə minənədək "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası tərəfindən müəyyən edilmiş qaydalarla tənzimlənir.

**21** Bu Fərman (10-cu hissə istisna olmaqla) 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

**22** Bu Fərmanın 10-cu hissəsi bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan normativ hüquqi aktla eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasında qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında rəqabətqabiliyyətli qeyri-filiz faydalı qazıntı yataqlarının istismara cəlb edilməsi üçün əlverişli mühit yaradılması məqsədilə **qərara alıram:**

**1** "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti:

1.1. nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində mövcud vəziyyətin təhlil edilməsi, müvafiq bazarın öyrənilməsi və aparılacaq təhlillərin nəticəsindən asılı olaraq bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.beynəlxalq standartlar nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və istismarı sahəsində milli standartların təkmilləşdirilməsi üçün təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3.bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

**1** Minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 101 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**4** Bu Sərəncamın 1-ci və 3-cü hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Bağırov Natiq Nadir oğlu
Bunyatəliyev Rauf Əli-Heydər oğlu
Qurbanov Cavanşir Kazım oğlu
Sadıqov Sadıq Asəf oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasova Zərqələm Məstan qızı
Abdullayev Vasif İslam oğlu
Cəfərov İqrar İsa oğlu
Əliyev Fərhad Vaqif oğlu
Mamedov Musa Saleh oğlu
Məmmədov Aydın Ağa-Əli oğlu
Musayev Nəsimi Hüseyn oğlu
Rəsullu Rəşad Fərhad oğlu
Tahirov Tahir Sahibcan oğlu
Verdiyev Vüqar Mürvət oğlu.

**2** Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Abdullayev Nəriman Sadıx oğlu
Umudov Rövşən Ağahüseyn oğlu.

**3** Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Qarayev Faiq Əli oğlu
Qiyasov Mirağa Şahbudağ oğlu
Tağıyev Ramiz Cahangir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar dövlət–özəl tərəfdaşlığı imkanlarından istifadə edilməklə Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi istehsalının artırılmasını və elektrik enerjisi ixracının həyata keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti beynəlxalq təcrübə nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında yeni istilik elektrik stansiyasının tikintisi üçün potensial tərəfdaş investorlarla danışıqlar aparılmasını, məsləhətçi şirkətlərin cəlb edilməsini, Texniki İqtisadi Əsaslandırmanın və digər layihə sənədlərinin hazırlanmasını və layihənin həyata keçirilməsi ilə bağlı yekun təkliflərin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılmaqla beş ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tikiləcək yeni istilik elektrik stansiyasının ötürücü şəbəkəyə qoşulması və bundan irəli gələn digər zəruri infrastrukturun təkmilləşdirilməsi üzrə işlərin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin layihənin həyata keçirilməsi mərhələsinə uyğun olaraq dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə (investisiya xərcləri) nəzərə alınmasını təmin etsin;

2.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla istilik elektrik stansiyasının tikilməsi üçün torpaq sahəsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə təqdim edilməsini və bundan irəli gələn məsələlərlə əlaqədar müvafiq tədbirlər görülməsini bir ay müddətində təmin etsin;

3.2. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə istilik elektrik stansiyasının Naxçıvan Muxtar Respublikasının enerji sisteminə qoşulması, enerji sisteminin tənzimlənməsi və Naxçıvan Muxtar Respublikasının daxili tələbatının ödənilməsi üçün zəruri olan elektrik enerjisi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Roma Papası Fransisk Həzrətlərinə

**Zati-müqəddəsləri!**

Müqəddəs Milad bayramı münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Mərhəmət, xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirən, yeni ruh gətirən bu nurlu bayram özünün bütün məramı ilə insanlar arasında qarşılıqlı anlaşmanı, dəstəyi və birliyi tərənnüm edir. Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması tərəfindən bu bayramın daim xüsusi coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edilməsi ölkəmizdə hökm sürən etnik-mədəni müxtəliflik, zəngin multikulturalizm ənənələrinin bariz təzahürüdür.

Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik və tolerantlıq mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı etimad və hörmət şəraitində birgə yaşadığı nadir diyarlardan biridir. Biz bütün bunlarla fəxr edir və bu dəyərləri milli sərvət kimi qoruyuruq. Təsadüfi deyil ki, xalqlararası dostluğun və dinlərarası harmoniyanın, multikulturalizm və tolerantlıq ənənələrinin qorunması Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən olmaqla yanaşı ilk növbədə xalqımızın təbii yaşam tərzidir.

Müasir Azərbaycan cəmiyyətində xristian icmasının özünəməxsus yeri vardır. Yüz illər boyu Azərbaycanda məskunlaşıb vahid ailə kimi yaşayan xristian vətəndaşlarımız Vətənlərinin ictimai-siyasi və sosial-mədəni həyatının bütün sahələrində yaxından iştirak edərək doğma ölkəmizin rifahına böyük töhfələr verirlər. Ərazimizdə mövcud olan qədim xristian irsi, məbədlər, kilsələr və digər ibadət yerləri, məscidlər və sinaqoqlar kimi eyni səviyyədə Azərbaycan dövləti tərəfindən mühafizə olunur. Ölkəmiz eyni zamanda dünya mədəni irsinin incilərindən sayılan xristian abidələrinin qorunmasında fəal rol oynayaraq mədəniyyətlərarası dialoqu təşviq edir.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında formalaşmış münasibətlər bizi sevindirir. İkitərəfli əlaqələrimizin tarixi çoxsaylı qarşılıqlı səfərlər, daimi təmaslar və əlamətdar hadisələrlə zəngindir. Məmnunluqla qeyd etmək istərdim ki, ölkəmizdə sayca ikinci olacaq və Papa II İohann Pavelin şərəfinə ucaldılacaq yeni katolik kilsəsi ölkəmizdə katolik dini icmasına göstərilən böyük diqqət və qayğının təzahürü, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksək səviyyəli əlaqələrin yeni rəmzidir.

Zati-müqəddəsləri,

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında münasibətlərin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə təşəkkürümü bildirir, ölkəmizin multikulturalizm və tolerantlıq ənənələrini daim yüksək dəyərləndirdiyiniz üçün minnətdarlığımı ifadə edirəm.

Əminəm ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı səmərəli əməkdaşlıq bundan sonra da dünyada dinlərarası və mədəniyyətlərarası anlaşmanın təşviqi, ümumbəşəri dəyərlərin qorunub saxlanması, insanlar arasında həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə doğum gününüz və qarşıdan gələn Yeni, 2025-ci il münasibətilə də ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, xeyirxah və müqəddəs missiyanızda uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 dekabr 2024-cü il**

# “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan din xadimləri Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

Sizi – “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayıram.

Ayrı-ayrı dini etiqad və inanclara mənsub icmaların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni münasibətlər sistemi formalaşmışdır. Yüz illərlə nümunəvi tolerantlıq ənənələrinin mövcud olduğu ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Təsadüfi deyil ki, dünya dini liderlərinin mötəbər beynəlxalq tədbirlərinə uğurla ev sahibliyi edən Azərbaycan bu gün mədəniyyətlərarası əməkdaşlıq və dialoq məkanına çevrilmişdir.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, zəngin multikulturalizm dəyərlərinin təbliği və təşviqi dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara uyğun həyata keçirilir. Biz bu təcrübəni ictimai-siyasi sabitliyin və həmrəyliyin vacib amili kimi qiymətləndiririk.

Hazırda dünyada cərəyan edən mürəkkəb proseslər, dinin siyasi məqsədlər üçün vasitəyə çevrilməsi, ksenofobiya, ekstremizm, məzhəbçilik kimi mənfi təzahürlər beynəlxalq sülhə və əmin-amanlığa ciddi təhdidlər yaratmaqdadır. Belə təhlükəli amillərin vaxtında qarşısının alınması üçün dinin cəmiyyət həyatında yerinin və rolunun düzgün qiymətləndirilməsi, mənəvi-əxlaqi tərbiyə işinin təkmilləşdirilməsi, dini təhsil və maarifləndirmə istiqamətində fəaliyyətin gücləndirilməsi günümüzün zəruri məsələlərindəndir. Bu sahədə din xadimlərinin üzərinə böyük vəzifələr düşür.

Azərbaycanda müxtəlif konfessiyaları təmsil edən din adamlarının, ilahiyyatçıların, alim və mütəxəssislərin aktual problemlərin müzakirəsi ilə bağlı bir araya gəlməsini təqdirəlayiq hesab edirəm. Əminəm ki, toplantınız konstruktiv müzakirələr şəraitində keçəcək, ölkəmizdə dini maarifləndirmənin müasir tələblərə uyğun təşkilinə və mənəvi-əxlaqi dəyərlərin təbliğinə layiqli töhfə verəcəkdir.

Bir daha sizə ən xoş diləklərimi yetirir, Forumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

Müzəffər ordumuz 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və hazırda Sizin rəhbərliyinizlə Qarabağ bölgəsində bərpa işləri sürətlə həyata keçirilir, ölkəmizin iqtisadi gücü artır.

Bu şanlı Qələbə Sizin düşünülmüş siyasətiniz, qətiyyətli və ardıcıl diplomatik addımlarınız nəticəsində mümkün oldu. Eyni zamanda Sizin ordu quruculuğu siyasətiniz dünyaya nümayiş etdirdi ki, bu gün Azərbaycan həm iqtisadi, həm də hərbi baxımdan regionun ən güclü və önəmli ölkələri sırasındadır. Azərbaycanın D-8-ə qəbul olunması iqtisadi artımın gücləndiyini təsdiq edir.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə bu gün Azərbaycan beynəlxalq aləmdə sabit, öhdəsinə düşən vəzifələri vaxtında yerinə yetirən ölkə kimi qəbul olunur. COP29 konfransının Azərbaycanda yüksək səviyyədə keçirilməsi bunun əyani sübutudur.

Sizin digər sahələrdə həyata keçirdiyiniz konstruktiv və praqmatik siyasət ölkəmizin inkişafına, insanların həyatına öz bəhrələrini verməkdədir. Əminəm ki, Sizin siyasətiniz Azərbaycana daha böyük uğurlar və qələbələr qazandıracaqdır.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, cansağlığı arzulayır, Azərbaycanın gələcəyi naminə apardığınız siyasətdə böyük uğurlar diləyirəm.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

***

**Möhtərəm cənab Prezident!**

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim və Sizə möhkəm cansağlığı, xoşbəxtlik, doğma Azərbaycanın gələcəyi naminə bundan sonra da nailiyyətlər arzulayım.

Doğma Şuşanın azad edildiyi həmin unudulmaz gündən, bütün dünyanın Azərbaycan Ordusunun Qələbəsi barədə xəbər tutmasından və ölkənin ərazi bütövlüyünün bərpasından daha bir il ötdü. Bu illər ərzində ən çətin tarixi dövrdə Azərbaycan xalqı öz suveren maraqlarını inamla və ardıcıl şəkildə qoruyub, müdafiə qabiliyyətini və beynəlxalq mövqelərini möhkəmləndirib, iqtisadi potensialını artırıb. Bütün bu proseslərin arxasında Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı olaraq Sizin qətiyyətli mövqeyiniz və dəmir iradəniz hiss olunur.

Ölkədə vüsət alan böyük quruculuq işləri Sizin bütün dünyadakı soydaşlarınızın, dostlarınızın, tərəfdarlarınızın qürur mənbəyidir və onların diqqət mərkəzindədir. Bu proses gələcəyə inamla baxmağa və Sizin rəhbərlik etdiyiniz Azərbaycanın ən parlaq, genişmiqyaslı nailiyyətlərinin hələ irəlidə olduğunu deməyə imkan verir.

Möhtərəm İlham Heydər oğlu, qoy qarşıdan gələn il Sizə və bütün Azərbaycan xalqına rifah, tərəqqi gətirsin!

Sizə və yaxınlarınıza xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

***

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Türk Dövlətləri Təşkilatının Katibliyi adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Azərbaycan Respublikası Sizin liderliyiniz və müdrik siyasətiniz sayəsində dünyadakı nüfuzunu daha da möhkəmləndirmiş, beynəlxalq sülh, sabitlik və əmin-amanlığın təminatına ciddi töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilmişdir.

Bu yaxınlarda Bişkek şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə Görüşü zamanı Sizinlə görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatının daha da gücləndirilməsində mühüm rol oynadığını vurğulayır, təşkilatın inkişafı məqsədilə göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikası genişmiqyaslı transformasiyaların, fəal sosial-iqtisadi inkişaf prosesinin həyata keçirilməsində, islahatların aparılmasında, davamlı iqtisadi artımın təmin edilməsində, habelə əhalinin həyat səviyyəsinin yüksəldilməsində böyük nailiyyətlər qazanmaqda davam edir.

Sizə möhkəm cansağlığı, uğurlar, Azərbaycan Respublikasına sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Bakıtcan SAQİNTAYEV,***
***Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin rəhbərliyinizlə Azərbaycanın qarşıya qoyduğu bütün məqsədlərə nail olmasını, bundan sonra da sürətlə inkişaf etməsini diləyir, Sizə ən xoş arzularımı çatdırıram.

Əminəm ki, qardaş xalqlarımız arasında mövcud olan sıx dostluq və əməkdaşlıq bundan sonra da hərtərəfli möhkəmlənəcəkdir.

Mən bizim münasibətlərimizi çox yüksək qiymətləndirirəm və Sizinlə olan bütün görüşlərimizi həmişə səmimi hisslərlə xatırlayıram.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və böyük müvəffəqiyyətlər, ailənizə xoşbəxtlik və firavanlıq, qardaş Azərbaycan xalqına isə sülh və rifah arzulayıram.

**Səmimi diləklərlə,**

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

# Sosial paket 3 milyon insanı əhatə edəcək

**Əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artacaq. Prezident İlham Əliyevin imzaladığı “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” 2024-cü il 23 dekabr tarixli Sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.**



Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq.

Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində Prezidentə təqdim edəcək.

2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək.

Həmçinin Sərəncamla Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək.

Beləliklə, həmin sahələr (sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s.) üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Yeni sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

***XQ***

# Milli Məclisdə görüşlər



**Dekabrın 23-də Milli Məclisin sədri Sahibə Qafarova İtaliyanın Azərbaycandakı səfiri Luka Di Cianfrançesko ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanla İtaliya arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bildirilib ki, enerji və iqtisadi sahədə mövcud əməkdaşlıq əlaqələri digər sahələrdə də münasibətləri daha da genişləndirməyə imkan verir. Rarlamentlər arasında əlaqələrin daha da inkişafının vacibliyi də qeyd olunub.

Milli Məclisin sədri Sahibə Qafarova özünün İtaliyaya rəsmi səfərini məmnunluqla xatırlayaraq, qarşılıqlı səfərlərin əlaqələrin daha da genişləndirilməsinə müsbət töhfə verdiyini bildirib.

Spiker bəzi Qərb ölkələrinin Azərbaycana qarşı yalan, böhtan kampaniyası apardığını, xüsusilə COP29 ərəfəsində bu cür kampaniyaların daha da genişləndiyini səfirin diqqətinə çatdırıb. O cümlədən bəzi milli parlamentlərdə və beynəlxalq parlament təşkilatlarında ölkəmizlə bağlı qərəzli qərarların qəbul edilməsinin yolverilməz olduğu, bu addımın həmin təşkilatların özlərinin nüfuzuna xələl gətirdiyi vurğulanıb.

İtaliyanın ölkəmizdəki səfiri Luka Di Cianfrançesko COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırıb. O, İtaliya Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin bu mühüm qlobal tədbirdə iştirak etdiyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***

**Milli Məclisin sədri Sahibə Qafarova dünən ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri Zaur Askenderovun başçılıq etdiyi nümayəndə heyəti ilə də görüşüb.**

Xalqlarımız arasındakı tarixi əlaqələrdən, ortaq dəyərlərdən danışan Milli Məclisin sədri əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan–Rusiya münasibətlərinin bu gün də prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

S.Qafarova indiyədək Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən 300-dək sənədin imzalandığını bildirərək, onların arasında “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə”nin xüsusi əhəmiyyət kəsb etdiyini deyib.



Rusiya Federasiyası Dağıstan Respublikası Xalq Məclisinin sədri Zaur Askenderov Dağıstan və Azərbaycan xalqlarının tarixi əlaqələri, paylaşdıqları ortaq dəyərlərdən danışıb. Qonaq Rusiya–Azərbaycan münasibətlərinin inkişafında ulu öndər Heydər Əliyevin rolu, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı, Dağıstanda tarixən böyük Azərbaycan bölgəsinin olduğunu və azərbaycanlıların burada vahid ailə kimi yaşadıqlarını diqqətəçatdırıb.

Görüşdə parlamentlərin qarşılıqlı münasibətlərin inkişafında oynadığı mühüm rol qeyd edilib.

***XQ***

# Qalib sərkərdə, müdrik lider

**Mübaliğəsiz demək olar ki, hər bir xalqın xoşbəxtliyi onun suverenliyi, azadlığı ilə bilavasitə bağlıdır. Müstəqil bir dövlət kimi tanınmaq, taleyini özünün həll etmək arzusu dünyada olan beş minədək xalqın bir çoxunun ən böyük istəyi olsa da, indiyədək haradasa 200 dövlət qurulmuşdur. Bu baxımdan Azərbaycan xalqı xoşbəxt xalqlar sırasındadır ki, onun müstəqil dövləti vardır. Həmçinin son illərdə iqtisadi baxımdan xeyli inkişaf etdiyi üçün daha da xoşbəxtdir.**



Ümummilli lider 2003-cü il seçkiləri ərəfəsində xalqa etdiyi müraciətində bildirmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu öndər ürəkdən inanırdı ki, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətinə və iqtisadiyyatına bələd olan və təşəbbüskar bir şəxsiyyət olan İlham Əliyev xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək dövlətimizin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək və Azərbaycan, həqiqətən də, "dünyaya Günəş kimi doğacaq." Unudulmaz dahi şəxsiyyətin ümidləri, onun siyasi xəttinə səs verən xalqın inamı özünü doğrultdu. İlk dəfə ölkə Prezidenti seçilərkən – "Mən hər bir azərbaycanlının Prezidenti olacağam,"– deyən cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə fədakar bir kapitan kimi, "Azərbaycan" gəmisini zamanın fırtınalarından çıxararaq, siyasət okeanının nəhəng aysberqlərindən qoruyaraq qətiyyətlə irəli apara bildi. Gördüyü işlərlə sübut etdi ki, ölkədə hər kəsin Prezidentidir. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, onun İlham Əliyev kimi qüdrətli, xarizmatik lideri, vüqarlı bayraqdarı var.

Heç şübhəsiz müstəqillik tariximizin böyük hissəsi ölkəmizin, onun müstəqilliyinin baş memarı Heydər Əliyevin kursunu inamla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Praqmatik liderlik keyfiyyətlərinə malik olan İlham Əliyev Azərbaycanın müasir dövlətə çevrilməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir. Ulu öndərin siyasi kursunu böyük müdrikliklə davam etdirən Prezident İlham Əliyev onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cəmiyyətin və dövlətin marağında olan təhsil sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ümummilli liderimiz tərəfindən əsası qoyulmuş və xalqın gələcəyinə hesablanmış təhsil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Neft kapitalının insan kapitalına çevrilməsini prioritet məsələ hesab edən dövlət başçımız deyir: "Əgər Azərbaycan müharibə vəziyyətində olmasaydı büdcədə təhsil xərcləri birinci yerdə olacaqdı". Təhsil xərclərinin birinci yerdə olması barədə söylənilən bu fikir isə cənab Prezident tərəfindən təhsilə nə qədər böyük əhəmiyyət verildiyinin göstəricisidir.

Prezident İlham Əliyevin fəaliyyəti ölkəmizdə təhsil siyasətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. O, təhsil sistemi qarşısında duran əsas vəzifələri müəyyənləşdirərək azərbaycançılıq ideologiyasının təbliği, Azərbaycan dilinə, ədəbiyyatına, tarixinə, mədəniyyətinə məhəbbət hissinin, milli-mənəvi dəyərlərə hörmət hissinin aşılanması, Vətənə sədaqət, vətəndaşlıq mövqeyinin formalaşdırılması, vətənpərvərlik tərbiyəsi məsələlərini önə çəkibdir.

Mən özümü Azərbaycanın xoşbəxt insanlarından biri hesab edirəm ki, həyatımın səkkiz ilini (2 il BDU-nun rektoru, 6 il Təhsil naziri kimi) ulu öndər Heydər Əliyevin dövründə, on ilini isə (2003–2013-cü illərdə Təhsil naziri kimi) İlham Əliyevin bilavasitə rəhbərliyi altında işləmişəm. Yaxşı xatırlayıram ki, Ulu öndərin yolunu uğurla davam edən Prezidentimiz təhsili ölkənin prioritet sahələrindən biri kimi qəbul etmişdi və hər kvartalda keçirdiyi iqtisadi müşavirələrdə ildə ən azı bir dəfə mənə Təhsil naziri kimi mütləq söz verər, aparılan işlərlə bağlı hesabatımı dinləyərdi. Böyük iftixar hisi ilə qeyd etmək istəyirəm ki, məhz onun rəhbərliyi altında həmin dövrdə məktəb tikintisi geniş vüsət almış, 2003–2013-cü illərdə ölkədə üç minə yaxın məktəb binası tikilmiş, yaxud əsaslı təmir olunmuş, və ya yardımçı binalar inşa edilmişdir.

Bir məsələni də vurğulamaq istəyirəm ki, həmin məktəblərin açılış mərasimində özü şəxsən iştirak etmək istəsə də, bəzən həmin tədris ocaqlarının açılışı eyni günə və müxtəlif regionlara təsadüf etdiyinə görə, bu mərasimlərin hamısına qatıla bilmirdi, lakin ölkənin ali struktur rəhbərlərini öz təbrik məktubu ilə bu tədbirlərə göndərir, insanların sevincinə qoşulurdu.

Məhz həmin illərdə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" kimi neçə-neçə yeni fərman və sərəncamlar imzalandı, "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram(2003–2007-ci illər)", "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası", "2009–2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahat üzrə Dövlət Proqramı", "Təhsil sisteminin informasiyalaşdırılması proqramı (2008–2012-ci illər)", "Elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009–2015-ci illər) "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı", Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramının (2007–2012-ci illər)" və təhsillə bağlı digər, ümumilikdə, 16 Dövlət proqramı qəbul edildi.

Fikrimizcə, İlham Əliyevin Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, birinci vitse-prezidenti, Azərbaycan Respublikasının Baş naziri vəzifələrindəki uğurlu fəaliyyətinin əsasında onun kamil elmi-iqtisadi dünyagörüşü, Avropa dillərini mükəmməl bilməsi, neft strategiyasının siyasi mahiyyətini doğru-düzgün müəyyənləşdirməsi dayanırdı. Artıq həyatının bu məsuliyyətli mərhələsində cənab İlham Əliyev idarəetmə sahəsindəki özünəməxsus yanaşmaları ilə diqqəti cəlb etmişdi.

Ötən illər ərzində Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən islahatlar ölkəmizin inkişafını təmin etmiş və dünya idarəçilik sistemində "İnkişafın Azərbaycan modeli" kimi qəbul olunmuşdur.

Bu siyasətin ən yüksək zirvəsi isə heç şübhəsiz ki, hər bir azərbaycanlı üçün ən mühüm məsələ olan ərazi bütövlüyü və Qarabağın azad olunması ilə zirvəyə çatmalı idi. Bütün diplomatik təmaslarında düşmənə sülh prosesini təklif edən ölkə rəhbəri, eyni zamanda, Azərbaycanın öz gücü ilə torpaqları azad etməyə qadir olduğunu da bəyan etmişdir. Nəhayət, 2020-ci ilin 27 sentyabrında işğalçıların növbəti hərbi təxribatına cavab verən Azərbaycan Ordusu Ali Baş Komandanın tarixi əmrinin icrasına başladı. 44 gün ərzində bütün dünyaya ordumuzun qüdrəti nümayiş etdirildi və "dəmir yumruq"la işğalçılar məhv edildi. Başqa çıxış yolu qalmayan Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu.

Böyük Qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu öndərin arzusunu reallaşdırdı: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Amma bu şansı dəyərləndirməyən anti-Azərbaycan qüvvələr yenidən separatçı-şovinist xəyallarını gerçəkləşdirməyə cəhd etdilər. Prezident İlham Əliyev beynəlxalq müstəvidə kamil diplomat, hərb meydanında müzəffər Ali Baş Komandan kimi bütün bu planları məhv etdi və 200 illik tariximizdə ilk dəfə olaraq dövlətimizin ərazi bütövlüyü tam şəkildə təmin edildi. Bir gün davam edən lokal antiterror tədbirləri Xankəndi, Xocalı həsrətimizə son qoydu.

Son dörd ildə ölkəmizdə baş verən hərbi-siyasi hadisələr regionda gələcək konturların cızılmasına gətirib çıxardı. Uzun illərdir ərazi bütövlüyümüzlə bağlı mövcud vəziyyət dəyişdi və Azərbaycan öz suverenliyini tam bərpa etdi. Artıq Şuşamızda, Zəngilanda bir sıra mühüm tədbirlər keçirilir. Həyata keçirilən müdrik siyasət nəticəsində Azərbaycanın dünyada mövqeləri güclənmiş, müttəfiqlərimizin və dostlarımızın sayı artmışdır. Ölkəmiz BMT, Avropa Birliyi, Avropa Şurası, NATO, Türk Dövlətləri təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, UNESCO, İSESCO və digər beynəlxalq qurumlarla intensiv əməkdaşlıq edir. Respublikamız BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına 4 il sədrlik etmişdir.



Bu gün həm regional, həm də qlobal səviyyədə bütün iqtisadi və siyasi məsələlərdə Azərbaycanla hesablaşılır və ölkəmizin maraqları nəzərə alınır. Artıq Azərbaycan uzunmüddətli inkişaf perspektivləri olan dövlətə çevrilmişdir. Xalqın və Azərbaycan dövlətinin mənafeyini hər şeydən üstün tutaraq, bütün səyləri, qarşıya qoyulan məqsədlərə çatmağa yönəldən İlham Əliyev ölkənin sosial-iqtisadi həyatında dönüşə nail oldu, dövlətin əsaslarını və bünövrəsini daha da gücləndirdi.

Ermənistan tərəfindən onilliklər boyu soyqırımı, deportasiya və təhdidlərə məruz qalmış, bu gün təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan yüz minlərlə azərbaycanlının doğma vətəninə qayıtmaq hüququnun təmin edilməsi üçün yeni bir mübarizəyə başlayaraq Qərbi Azərbaycan İcmasının yaradılmasına xeyir-dua vermiş cənab Prezident 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasında etdiyi çıxışında vurğunu məhz bu amillərin üzərinə salaraq bildirmişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir." Bu gün onun ideyalarını gerçəkləşdirmək uğrunda ardıcıl və yorulmaz mübarizə aparan Qərbi Azərbaycan İcması "Qayıdış Konsepsiyasını" həyata keçirmək əzmindədir.

Bu gün qalib Azərbaycan üçün yeni bir mərhələ başlamışdır. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, ən mühüm vəzifələrdən biri Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, 30 illik işğal dövründə tamamilə dağıdılan, talan olunan yurdlarımızın, şəhər və rayonlarımızın ən yüksək səviyyədə yenidən qurulması, orada həyatın bərpa olunması, keçmiş məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasıdır. Azərbaycan dövləti bu istiqamətdə çox nəhəng tədbirlər həyata keçirməkdədir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edirlər. İşğaldan azad edilmiş ərazilərdə ən müasir şəhərsalma nümunələri, texnologiyaları tətbiq etməklə, "ağıllı şəhər" və "ağıllı kənd"lər, bütün sosial infrastruktur, o cümlədən xəstəxanalar, məktəblər, idman obyektləri, iaşə obyektləri, yollar, tunel və körpülər inşa olunur, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılmış, elektrik və su təsərrüfatı yenidən qurulmaqdadır. Burada görülən işlər, bir çoxu üçün xəyal kimi görünən nəhəng layihələrin reallaşdırılması azad edilmiş torpaqlara gələn hər kəsi valeh edir, təəccübləndirir.

Hazırda Qarabağ və Şərqi Zəngəzur nəhəng quruculuq, dirçəliş meydanına çevrilmişdir. Əhalinin təhlükəsizliyi təmin olunduqca, həyat şəraiti yaradıldıqca azad edilmiş yurdlara əbədi qayıdış sürətlənir. İndiyə qədər 10 min nəfərə yaxın keçmiş köçkün öz doğma yurd-yuvasına köçürülüb. Böyük Qayıdış proqramının birinci mərhələsində– 2026-cı ildə dədə-baba yurdlarına dönənlərin sayı 140 min nəfərə çatacaq. Hazırda erməni vandallarının xarabazara çevirdiyi torpaqların yarasına məlhəm qoyulur. Mən gedib gözlərimlə görmüşəm ki, orada bütün sosial infrastruktur əsaslı şəkildə yenidən qurulur: xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, tunel və körpülər inşa edilir. İqtisadiyyatın hərtərəfli inkişafı, yoxsulluğun minimum həddə endirilməsi, xarici iqtisadi və beynəlxalq münasibətlər, insanların sosial rifah halının yaxşılaşdırılması, iş yerlərinin açılması, gəlirlərin artımı, şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi kimi vacib həyati problemlər Prezident İlham Əliyevin prioritet hesab etdiyi, hər zaman düşündüyü sahələrdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Son illər dövlət başçısının imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəfin reallaşması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir.

Ulu öndər Heydər Əliyevin strateji kursunu davam etdirərək və yaradılmış sosial-iqtisadi bazaya əsaslanaraq Prezident İlham Əliyev zamanın yeni çağırışlarına cavab verir, bu isə postsənaye cəmiyyəti problemlərini sürətlə həll etmək və innovasion cəmiyyət quruculuğuna keçilməsi deməkdir. Eyni zamanda, praqmatik siyasətçi kimi, qarşıda duran strateji vəzifələri düzgün qiymətləndirir, xalqın mənafeyi baxımından strateji məqsədləri önə çəkir. Onun əsas məqsədi Azərbaycanı yaxın perspektivdə inkişaf etmiş dövlətlər sırasında görməkdir.

Dünyada ən mötəbər beynəlxalq forumlardan biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının -COP29-un bu yaxınlarda ölkəmizdə keçirilməsi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xarici siyasətinin mühüm nəticələrindən biri hesab olunmalıdır. Fikrimcə, onun böyük iradəsi, əzmkarlığı, cəsarəti, siyasi müdrikliyi və gərgin əməyi nəticəsində COP29-un Azərbaycanda ən yüksək səviyyədə təşkili və keçirilməsi bu tədbirin BMT tarixində ən möhtəşəm beynəlxalq forumlardan biri kimi yadda qalmasına səbəb oldu və bəşəriyyətin ekoloji təhlükəsizliyinin təmin edilməsində yeni mərhələnin başlanğıcına çevrildi. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un bəşəriyyət üçün uğurlu nəticələri dövlətimizin növbəti uğurudur.

Bu günlərdə Prezident İlham Əliyevin Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibə dövlətimizin başçısının region, bütünlükdə isə dünya ilə bağlı narahatlığının izharı idi.

Prezident İlham Əliyev dost olan ölkələri məmnunluqla qeyd edir, yüksək dəyərləndirir. Azərbaycan–Rusiya kontekstində məsələn: "Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur", yaxud Azərbaycan–Türkiyə qardaşlığının nümunəsində: "Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 1992-ci ilin əvvəlindən Türkiyə ilə hərbi əməkdaşlıq edir. Bu hərbi əməkdaşlıq o vaxt başlayıb və bu günə qədər davam edir. Təbii ki, zərurətdən asılı olaraq formalar dəyişir, amma deməliyəm ki, bu 30 ildən artıq müddətdə Türkiyə və onun hərbi strukturları Azərbaycan Ordusunun müasirləşdirilməsində və onun həm döyüş qabiliyyətinə, həm də əməliyyatların planlaşdırılmasına, vəziyyətin təhlilinə, hərbi kəşfiyyatın potensialına uyğun olaraq yüksək standartlara çatdırılmasında böyük rol oynayıblar. Yəni belə yardıma görə türk dostlarımıza çox minnətdarıq" – deyir.

Prezident müsahibəsində özünü hegemon statusunda hiss edən və ya etdirməyə çalışan Qərbi, Fransanı nəzərdə tutaraq deyir: "Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Onlar öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əyirlər, müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə keçmiş kolonial, indi isə bəzi neokolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu, onların şüurunda dərin kök salıb".

Onlar həm də bizim 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərlə və 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi faktı ilə barışa bilmirlər. Ona görə ard-arda müxtəlif şəkildə təzyiq göstərməyə çalışırlar. Ölkəmiz əleyhinə qara piar aparır, məğlub və işğalçı ölkənin silahlandırılmasına dəstək verir, Ermənistanda hərbi baza yaradır, ermənilərin təəssübünü çəkirlər. Ölkə rəhbəri yenə də xəbərdarlığını etdi: "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək".

Prezident İlham Əliyev davamlı sülhə nail olunmasında məsələnin birdəfəlik həlli üçün nə etmək lazım gəldiyini aydın şəkildə açıqlayır. Bunun üçün Ermənistan öz konstitusiyasında dəyişiklik etməlidir. Əks təqdirdə, Ermənistan konstitusiyası indiki formada qalarsa, sülh sazişi yarımçıq və qısamüddətli olacaq.

Müsahibədə ən çox diqqət çəkən məqamlardan biri də cənab Prezidentin deportasiya edilmiş soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı ilə bağlı aydın mövqeyidir. Bu məsələyə həmişə birmənalı münasibət bildirən cənab İlham Əliyev bu dəfəki imkandan da istifadə edərək Azərbaycan dövlətinin və cəmiyyətin dəyişməz münasibətini açıq bəyan etmişdir: "...Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda – 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib."

Azərbaycan Prezidenti qeyd etmişdir ki, onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. "...Biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq. Zənnimcə, əgər bu iki proses paralel kursla gedərsə, onda bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu, həm də ictimai konsensusdur. Bizim işğal illərində aldığımız yaralar isə 30 il keçməsinə baxmayaraq hələ də sağalmayıb. Yəni, bunun üçün vaxt lazımdır. Bu məqsədə çatmaq üçün isə ictimai fon, ünsiyyət lazımdır, insani dildə danışmaq gərəkdir. Beləliklə, indi vəziyyət bundan ibarətdir."

Cənab Prezident də həm COP29 günlərində, həm də Rusiyanın "RİA Novosti" agentliyi üçün verdiyi müsahibədə Azərbaycanı tanıtdı, gücünü, mənəvi qüdrətini 196 ölkədən 76 000 insanın önündə sərgilədi. Zənnimcə, bu müsahibə də cəsarətin, dərin analitik təfəkkürün, böyük siyasi iradənin və praqmatik yanaşmanın bütün dünyaya daha bir nümayişi oldu.

"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin", – sözləri ilə Ulu öndərin başladığı quruculuq, inkişaf, beynəlxalq birliyə açılma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi qatlarını əhatə edən həmrəylik kursu onun siyasi varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

***Misir MƏRDANOV,***
***ETN Riyaziyyat və Mexanika İnstitutunun direktoru***

# Güclü Azərbaycan davamlı və ali hədəfimizdir



**Dövlət başçısı İlham Əliyev tariximizə Zəfər seçkiləri kimi yazılan 7 fevral 2024-cü il prezident seçkilərində inamlı Qələbəsindən sonra andiçmə mərasimində bildirdi: "2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam... Bu illər uğurlarla, qələbələrlə dolu illər oldu. Çətinliklər də, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla getdi. 2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır."**

## Əsas strateji hədəflər

Dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin strateji hədəfi güclü Azərbaycan dövlətinin formalaşdırılması, iqtisadiyyatın inkişaf etdirilməsi, müasir iqtisadi sistemin yaradılması, cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatların həyata keçirilməsi... kimi həlli vacib məsələlər idi.

Təbii ki, əldə olunan hər bir uğur yeni bir hədəfin, ona doğru atılan inamlı addımların məcmusudur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik.

## Sosial-iqtisadi göstəricilər

İqtisadiyyatın inkişafı və insanların sosial rifahının yüksəldilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsçüsü olduğu qanun layihələri, həmçinin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən sosial-iqtisadi layihələr vətəndaşlarımızın həyat səviyyəsinə öz müsbət təsirini göstərir. Dövlət başçısının rəhbərliyi ilə görülən geniş miqyaslı işlər, həyata keçirilən sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi inkişaf baxımından sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm nəqliyyat-tranzit qovşağıdır.

Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı 2003-cü ildə belə bir çağırışı etdi ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Dövlət başçısının "Neft kapitalını insan kapitalına çevirək!" tezisi həyata keçirilən iqtisadi siyasətin əsasına çevrildi. Bunun üçün regionların malik olduğu ehtiyatlardan səmərəli istifadə olundu, Regional inkişaf proqramları təsdiqləndi və uğurla icra edildi. Artıq əminliklə demək olar ki, bu müddətdə reallaşdırılan dörd Dövlət Proqramının uğurlu icrası Azərbaycanın bugünkü nailiyyətlərində özünün aydın ifadəsini tapır. Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal iqtisadiyyata səmərəli inteqrasiyası yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir.

Məhz tarixi Zəfərimiz nəinki bütün sahələrdə, o cümlədən, qəbul olunan Dövlət proqramlarında, gələcəyə hesablanmış inkişaf strategiyasında yeniləşməni, təkmilləşməni həyata keçirməyə çağırış etdi. Bu məqsədlə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edildi. Hər iki sənəd bütün bölgələrimizdə, o cümlədən, işğaldan azad edilmiş ərazilərdə görüləcək işləri, qarşıda duran hədəfləri və onlara nail olmaq mexanizmini özündə əks etdirir. Ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaratdı. Azərbaycanın sosial dövlət kimi tanınması və nüfuz qazanması, bu mövqeyini daim atdığı əmin addımlarla, həyata keçirdiyi sosial paketlərlə zənginləşdirməsi diqqətdən kənarda qalmır.

## Yeni neft strategiyası

Azərbaycanın malik olduğu iqtisadi resurslardan səmərəli istifadəyə yol açan layihələr siyasi mövqeyini möhkəmləndirir, ona dünya çapında inamı və etimadı artırır. Bu enerji və nəqliyyat layihələri dövlətləri, xalqları birləşdirir, yeni əməkdaşlıq formatlarının yaradılmasını təmin edir. Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurlu icrasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) rolu böyükdür. SOCAR bu gün qayda olaraq fəaliyyətində yeniləşməyə, təkmilləşməyə xüsusi önəm verməklə, dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq, bu və ya digər ölkələrdə həyata keçirdiyi investisiya layihələri ilə modern beynəlxalq şirkətlər sırasında dayanır.

Təbii ki, hazırkı dövrün əsas çağırışlarından biri kadr hazırlığını ölkənin iqtisadi inkişaf səviyyəsinə uyğunlaşdırmaqdır. Bu istiqamətdə də şirkət mühüm addımlar ilə diqqətdədir. "Əsrin müqaviləsi"nin yol açdığı "Yeni əsrin müqaviləsi" özündə mühüm məqamları və hədəfləri ehtiva edir.

## Müasir ordu və modern hərbi sənaye

2003-cü ildən etibarən ordu quruculuğu məsələləri Azərbaycanda dövlət siyasətinin prioriteti kimi müəyyən olundu. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Ordusunun dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi.

Ötən 21 ildə Prezident İlham Əliyev tərəfindən silahlı qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilib. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye kompleksi hesabına ölkəmizdə müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Hazırda ölkəmizdə min addan çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları böyük müvəffəqiyyətlə nümayiş olunur. Bu kimi nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və hərbi texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradır. Heç də təsadüfi deyil ki, Milli Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzində olan məsələdir.



Bütün bunların fonunda Vətən müharibəsində tarixi Zəfərimiz və ötən ilin sentyabrında suverenliyimizin tam bərpası ilə nəticələnən Qarabağ iqtisadi rayonunda həyata keçirilən bir günlük antiterror tədbirləri Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha dünyaya əyani şəkildə nümayiş etdirdi. Azərbaycan Ordusu döyüş meydanında qazandığı zəfərləri ilə nəyə qadir olduğunu sübut edərək dünya hərb tarixinə yeni səhifələr yazdı.

## İnformasiya cəbhəsində uğurlarımız

Torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq dövrü kimi xarakterizə edilən 2003–2020-ci illərdə əsas diqqət göstərilən məsələlərdən biri də diplomatiya sahəsində uğurlarımızın davamlılığının təmin edilməsi, Ermənistanın hərbi təcavüzünün ilk illərində ən ağrılı problemlərimizdən biri olan, açıq demək lazımdır ki, bu sahədə də yağı düşmənə uduzduğumuz informasiya cəbhəsində üstünlüyün qazanılması idi. Prezident İlham Əliyevin ciddi səyləri nəticəsində qısa müddətdə Azərbaycan bu sahədə də mühüm uğurlara imza atdı. Prezident İlham Əliyevin 2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışında dedi:"Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Dövlətimizin başçısı İlham Əliyev ən yüksək beynəlxalq kürsülərdən, o cümlədən, BMT Baş Assambleyasının tribunasından dünya güclərinin ikili standartlara əsaslanan siyasətini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası üçün vahid mexanizmin olmamasını, bu yanaşmaların hansı problemlərə gətirib çıxardığını uca səslə bəyan etdi. Sevindirici haldır ki, bu gün də real həqiqətlərə, tarixi faktlara əsaslanan təbliğat işimiz uğurla davam etdirilir.

## Xarici mediaya müsahibələr

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə 30-dan artıq xarici media vasitəsinə müsahibəsi ilə informasiya cəbhəsində də Ermənistan və beynəlxalq erməni lobbisi üzərində üstünlüyümüzü möhkəmləndirdi. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr, eyni zamanda, Vətən müharibəsinin gedişində və postmüharibə dövründə milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi.

Əminliklə demək olar ki, həmin müsahibələr XXI əsr üçün yeni informasiya üslubu və modeli nümunələridir. Orada gerçəklikdən doğan konkretlik, yenilməz qətiyyət, siyasi iradə əsaslı şəkildə yer alırdı. Müzəffər Ali Baş Komandanın hər bir müsahibəsi mənaqişə ilə bağlı dünyaya həqiqətlərin çatdırılmasında mühüm rol oynadı.

## Güclü iradə, xalq–iqtidar birliyi

İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra edən Azərbaycan dövləti sübut etdi ki, ədalət və beynəlxalq hüquq mövcuddur və onlara nail olmaq üçün qətiyyət nümayiş etdirmək, ciddi səylər göstərmək lazımdır. "Qarabağın işğali dövründə də bəzi hallarda hər birimiz məyusluq və inamsızlıq hissləri yaşamışıq. Hər birimizin qəlbini incidən bu ədalətsizlik bizə sanki əbədi olacaq kimi gəlirdi. Amma o fikirləri biz özümüzdən hər zaman uzaqlaşdırırdıq, inamla yaşayırdıq və onu da bilirdik ki, ədaləti bərpa etmək bizim öz işimiz olmalıdır, heç kim bizim əvəzimizə bu ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bu məqamı da xüsusi qeyd edir ki, işğal dövründə çoxsaylı xarici nümayəndələrlə görüşlər əsnasında mən bu barədə artıq bir neçə dəfə demişəm. Belə fikirlər eşidirdim ki, reallıqlarla barışmaq lazımdır, Qarabağ artıq əldən gedib, Ermənistanla barışmaq lazımdır, gənc nəsli sülhə hazırlamaq lazımdır. Bu münaqişənin hərbi həlli yoxdur və digər fikirlər səslənirdi: "Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq–iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, – mən bunu bilirəm, – Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm strategidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək."

Azərbaycanın tarixi Zəfərə qədər yolunu qiymətləndirərkən təbii ki, ayrı-ayrı dünya dövlətləri ilə istər ikitərəfli, istərsə də çoxtərəfli çərçivədə qurduğu əlaqələrə, həmçinin diaspor quruculuğu istiqamətində qazandığı uğurların miqyasına da diqqət yetirmək gərəkdir. Ölkəmiz böyüklüyündən, kiçikliyiyindən asılı olmayaraq bütün dövlətlərlə əlaqələrini bərabərhüquqlu, qarşılıqlı maraqlar və hörmət prinsipləri əsasında qurur və inkişaf etdirir.

## Tarixi ədaləti bərpa edən Zəfərimiz

44 günlük İkinci Qarabağ müharibəsi və bir günlük antiterror tədbirləri Xalq–Prezident–Ordu birliyini, həmrəyliyini bir daha təsdiqlədi. Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020 ci il noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

Tarixi Zəfərimizdən ötən 4 ildən artıq dövrün reallıqları sırasında dövlət Bayrağımızın sərhəddə dalğalanmasını xüsusi qeyd etməliyik. Azərbaycan–Ermənistan sərhədində, Laçın rayonu ərazisində Həkəri çayının üzərində 23 aprel 2023-cü il tarixində Laçın sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da Azərbaycan sərhədlərinin bütövlüyü təmin olundu.

## COP29 Konfransı, D-8-ə üzvlük

Azərbaycanın 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019–2022-ci illərdə uğurla sədrlik etməsi, bu müddətin quruma üzv dövlətlərin birgə qərarı əsasında bir illik uzadılması məhz Azərbaycanın beynəlxalq miqyasda artmaqda olan nüfuzunu göstərir. Bu kimi uğurlu nəticələr ölkəmizin diplomatik təcrübəsini daha da zənginləşdirir. Bu il noyabr ayında Azərbaycanın COP29 kimi ən nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi, dekabrın 19-da "İslam Səkkizliyi" adlandırılan D-8 təşkilatına üzv qəbul edilməsi də bunun təsdiqidir.

Tarixi Zəfərimizdən və suverenliyimizin tam bərpasından sonra Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsini, nüfuzunun gündən-günə artmasını təsdiq edən istənilən sayda misal göstərmək olar. Bütün bunların təsdiqi kimi ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərin say tərkibinin daha da artmasını, qarşılıqlı səfərlərin dinamikasını qeyd edə bilərik. Dövlətimizin başçısı İlham Əliyev seçki ili kimi xarakterizə edilən 2024-cü ilin 1 sentyabr tarixində keçirilən parlament seçkilərindən sonra 7-ci çağırış Milli Məclisin ilk iclasında Azərbaycanın bütün sahələrdə qazandığı uğurlardan və qarşıda dayanan hədəflərdən bəhs edərkən onu da bildirdi ki, müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişik, heç kimin işinə qarışmamışıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər... Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik... Azərbaycan çoxdan özünü layiqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə, tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir: "Çünki bəzi Qərb ölkələri hesab edirlər ki, beynəlxalq ictimaiyyət ancaq onlardır və onların əli altında olan demək istəmirəm yəni, asılı dövlətlər. Yox, beynəlxalq ictimaiyyət bütün dünya ölkələridir və bu dünya ölkələri bizə yekdilliklə səs verib. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilməsi qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq.

## Tariximizin yeni dövrü

2020-ci ilin 10 noyabr tarixində Azərbaycanın hərbi-siyasi Qələbəsinin və Ermənistanın kapitulyasiyasının təsdiqi olan üçtərəfli Bəyanatın imzalanmasına baxmayaraq, suverenliyimizin tam bərpası dövlətimizin əsas hədəfi idi. Azərbaycan buna sülh yolu ilə nail olmağa çalışdı. Lakin Ermənistanın üçtərəfli Bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirməməsi, genişmiqyaslı təxribatlar törətməsi ötən ilin sentyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin separatçı-terrorçuların yuva qurduqları Qarabağ iqtisadi rayonunun bir hissəsində lokal antiterror tədbirləri həyata keçirməsini zərurətə çevirdi. Suverenliyimiz tam bərpa olundu. Prezident İlham Əliyev bu ilin ilk ayında yerli televiziya kanallarına müsahibəsində yeni dövrə qədəm qoyan Azərbaycanın hədəflərindən bəhs edərkən bildirdi ki, istər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

## Azad edilmiş ərazilər dirçəlir

Artıq erməni tapdağından təmizlənmiş torpaqlarımız dirçəlir, yenidən qurulur. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mütəmadi olaraq azad edilmiş ərazilərimizə səfərlər edirlər. Görülən işlərlə tanışlıq, yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi Böyük Qayıdış prosesinin daha da sürətlənməsində əhəmiyyətli rol oynayır. Bu il sakinlərinə qovuşan şəhərlərimiz sırasına Şuşa, Xocalı və Cəbrayıl şəhərləri də daxil oldu. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev bu ilin oktyabrında Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak edərək yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarının təqdim edilməsi mərasimində bir daha "Bizi Qələbəyə aparan bizim milli ruhumuz olub" söyləyərək bu reallıqları böyük əminliklə bildirdi ki, tarixi Zəfərimiz dünyada Azərbaycana olan hörməti bəlkə də birə on artırıb. Bu gün biz dünya miqyasında böyük hörmətə və nüfuza malik olan ölkəyik. Bu gün həm ölkə vətəndaşları və eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar başlarını dik tutublar. Dünyada milyonlarla azərbaycanlı yaşayır. Azərbaycan dilində danışan, Azərbaycan dili ana dili olan soydaşlarımızın sayı 50 milyondan çoxdur. Bu Qələbə onların da Qələbəsidir, onlar üçün də qürur mənbəyidir. Bu, əbədi belə olacaq. Biz bu torpaqlarda əbədi yaşayacağıq. Xalqımız, dövlətimiz müzəffər xalq və dövlət kimi əbədi yaşayacaq.

## Bütün vədlər yerinə yetirildi

Dövlətimizin başçısı İlham Əliyevin hər bir çağırışı Azərbaycanın uğurlu gələcəyinə xidmət edir. Cənab İlham Əliyev hələ 2003-cü ildə ilk dəfə xalqın böyük əksəriyyətinin səsi ilə Prezident seçildikdən sonra keçirilən andiçmə mərasimində "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir" – deyə bəyan etmişdir. Artıq son 21 ilin yekunları verilən hər bir vədin yerinə yetirildiyini və yeni dövrün uğurla davam etdiyini təsdiqləyir. Dövlətimizin başçısı İlham Əliyev bu ilin fevralında keçirilən prezident seçkilərində inamlı qələbəsindən sonra andiçmə mərasimində əminliyi ifadə etmişdir: "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!"

***Vüqar RƏHİMZADƏ,***
***Milli Məclisin deputatı***

# Prezident İlham Əliyev – Səmimiyyət, Praqmatizm və Müasirlik



**XX əsr dünya tarixi həm də onunla əlamətdar oldu ki, görkəmli siyasi və dövlət xadimləri bəşər tarixini yaradıb, xalqlarının rifahına xidmət etdilər. ABŞ-də Con Kennedi və Ronald Reyqan, İngiltərədə Uinston Çörçill və Marqaret Tetçer, Almaniyada Konrad Adenauer, Pakistanda Əli Cinna, Hindistanda Mahatma Gandi və digər liderlərin rolunu xüsusi qeyd etmək lazımdır. Bu görkəmli siyasi xadimlər nə ilə yadda qaldılar?**

ABŞ-nin 35-ci prezidenti Con Kennedi siyasətə səmimiyyət gətirdi. Onun səmimi və məşhur sözləri: "Soruşma Amerikadan o sənin üçün nə edib, özündən soruş ki, sən Amerika üçün nə etmisən?" siyasətə səmimiyyət gətirməsi kimi qiymətləndirilə bilər. O günə qədər bəlkə də siyasətdə səmimiyyət birmənalı qarşılanmırdı, amma bu sözlər, hətta siyasətdə belə səmimiyyətin nə qədər önəmli olduğuna işarə idi. ABŞ-nin digər prezidenti Ronald Reyqan öz praqmatizmi ilə dünya tarixində qaldı. Onun hakimiyyəti dövründə ABŞ görünməmiş iqtisadi uğur qazandı. Ronald Reyqanın prezident seçilməsi ilk illərdə dünya liderləri tərəfindən soyuq qarşılanmışdı. Lakin apardığı islahatlar və praqmatizmi nəticəsində bir neçə ildən sonra dünya liderləri onu alqışlarla qarşıladılar. Onun iqtisadi islahatları dərin praqmatik mülahizələrə əsaslanırdı və ABŞ-də gəlirlər xərcləri ciddi şəkildə üstələdi.

Konrad Adenauer II Dünya müharibəsindən sonra Qərbi Almaniyanı xarabalıqdan qaldıraraq onu Avropanın aparıcı dövlətinə çevirdi. Onun adı tarixə qurucu lider kimi düşdü.

Pakistanın qurucusu Əli Cinna Pakistan dövlətinin yaradıcısı kimi qəbul olunur. Hindistanda ona bu ölkənin baş naziri vəzifəsi təklif edilsə də, o, müstəqil Pakistan dövlətinin yaradılmasında israrlı idi və onun qurucusu oldu. Əli Cinna öz xalqının mənəvi və mədəni dəyərlərinə bağlı şəxsiyyət idi və həmvətənlərinin öz mənəvi və mədəni dəyərlərində yaşayıb işləmələrini istəyirdi. Bu gün Pakistan hərbi baxımdan güclü dövlətdir və nüvə silahına malik olan yeganə müsəlman ölkəsidir.

Bütün deyilənlər bir daha dövlət xadimlərinə malik olmalı zəruri keyfiyyətləri təsdiqləyir. Bu, səmimiyyət, öz xalqının mənəvi dəyərlərinə bağlılıq, praqmatizm,



müasir düşüncə və əlbəttə ki, dövlət quruculuğudur.

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk deyirdi ki, tam müstəqillik ancaq iqtisadi müstəqilliklə mümkündür. İqtisadi islahatlar sayəsində, Osmanlı İmperiyasının xarabalıqlarından yaranan müasir Türkiyə dövləti bu gün güclü hərbi gücü olan, regionun lider ölkəsidir.

2003-cü ildə cənab İlham Əliyev müstəqil Azərbaycanın Prezidenti seçildi və xalqa müraciətində "Mən hər bir azərbaycanlının prezidenti olacağam" kimi səmimi sözləri səsləndirdi. Cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin tərkib hissəsi məhz ölkədə sosial sahədə aparılan islahatlar, Qarabağda qəhrəmancasına döyüşmüş oğullarımıza göstərilən diqqət və səmimiyyətdir. Cənab Prezident Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə döyüşçülərimizə dəfələrlə baş çəkərək Qarabağa qayıdan ailələri ziyarət edərək onlar üçün hər cür şəraitin yaradılmasına nail oldu. Bu



gün erməni işğalçıları tərəfindən dağıdılan Qarabağda yollar, ən müasir şəhərlər, qəsəbələr, kəndlər salınır, yeni zavodlar, iş yerləri, təhsil ocaqları açılır. Hətta ad gününü belə cənab Prezident məcburi köçkünlərlə keçirdi. Bu səmimiyyəti ABŞ-nin 35-ci prezidenti Con Kennedinin qoyduğu yolun davamı kimi də qiymətləndirmək olar.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı gücləndi, ölkə Cənubi Qafqazın lider dövlətinə çevrildi. Ölkənin böyük bir ərazisi işğal altında olsa da, müharibə davam etsə də, quruculuq işləri bir an belə dayanmadı, ölkə iqtisadiyyatı praqmatik əsaslarla inkişaf etdi. Yeni müəssisələr, iş yerləri açıldı. Cənab İlham Əliyevin təşəbbüsü ilə Cənub Qaz Dəhlizi layihəsi həyata keçirildi. TANAP qaz kəməri və onun davamı TAP, Azərbaycanı Avropanın qaz təhlükəsizliyinin qarantına çevirdi və iqtisadiyyatımız sürətlə inkişaf etdi. Onların əsasında həm praqmatizm, həm də müasir düşüncə, yüksək təhsil və dərin intellekt dayanırdı.

Cənab İlham Əliyev Heydər Əliyev məktəbinin yetirməsidir və özünü Ulu öndərin qoyduğu dəyərlər üzərində formalaşmış böyük siyasətçi kimi sübut etmişdir. Bu, Azərbaycan xalqının mənəvi-mədəni dəyərlərinə sədaqət, öz ölkəsinə sonsuz məhəbbətdir. Onun bir qarış Azərbaycan torpağının müzakirə mövzusu ola bilməyəcəyi barədə sözləri hamımızın yadındadır ki, bu da onun dəyərlərimizə sadiqliyini təsdiqləyir.

Cənab İlham Əliyev hakimiyyətə gələndə Azərbaycan ərazisinin 20 faizi işğal altında idi. Onun rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyat inkişaf etdi, müasir standartlara uyğun qüdrətli ordu yaradıldı. Deyilənlər, cənab Prezidentin hərbi və dövlət quruculuğu keyfiyyətlərini nümayiş edirdi. Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış 44 günlük müharibədə qalib gəldi və antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüz tamamilə bərpa olundu. Bu, Ali Baş Komandan İlham Əliyevin əzmkarlığı, uzaqgörənliyi və diplomatiyası sayəsində mümkün oldu. Onu da qeyd edək ki, Ali Baş Komandanın cəsarəti, müzəffər ordumuzu ruhlandırdı. Ordumuz qətiyyətli və cəsur Ali Baş Komandanın rəhbərliyi altında əmrləri yerinə yetirərək torpaqlarımızı qəhrəmancasına azad etdi. Şuşanın azad edilməsi xüsusi bir qəhrəmanlıq nümunəsi idi. Hərbi ekspertlər Şuşa qalasının alınmasını uzun müddət araşdıracaq, lazımi nəticələr çıxaracaq və hətta hərbi dərsliklərə daxil edəcəklər.

Fransanın hər bir vətəndaşı öz əfsanəvi lideri general de Qolu xatırlayaraq deyir ki, de Qoll fransız xalqının tapdalanmış qururunu qaytardı və fransızlar da özünə inam yaratdı.

Şuşanın azad edilməsi sadəcə bir rayonun Azərbaycana qaytarılması deyil, həm də xalqının itirilmiş qürurunun özünə qaytarılmasıdır. Cənab Prezidentin dediyi kimi: "Şuşa, sən azadsan və bizimləsən. Biz səninn itirilmiş qürurunu bərpa edəcəyik!" Bu sevinc anlarını Azərbaycan xalqına Ali Baş Komandan İlham Əliyevin rəhbərlik altında müzəffər ordumuz bəxş etdi. Azərbaycanın bugünkü inkişafının kökündə cənab İlham Əliyevin özünəməxsus olan dəstxətti, üslubu hər yerdə görünür. Bu, Prezident Heydər Əliyevin qoyduğu üslubdur və Azərbaycanı sabaha aparan yoldur.

II Qarabağ müharibəsi Azərbaycan xalqını birləşdirdi, onu bölünməz bir vahidə çevirdi. Ulu Atatürk demişdir: "Bir millət daxildən möhkəm bağlandıqca, birləşdikcə, dünyada onu məhv edə biləcək heç bir qüvvə yoxdur".

Son günlər müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycanın əleyhinə heç bir əsası olmayan qərarlar və qətnamələr qəbul olunur. Bu, Azərbaycanı işıqlı gələcəyə aparan yolundan dönməyən Azərbaycan liderini sındırmayacaq, çünki onun arxasında öz liderinə inanan və onu sevən Azərbaycan xalqı dayanır.

Doğum gününüz mübarək, cənab Prezident, Sizə möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə yüksək zirvələrə çatmaqda böyük uğurlar arzulayırıq.

*Asəf HACİYEV,*
*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parliament Məclisinin baş katibi*




# Tarixə zəfər möhürü vuran lider

**Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi olan İlham Əliyev 2003-cü ildə Azərbaycan Prezidenti seçilərkən 42 yaşı vardı və o, dünyanın ən gənc dövlət başçılarından biri idi. Həmin vaxtdan 21 il keçir. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir.**

Prezident İlham Əliyev 2003-cü ildə hakimiyyətə gələndə ona qalan miras bir tərəfdən ictimai-siyasi sabitliyi təmin, dövlət strukturları bərpa edilmiş Azərbaycan idisə, digər tərəfdən həm də məğlubiyyətə uğramış və torpaqlarının 20 faizi erməni işğalı altında qalan, iqtisadiyyatının və ordu quruculuğunun həyata keçirilməsi, bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərinin həll edilməsi zəruri olan gənc respublika idi.

Bütün bu və digər çoxsaylı məsələlərlə bərabər həm də sürətlə dəyişən və daim rəqabət halında olan dünya nizamında Azərbaycanın yerinin və rolunun, nüfuzunun artırılması zərurəti var idi. Yəni istər daxili siyasətdə, istərsə də xarici siyasətdə elə strateji həmlələr etmək lazım idi ki, onlar nəticə etibarilə, milli inkişafımıza və ərazi bütövlüyümüzün bərpa olunmasına gətirib çıxarsın. Bütün bunların hamısını edə bilmək isə mövcud qlobal və milli çağırışlar kontekstində, ikili standartların mövcud olduğu dünya nizamı, rəngli inqilablar erasında, əslində, bir möcüzə idi.

İlham Əliyev bu möcüzəni yarada bildi. Yeni əsrin yeni lideri İlham Əliyev ötən 21 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasının əsasını təşkil edən üç mühüm güc – iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Prezidentliyi dönəmində bütün istiqamətlər üzrə xalqımıza böyük uğurlar qazandıran, ölkəmizi hərtərəfli surətdə inkişaf etdirən Prezident İlham Əliyev ərazi bütövlüyü və suverenliyi tam təsdiq olunmuş müstəqil Azərbaycanın qüdrətli lideridir. Bundan sonrakı dövrdə Azərbaycan Respublikasının çoxcəhətli inkişafının təminatı, ölkəmizin ərazi bütövlüyünün etibarlı şəkildə qorunması və dövlət suverenliyimizin daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə meydana çıxacaq problemlərin milli mənafeyimizə uyğun surətdə həll edilməsi üçün əsl dövlət başçısından tələb olunan bütün keyfiyyətlər və xüsusiyyətlərin hamısı ən yüksək səviyyədə İlham Əliyevin simasında cəmlənmişdir. Bu gün dünya miqyasında da İlham Əliyev kimi hərtərəfli yüksək siyasi-mənəvi keyfiyyətlərə, geniş intellektual imkanlara, böyük nüfuza malik olan və xalqının sarsılmaz etimadını qazanmış liderlər göstərmək çətindir.

Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan, bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, fəal aktorlardan birinə çevrilib. Azərbaycan Avropa ilə Asiya qitələrini siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir. Prezident İlham Əliyev ölkəsini lider dövlətlər sırasına yüksəldib. Bununla da Ulu öndərin sovet dövründə Azərbaycanı respublika kimi, XX əsrin 90-cı illərində isə müstəqil dövlət kimi xilas etməsi prosesi Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla və qətiyyətlə həyata keçirilmişdir.

İlham Əliyev işğalçı Ermənistan üzərində savaşı qazanaraq sübut etdi ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, o, həm də regionun aparıcı dövləti və lideri olmaq qüdrətindədir.

Bu gün Prezident İlham Əliyevin sayəsində Azərbaycan Respublikası regionun lideri kimi dünya səviyyəsində aktiv fəaliyyət göstərmək imkanına sahib olan qalib dövlətdir. Bu çoxcəhətli fəaliyyət böyük iqtisadi inkişafı, milli mədəniyyəti, multikulturalizmi, enerji layihələrini, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası münasibətlərin təşkilini, regionda balansı saxlaya biləcək hərbi qüdrəti təmin etmək məsələlərini əhatə edir. Azərbaycan yeni reallıq formalaşdırmaqla özünə mühüm strateji perspektiv təmin edib. Hazırda Azərbaycan regionun lider və qalib ölkəsi kimi Prezident, müzəffər Ali Baş Komandan və qətiyyətli Lider cənab İlham Əliyevin rəhbərliyi ilə öz yeni gələcəyini qurur.

Nəticə etibarilə, yuxarıda sadalanan bütün nailiyyətlərimizin baş tacı Vətən müharibəsində əldə etdiyimiz tarixi hərbi-siyasi qələbəmizdir. Prezident İlham Əliyev hər dəfə tarixi qələbəmizin birinci qəhrəmanı kimi Azərbaycan əsgərini göstərsə də, hamımız bilirik ki, milli güc yalnız milli lider tərəfindən təşkilatlandırılanda və idarə olunanda həqiqi milli gücə çevrilir. Ona görə də Prezident İlham Əliyev, sözün əsl mənasında, xalqımızın Milli Qəhrəmanı, böyük tarixi şəxsiyyət və böyük dövlət xadimidir. Azərbaycan naminə gördüyünüz işlərdə Sizə uğurlar arzulayırıq! Doğum gününüz mübarək, cənab Prezident!

*Tənzilə RÜSTƏMXANLI,*
*Milli Məclisin deputatı*

# Milli qürur və bəşəri ideyaların təcəssümü



**2020-ci ildən bu yana Azərbaycan Respublikası Prezidentinin intonasiyası başqa müstəviyə adlayıb: çoxhədəfli və hökmlü! Ölkə başçısı bunu müharibə dönəminin hərb meydanında qazanılan uğurlarla simvolizə edə bildi. Milləti milli-diplomatik səriştə, peşəkar və ali mənəvi-əxlaqi təməllər üzərində savaş hərəkatına hazırlayaraq məsələnin ümummilli hərəkat kimi sabit, qlobal səciyyəsini axıra qədər qorudu, siyasi oriyentiri düzgün müəyyənləşdirməklə yanaşı, milli enerji və təlatümün, güclənən emosiyaların hərarətini orduya yönəldə bildi. Müharibədən sonra da hökmlü olmağı motivləndirən çox faktlar qoyuldu meydana: bir günlük antiterror əməliyyatı nəticəsində susdurulan düşmən, Azərbaycanın Bayrağının Xankəndi və Xocalıda qaldırılması, COP29 kimi tədbirə ev sahibliyini uğurla sonuclandırması, iqlim diplomatiyasına verdiyi töhfə və son olaraq Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsi!**

İlham Əliyevin təhkiyəsindəki amiranəlik milli qürur və vüqarı dərindən dərk etməyin simvolu olmaqla yanaşı, həm də tarixin gedişinə, dəfələrlə təkrarlanan tarixin çarxına "dur!" demək üçün vacibdir. Çünki tarix özünün təcrübə dərslərini, adətən, Şərqdə keçib, böyük eksperiment üçün siyasi-sosial poliqon axtararkən güdaza Azərbaycan verilib, qurban kimi Azərbaycan xalqı seçilib. Bütün geopolitik maraq və mənafelər bizim məkanda qovuşub və kəsişib. Bu gün miqyas, ilk növbədə, İlham Əliyevin tarixə







saldığı nəzərin ölçülərində dəyişib. Avropanı, Qərbi narahat edən, təşvişə salan bir də məsələnin bu tərəfidir.

Prezident İlham Əliyev dünyanı bürüyən qırmızını – qan rəngini yaşılla – dirilik, harmoniya, İslam yolu, ədalət, sevgi və kamilliklə əvəzləməyin, bütün dünyanı məhz yaşıl perspektivdə görmək istəyinin lideridir. Məsələnin bir də bu tərəfi onlara sərf eləmir. İstibdadın, zülmün əli ilə parçalanan, talan edilən, azadlığı əlindən alınan Azərbaycan yoxdur artıq. Əvəzində, ölkəsinin adını ən uca tribunalardan səsləndirməyə müvəffəq olan ölkə başçısının hünəri var.

"Var millətimin imzası imzalar içində"! Bu sözü uca vurğu ilə söyləmək üçün İlham Əliyev az sınaq mərhələlərindən, az tarixi-siyasi labirintlərdən keçmədi. İndiyə kimi bizim Azərbaycanla, Qarabağla, Qərbi Azərbaycanla bağlı həqiqətlərin dünya ictimai fikrinə çatdırılması istiqamətində gördüyümüz işin əsas üsulu və məzmunu dünya erməni təbliğatına verilən təkzib və təshihlərdən ibarət idi. Bu gün artıq onların təbliği istiqamətində sistemli iş strategiyası və miqyaslı, qlobal nəzəri-elmi konsepsiya səviyyəsində fəaliyyət proqramı və metodologiyası təşəkkül tapıb. Və ən yaxşı cəhət odur ki, bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə məxsus humanitar-mədəni və etik-əxlaqi meyarlar bu proqramın düşüncə və iş mövqeyində qorunub saxlanılır.

Qarabağ problemi barədə dünya fikrinin anti-Azərbaycan rənglərdən xilas olması, məhz, İlham Əliyevin planetar miqyaslı təbliğat və əməli fəaliyyətinin nəticəsidir. Əslində, son illərdə Prezident mücadiləsini iki cəbhədə aparıb: ön cəbhədəki vəziyyəti neytrallaşdırmaqla və erməni yalanlarına qarşı zərərsizləşdirmə işi aparmaqla. Hər iki cəbhədən ölkəmizə uzanmış əl, dil, silah müdaxilələrini dəf etməyə çalışaraq Azərbaycanın milli varlığını qorumaq amalına layiqincə xidmət göstərib. Çıxışlarının birində dövlət başçımızın səsləndirdiyi bir fikrə diqqət çəkmək istəyirəm: "Hətta səndən güclü olan qüvvə qarşısında heç vaxt geri addım atmamalısan, hər zaman öz hüququnu qorumalısan, xüsusilə doğma torpağını qorumalısan".

Bu gün İlham Əliyev xalqın tarixini və taleyini növbəti səhvlərdən qorumaq üçün sağlam ekologiya, mənəvi iqlim yaradır və bu işdə bütün milli-siyasi-intellektual potensialı ilə birlikdə dayanır. Amma tarixi bir qanunauyğunluğun bizə ötürdüyü ibrət dərsləri də az deyil. Bu dərslər sübut edir ki, hətta xalis torpaq məsələlərinə münasibətdə belə təkcə siyasi-intellektual fikir yox, həm də vicdan və mənəviyyat adlı bir elm də iştirak etməlidir. Bu gün İlham Əliyev ideya-fəlsəfi kompası, milli şüurla, milli tale ilə bağlı əxlaqi və mənəvi-vicdani təşəbbüsü bütünlükdə öz əlinə almağı bacarmışdır. O qədər ki, artıq bu mənəvi-vicdani təşəbbüsdən dünya üçün, bəşəriyyətin sabahı üçün narahatlığın miqyası görünür.

Məsələn, elə son faktlardan biri, Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə verdiyi müsahibə ölkə başçısının regionun, bütünlükdə isə dünya ilə bağlı narahatlığının izharı idi. Azərbaycan - Rusiya münasibətləri, Azərbaycan – Gürcüstan, Azərbaycan – Türkiyə, Azərbaycan – Ermənistan, Azərbaycan – Fransa və Azərbaycan – ABŞ arasında münasibətlərin diplomatik səviyyələrdə səciyyəsini meydana qoyan İlham Əliyev fərdi üslub, tərz, dəst-xətt səpgisində ümumi müşahidələrin doğru-dəqiq təhlilini verdi. Əlbəttə, ölkə başçısı narahatdır. Amma bu narahatlıq erməniyə havadarlıq edib onu açıq şəkildə silahla təmin edən Fransa və Hindistana, yaxud bunu gizli şəkildə həyata keçirən Amerika Birləşmiş Ştatlarına görə deyil. Ona qalsa, qeyd etdiyi kimi, ölkənin hərbi büdcəsi rekord səviyyədədir, hər cür təxribatların qarşısını alacaq səriştə və əzmin rəhbəridir İlham Əliyev. Bəs nigaranlıq nə ilə bağlıdır?! Bəşəriyyətin sabahı üçün, bitməyən ədavət, göz yaşı, savaşlardan yorulmayan, qan tökməkdən əl çəkməyən qüvvələrin antihumanist davranışı üçün.

Bütün dostluq və qardaşlıq münasibətlərinə rəğmən dünya, təəssüf ki, pislərdən, şərə, ədavətə qulluq edən qüvvələrdən xali deyil. Nə yazıq ki, bəşər yaranandan bu qaydanı pozmaq hələ heç kəsə müyəssər olmayıb. Antitürk psixoz yaratmaq, müsəlman, türk əleyhinə "səlib yürüşləri"nə çağırmaq cəhdində erməni şovinizmi yenə də iş başındadır və xalqlar arasında təxribatda öz qədim peşələrinə sadiq qalırlar.

Bunun əksinə olaraq, ölkə başçımız İlham Əliyev antihumanist, şovinist ənənəni hər zaman rədd edib. Səbəbi bəlkə də M.Ə.Sabirin bu misrası ilə ifadə eləmək daha dəqiq olar: "Kim ki, insanı sevər, – aşiqi hürriyyət olur!" Çünki İlham Əliyev özünü dünyanın bir parçası sayır və dünya salamat olacaqsa, bütün insanlıq, fərdlər, insanlar salamat olacaq, – ideyasını rəhbər tutur. Nəinki rəhbər tutur, hətta bu ideyanın siyasi-əxlaqi mahiyyətinə bu gün xüsusilə müasir səslənən klassik səciyyələr verir: "Əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı". Bu müşahidədəki təəssüf nidasını isə duymamaq mümkün deyil: "Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil".

Bir əsr öncə özünü "hüsnü-Xuda şairi" elan edən Hüseyn Cavid "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü" – deyirdi. Bir əsr sonra baş verən vüqeələri müşahidə edən biri kimi deyirəm: Əgər yer üzünü tək bircə nəfər– İlham Əliyev idarə etsəydi, arzu olunan Dahi işinin müəllifi elə özü olardı! Amma hələ ki, belə bir əlahiddəlik heç kimə nəsib olmayıb. Odur ki, qandan, xaosdan qidalananlara çalxantı yaratmaq, harmoniyaya xidmət edənlərə isə acımaq, ağrımaq, nigaran olmaq qalır: "Biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər, bir az unudulmuş sözdür, – gərginliyin azaldılması – "detente". Düşünürəm, bu sözə indi beynəlxalq leksikonda tələbat var və ümid edirəm ki, ondan istifadə olunacaq. Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur".

Bu gün Qərb və ABŞ-nin Azərbaycana qarşı təzyiqlərinin kökündə dayanan amillər də məhz, bundan zəmin alır. Prezidentin müsahibəsində qeyd etdiyi kimi, Azərbaycanın müstəqil siyasət yürütməsi, beynəlxalq aləmdə artan nüfuzu, söz sahibi olması, etimad göstərilən dövlətə çevrilməsi reallığı. Bütün zamanlarda özünü supergüc, hegemon statusunda hiss edən və etdirməyə çalışan Qərbə, ABŞ dövlətinə, Fransaya bu sərf eləmir: "Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Onlar öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əyirlər, müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə keçmiş kolonial, indi isə bəzi neokolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu, onların şüurunda dərin kök salıb".

Onlar həm də bizim 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərlə və 2023-cü ilin sentyabrında keçirilmiş anti-terror tədbirləri nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi faktı ilə barışa bilmirlər. Ona görə ard-arda müxtəlif şəkildə təzyiq göstərməyə çalışırlar. Ölkəmiz əleyhinə qara piar aparır, məğlub və işğalçı ölkənin militarizasiyasına dəstək verir, Ermənistanda hərbi baza yaradır, ermənilərin təəssübünü çəkirlər. Ölkə başçısı yenə də xəbərdarlığını etdi: "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək".

Bu gün ölkə başçısı elə strategiya əsasında hərəkət edir ki, Azərbaycana olan nüfuz, etimad artan, yüksələn xətlə özünün inkişaf dövrünü yaşayır. Dekabrın 19-da Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması xəbəri bu etimadın ən mötəbərlərindən biri sayılmalıdır.

Bu gün təşkilat cəhətdən vahid orqanizm kimi birləşmək istiqamətində yeni addımlar atılır. Azərbaycanın D-8-ə üzv olması dünya siyasi sistemi ilə əlaqələri daha da gücləndirəcəkdir. İndi bizim üçün doğma Şərq – türk və İslam arealı bu gün dünyada yeni bir kontekstə çevrilə bilər. Ən ali səviyyədə – ən müasir təşkilat modeli ilə Azərbaycanın həmin kontekstin yaranmasında fəal şəkildə iştirakı şübhə doğurmur. Çünki o prinsiplər ki, D-8 təşkilatının qayəsini təşkil edir, Azərbaycanın siyasi reallığı, dövlət olaraq baxış, yanaşma prioriteti həmin prinsiplərə uyğundur: "müharibə deyil, sülh; münaqişə deyil, dialoq; ikili standartlar deyil, ədalət; üstünlük deyil, bərabərlik; müstəmləkə deyil, ədalətli düzən; zülm və hökmranlıq deyil, insan haqları, azadlıq və demokratiya".

Ötən əsrin əvvəllərində milli triadamızın banisi Əli bəy Hüseynzadə "Türklər kimdir və kimlərdən ibarətdir" məqaləsində yazırdı ki, "… türklük və İslam dairəsində tərəqqi etmək istəriz. Biz arzu edəriz ki, bizim tərəqqimizə baxıldıqda, … türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar denilsin. Yoxsa, "türklər, müsəlmanlar irtidad ediyor, firəngləşiyorlar" denilməsin!". Bu gün həmin arzu və ideallarin gerçəkləşdiyi tarixi yaşayırıq. İlham Əliyevin həm nəzəri, həm də əməli fəaliyyəti hərtərəfli, universal bir intibah şəxsiyyətini ifadə edir. Bu gün onun qədər miqyaslı məsələlər qaldıran, bütün İslam və Şərq hüdudlarında düşünən, Qərb tiranlarına meydan oxuyan siyasi-ictimai xadim göstərmək çətindir. "Firəngləşmə" təhlükəsini isə (elə mifini də!) İlham Əliyev ona qarşı mübarizə elan etməklə çoxdan tarixə qovuşdurub. Bir də, zavallı Fransa! İndi onun "Avropa sivilizasiya"sına qatası heç bir dəyəri də qalmayıb!

Çağdaş zamanda müttəfiqlərin sayının çox olması istənilən ölkənin gücünün göstəricilərindən biridir. Azərbaycan onsuz da dünya birliyində nüfuz qazanıb. D-8 təşkilatına üzv olması isə bir çox ölkələrlə ikitərəfli əməkdaşlığı daha da gücləndirəcək. Birliyə üzvlük ölkəmizə investisiya cəlb olunmasına, eyni zamanda, Azərbaycan kapitalının həmin dövlətlərin iqtisadiyyatına yönəldilməsinə ciddi təkan verəcək. Bu təşkilata üzvlük ölkələr arasındakı mədəni, siyasi, humanitar sahədə də əməkdaşlıq körpülərinin qurulmasına vəsilə olacaq.

Biz tarixən üç dildə yaranan böyük mədəni, mədəni sərvətin sahibi olmuşuq və bu böyük irsdən bu gün də imtina etmirik. Azərbaycanda, müqəddəs türk torpağında yaranan bütün mənəvi-bəşəri sərvətlər də, müəllifinin etnik mənsubiyyətindən asılı olmayaraq, bizim ümumi sərvətimizdir. Bizim D-8-ə üzvlüyümüz ölkəmizin dostlar, müttəfiqlər dairəsini daha da gücləndirəcək, daim diri tutulan dostluq münasibətləri daha sistemli şəkildə dünyanın simasının müasirliyə, yeniliyə, inkişafa doğru dəyişilməsində təmələ çevrilməyi bacaracaqdır.

Bir məqamı xüsusi qeyd etmək istəyirəm. İlham Əliyevin təfəkkür tərzinə məxsus vüsətli, miqyaslı bir humanizm, və beynəlmiləlçilik, azadlıq anlayışları onu çağdaş liderlər sırasında fərqli edən amillərdəndir. Amma daha qiymətli və mənalı cəhət odur ki, İlham Əliyevin düşüncə tərzində və siyasi üslubunda yüksək bəşərilik yüksək milliliklə vəhdətdə təzahür edir. Bəlkə buna görə rəhbərlik etdiyi iyirmi ildən artıq zaman kəsimində ölkə başçısı İlham Əliyevin diplomatik səriştəsi sayəsində xalq öz milli kimliyindən ayrılmadı, keçmişindən qopmadı, dəyərlərini itirmədi, özünə, meyarlarına sadiqliyini qorudu. Milli məfkurə İlham Əliyevin varislik haqqına tapınaraq qoruduğu ən böyük sərvət oldu.

İlham Əliyev 2008-ci ildə Bakıda İstiqlal Bəyannaməsini abidələşdirdi, türk qanlı, İslam imanlı, Avropa fikirli yeni gəncliyin öz varlığından, milli kimliyindən ayrılmaması üçün bayraq meydanlarını qurdu. Türk ruhunu mənəviyyatında daşıyan millət fədailərimizin irsinin qorunması, təbliği və təqdimi ilə bağlı ardıcıl sərəncamlar imzaladı. Əlimərdan bəy Topçubaşovun Parisdəki məzarını ziyarətgah halına gətirməsi, Məhəmməd Əmin Rəsulzadənin, Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəli Xan Xoyskinin, Əhməd bəy Ağaoğlunun ölkə miqyasında və dövlət səviyyəsində yubileylərinin keçirilməsinə, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının nəşrinə rəvac verməsi, hər biri böyük mədəni hərəkatın göstəricisinə çevrilən "İslam Həmrəyliyi ili", "Multikulturalizm ili", "Azərbaycan Cümhuriyyəti ili", "Nizami Gəncəvi ili", "İmadəddin Nəsimi ili", "Şuşa ili", "Heydər Əliyev ili" ilə bağlı qərarları da həmin humanitar düşüncə strategiyasının gerçəkləri sırasındadır. Bunlar Prezident İlham Əliyevin fikir həyatımızda oynadığı müstəsna məqamlar olmaqla yanaşı, bügünkü uğurlarımızın genetik kodlarını daşıyan amillərdir.

Gündən-günə yeniləşən, çağdaş dünya meridianlarında yerini tapan, Şərqdən Qərbə, Qərbdən Şərqə gedən yolların qovşağında hər gün daha da çox mər-kəz, görüş, ünsiyyət məkanı rolunu oynayan, bəşəriyyətin taleyini düşünən icti-mai-siyasi, tarixi-mədəni, qlobal, milli və multikultural ideyaların, ideologiyaların, müzakirə və tədbirlərin əsl sınaq meydanına çevrilən ən yeni Azərbaycanın obrazı Ümummilli lider Heydər Əliyevin ideya və ideallarının təcəssümü olaraq, ona adekvat bir əməli fəaliyyətin barı-bəhrəsi şəklində İlham Əliyevin müdrik zəkasında gerçəklik və təzahürünü yaşayır. Bu gün həyata keçirilən layihələr, gerçəkləşdirilən əməllər də İlham Əliyevin – bu unikal tarix qəhrəmanının simasında ən yeni Azərbaycanın qazandığı qlobal uğurları XXI əsrdə dünyanın hər yerindən görməyə imkan verir.

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***

# Xalqını yeni qələbələrə aparan lider

**2003-cü ildən Azərbaycanın Prezidenti seçilən İlham Əliyev bu gün regionun ən görkəmli siyasi lideridir. O, respublikaya rəhbərlik etdiyi 21 il ərzində ölkəsinin beynəlxalq aləmdə mövqelərini möhkəmləndirməyə, iqtisadiyyatı inkişaf etdirməyə və qlobal çağırışlar şəraitində sabitliyi qoruyub saxlamağa imkan verən müstəsna liderlik keyfiyyətləri ortaya qoyub.**



“Böhran məhz ondadır ki, köhnə hər şey ölür, amma yenisi hələ yarana bilmir. Dünyanın indiki vaxtları dərin və ağrılı patologiyalarla tarixə düşür”. Məşhur italyan filosofu və jurnalisti Antonio Qramşinin ”Həsbsxana dəftərləri” əsərində təsvir etdiyi ötən əsrin 30-cu illərini eynən bəşəriyyətin hazırkı – 2020-ci illərdəki durumuna bənzətmək olar.

Praktik olaraq paralel şəkildə dünya ticarətinin və investisiya qoyuluşunun bir çox mühüm sahələrində enmə baş verir, maliyyə və xammal bazarlarında kəskin eniş müşahidə edilir, beynəlxalq münaqişələrin və vətəndaş müharibələrinin sayı və miqyası artır, iqlim problemləri və resurs qıtlığı kəskinləşir, beynəlxalq hüququn bir çox normalarının tətbiqinin səmərəliliyindən isə əsla danışmağa dəyməz.

Bu təhlükələrin Azərbaycanın yenicə bərpa etdiyi sərhədlərini də aşa və düzənimizə ağır zərbələr vura biləcəyi ehtimalı isə böyükdür. Bu istisna deyil. Bundan sığortalanmağın və yeni dünyanın çağırışlarına qarşı durmağın əsas yollarından biri ölkənin idarəçilik sükanının kimin əlində olmasındadır. Ona görə də indi yaxşı ki, Azərbaycan dövlətinin sükanı İlham Əliyev kimi güclü, müdrik və cəsarətli liderin əlindədir.

Bu gün dünyanın böyük güc sahibi olan hegemon ölkələr arasında tarazlığı bərpa etmək praktik olaraq imkansız görünür. Əsas oyunçular artıq bir-biriləri ilə hərbi toqquşma riskinə getməyi özlərinə rəva görmürlər, lakin onların birbaşa deyil, dolayısı ilə toqquşması özünü lokal münaqişələr və müharibələrdə aydın göstərib. 30 ildən artıq davam edən və artıq başa çatmış Ermənistan–Azərbaycan münaqişəsi də, əslində, əsas oyunçuların toqquşmalarından biri idi. Biz bu gün qətiyyətlə deyə bilərik ki, Azərbaycan artıq böyük, tarixi Zəfərlə başa çatdırdığı bu münaqişəyə rəsmən son qoymaq ərəfəsindədir və üfüqdə sülhün işartıları görünür.

Aydın məsələdir ki, güclü siyasətçi, xarici siyasəti dərindən bilən diplomat və beynəlxalq münasibətlərdə öz strategiyası olan cəsarətli dövlət başçısı ilə danışmaq Qərbə heç də xoş təsir bağışlamır, onlar bundan qətiyyən məmnun deyillər. Onlara aciz və cılız, sözəbaxan dövlət başçısı lazımdır ki, maraqlarını gerçəkləşdirə bilsinlər. Məhz buna görə də regionda əsl söz sahibinə çevrilmiş gənc müstəqil Azərbaycan dövlətinin başında İlham Əliyev kimi modern düşüncə sahibinin, usta diplomatın, cəsarətli, eyni zamanda müdrik dövlət başçısının olması Qərbin heç də ürəyincə deyildi. Amma bu seçimi Qərb yox, öz liderinə sonsuz inanan Azərbaycan xalqı edirdi.

2024-cü ilin fevralında baş tutan Prezident seçkiləri Azərbaycan tarixində yeni bir mərhələyə keçidin əlamətdar tarixi oldu. Bu müstəqil və ərazi bötövlüyü tam bərpa edilmiş dövlətin quruculuq və tərəqqi dövrünə keçidinin başlanğıcı idi. Tarixə qovuşan zaman göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyev onilliklər ərzində dünyada və regionda formalaşan “oyun qaydalarını” dəyişdirə, həqiqi müstəqil dövlət qura bildi və indi bu dövlətin yeni hədəflərə doğru irəliləməsinə start verir.

Şübhəsiz, İlham Əliyevin heç bir ritorik tərifə ehtiyacı olmadığını onun keçdiyi həyat yolu, siyasi dövlətçilik fəaliyyəti boyu imza atdığı uğurlar kifayət qədər aydın göstərir. Amma bizim və müstəqil Azərbaycan dövlətinin ona, onun ağlına, dərin zəkasına, diplomatiyasına, cəsarətinə və qətiyyətinə, ölkəni bundan sonra da bu şəkildə məharətlə idarə etməsinə böyük ehtiyacı var. Ona görə də bu il fevralın 8-də Prezident seçkiləri günü məntəqələrə böyük şövqlə axışan on minlərlə vətəndaş yaxşı başa düşürdü ki, tərəqqi və modern dövlət quruculuğuna, ermənilərin viran qoyduğu şəhər və kəndlərimizin sürətli bərpasına qədəm qoyan Azərbaycanı İlham Əliyevə deyil, dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan hansısa insana etibar etməyimiz çox böyük yanlışlıq olardı. Xalq buna imkan vermədi.

## Uzaqgörənlik və strateji düşüncə

İlham Əliyevin əsas xüsusiyyətlərindən biri onun uzunmüddətli məqsədləri formalaşdırmaq və onlara nail olmaq üçün strateji plan qurmaq bacarığıdır. O, prezidentliyinin elə ilk günlərindən Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi kursunu müəyyənləşdirib, neft-qaz sektorunun inkişafına xüsusi diqqət yetirdi. Onun təşəbbüsləri sayəsində Azərbaycan Avropanı alternativ enerji mənbələri ilə təmin etməklə regionda əsas enerji oyunçusuna çevrildi. Bu gün Avropanın enerji təminatında mühüm rolau olan TANAP qaz kəməri və Cənub Qaz Dəhlizi kimi layihələr onun uzaqgörənliyinin bariz nümunəsidir.

İlham Əliyevin liderliyi 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı özünü xüsusilə bariz şəkildə göstərdi. Prezident xalqı vahid məqsəd – Azərbaycanın ərazi bütövlüyünün bərpası ətrafında birləşdirə bildi. Onun beynəlxalq oyunçularla danışıqlarda aydın və inamlı mövqeyi, o cümlədən diplomatiya, texnologiya və hərbi resurslardan fəal şəkildə istifadə etməsi ölkəyə uğur qazanmağa, 30 il xalqımıza xəcalət yaşadan tarixə son qoymağa, Zəfərlə qürurumuzu özümüzə qaytarmağa imkan verdi.

Bu şanlı Zəfər bir günə, bir ilə əldə edilmədi. Prezident İlham Əliyevin diplomatiyadakı hücum siyasəti sayəsində Birinci Qarabağ savaşından sonrakı, xüsusilə onun Prezident olduğu 17 illlik dövr Ermənistan üçün “wasted”, sözün əsl mənasında, boşuna “xərclənmiş” qızıl kimi vaxt oldu və bu vaxt İlham Əliyevin sayəsində Azərbaycanın bütün sahələrdə strateji irəliləyişinə işlədi.

İlham Əliyev müxtəlif güc mərkəzləri, o cümlədən Türkiyə, Rusiya, Avropa İttifaqı və digər əsas beynəlxalq oyunçular arasında məharətlə tarazlıq yaratmağı bacardı. Azərbaycanın müstəqilliyini qoruyaraq strateji tərəfdaşlıq qurmaq bacarığı onu hazırda dövrümüzün ən uğurlu diplomatlarından birinə çevirdi. Onun rəhbərliyi ilə Azərbaycan Şərqlə Qərb arasında dialoq platformasına çevrildi, bunu məsələn, Bakı forumlarının və digər beynəlxalq tədbirlərin keçirilməsi də aydın təsdiqləyir.

Torpaqlarımızın işğal altında olduğu bir vaxtda Milli Ordunun möhkəmləndirilməsini strateji məsələ kimi qarşıya qoyması və onu yüksək səviyyədə həll etməsi bir daha onu göstərdi ki, İlham Əliyev müasir dünyanın çağırışlarını qabaqlamağı bacarır. Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə yönələn vəsait də, ölkə başçısının diqqəti də özünü yüksək səviyyədə doğrultdu.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün planetimiz hərbi gücü kəskin rəqabət və mümkün kompromislər üçün dayaq nöqtəsi hesab edən iki sistemin qarşıdurması vəziyyətindədir. Biz bunu Ermənistan–Azərbaycan münaqişəsinin timsalında başqa ölkələrdən daha aydın dərk edirik. Qarşıdurma vəziyyətində olmayan ölkələrin belə hərbi xərclərinin artması, hərbi doktrinaların sərt ritorikası, iqtisadi və maliyyə təzyiqlərinin yeni üsulları, mülki korporasiyaların hərbi layihələrə cəlb edilməsinin sürətlə artması da buna işarədir.

Tərəflər mümkün hərbi qarşıdurmalar fonunda “əzələ şişirtməyə” başlayıblar. Cənubi Qafqazda da Ermənistan hələ ki, revanşist meyillərdən əl çəkmək fikrində deyil və münaqişənin yenidən alovlanmasında maraqlı olan bir çox güclü oyunçular bu ölkəni silahlandırmaqda məhz buna doğru gedirlər. Bu da ondan irəli gəlir ki, əsas oyunçular gələcək regional və qlobal razılaşmalarda özlərinin xarici siyasət ambisiyalarını reallaşdırmaq üçün bu yolla şanslarını artırmağa çalışırlar.

Bu ilin son aylarında ABŞ-nin 60 konqresmeni Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etdiyinə görə ona qarşı sanksiyaların tətbiq edilməsini təklif etdi. Çünki Qarabağın, Xankəndinin beynəlxalq qanunlarla, elə ABŞ tərəfindən Azərbaycan Respublikasının qanunu ərazisi kimi tanınmasına baxmayaraq, Vaşinqtonda Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinə heç də şad deyillər. Bu ölkədə kifayət qədər ermənipərəst qüvvələr var ki, onlar “Qarabağın müstəqilliyi” ideyasını dəstəkləyir və bu satellit ölkəni revanşizmə çəkir, bu vasitələrlə Azərbaycana təzyiq göstərməyə çalışırlar. Amma Azərbaycan Prezidenti İlham Əliyev bunu çox gözəl başa düşür və bu hədəyə özünəməxsus şəkildə çox sərt və cəsarətlə cavab verərək birmənalı şəkildə bildirir ki, bunun arxasında Dövlət Departamenti dayanır. Prezident İlham Əliyevin belə cəsarətlə faktı açıqlaması bir daha onu göstərir ki, o, dünyada gedən proseslərin son nəticədə hara aparacağını qabaqcadan görür və bilir ki, ABŞ-nin hegemon olduğu birqütblü dünyanın artıq sonu yaxınlaşır.

Prezident İlham Əliyev ölkəsinin Avropanın, bütövlükdə Qərbin qınaq obyektinə, siyasi alver predmetinə çevrilməsinə imkan vermir. Qərbin bu siyasətində təşəbbüskar kimi çıxış edən Fransaya qarşı çox sərt mövqe nümayiş etdirir. Azərbaycan Fransanın müntəzəm anti-Azərbaycan siyasətinə sözdə deyil, əməldə də cavab verir. Azərbaycan bu gün Fransanın müstəmləkəçiliyinə qarşı mübarizədə liderlərdən birinə çevrilib. Fransa Respublikası tərəfindən hüquqları pozulmuş və pozulmaqda olan xalqlara kömək etməklə, bu mövzuda çox fəal iştirak edir. Kiçik bir dövlətin Fransanın xalqların hüquqlarını pozması problemi ilə məşğul olması artıq Azərbaycan Respublikasının regional oyunçu çərçivəsindən kənara çıxdığını göstərir. Əlbəttə, bu, ilk növbədə, ölkə başçısının cəsarətli xarisi siyasət yürütdüyünün əyani sübutudur.

Ümumiyyətlə, Cənubi Qafqazda regional lider rolunu Azərbaycanın son iki Prezidenti – Heydər Əliyev və İlham Əliyev öz üzərinə götürmüşlər. Çünki bunun üçün onların rəhbərlik etdikləri ölkənin bütün əsasları var – nəqliyyat logistikası baxımından əlverişli coğrafi mövqe, Xəzər dənizinə çıxış, əhəmiyyətli enerji ehtiyatlarına sahiblik və inkişaf etmiş iqtisadiyyat.

Bu gün Azərbaycan diplomatiyasının prioritet istiqamətlərindən biri coğrafi baxımdan yaxın dövlətlərlə və ilk növbədə, Mərkəzi Asiya ölkələri – Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan ilə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsidir.

Son illərdə, xüsusən Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin intensivliyi nəzərəçarpacaq dərəcədə artmışdır. 2021-2023-cü illərdə Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bütün Mərkəzi Asiya ölkələrində səfərdə olmuş, onların rəhbərlərini də Bakıda qəbul etmişdir.

## Xalq – lider birliyi

Əgər əfsanəvi Anteyin gücü onun torpaqla bağlılığında idisə, liderin gücü, heç şübhəsiz, onun xalqla birliyindədir. Prezident İlham Əliyev bu birliyin müasir dövr üçün ən nümunəvi həllinə nail olub. Ulu öndər Heydər Əliyev xalqla nə qədər yaxın idisə, onun varisi İlham Əliyev xalqla bir o qədər bağlı adamdır və onun zərb-məsələ çevrilmiş “biz xalqın xidmətçisiyik” ifadəsi də bu amaldan doğur.

Prezident İlham Əliyevin hakimiyyətə gələndən bu günə həllinə nail olduğu çox mühüm məsələlərdən biri real hakimiyyət mexanizmini yaratması olub. Bu hakimiyyət mexanizmi təcili çağırışlara adekvat reaksiya verməklə yanaşı, həm də strategiya işləyib hazırlayır və reallaşdırır.

Rusiyanın tarixçi alimi, tarix elmləri doktoru, MDBƏİ-nun professoru Stanislav Çernyavski Prezident İlham Əliyevin hakimiyyət illərini dəyərləndirərkən qeyd edir ki, onun hakimiyyəti illərində Azərbaycan sarsılmaz müstəqil dövlətə çevrilib. “Azərbaycanda cəmiyyət möhkəmlənib, azərbaycançılıq ideyası güclənib, Azərbaycan millətinin birliyi daha da güclənib. Bu, respublikanın ən mühüm nailiyyətidir”.

Fikrini davam etdirən alim yazır: “Son hadisələrə gəlincə, Azərbaycan xalqı Ermənistan – Azərbaycan münaqişəsinin həllində mühüm uğurlar qazanıb, ərazi bütövlüyünü təmin edib. Hesab edirəm ki, bu, Prezident İlham Əliyevin təkcə öz atası Heydər Əliyevə deyil, bütün Azərbaycan xalqına verdiyi sözünün üstündə duraraq göstərdiyi ən böyük xidmətidir”.

Dövlət başçısı bu il fevralın 7-də keçirilən prezident seçkilərindən sonrakı çıxışlarının birində qeyd etdi ki, belə bir dövrdə yaşamaq, epoxanın şahidi olmaq böyük xoşbəxtlikdir: hamı xoşbəxtdir, çünki xalqın bütün təbəqələri öz səyləri ilə Qələbəni daha da yaxınlaşdırdı, ona görə də, beynəlxalq tərəfdaşlar bunun əksi üzərində nə qədər çalışsalar da, bu məsələ ümummilli arzuya çevrildi və üç onillik ərzində unudulmadı. “Xocalıda bayrağı qaldırarkən düşündüm ki, bu gün tam əminliklə deyə bilərik: Xocalı qurbanlarının intiqamı alındı, bayrağımızın Xocalıda ucaldılması daha həyəcanverici hadisə idi. Xankəndidəki bayraq ədalətin tam bərpası və Qələbəmizin son nöqtəsi oldu”.

Rusiya Liberal Demokrat Partiyasının sədri Leonid Slutski Azərbaycana səfərindən sonra jurnalislərə verdiyi müsahibəsində deyir: “Azərbaycan çiçəklənən iqtisadiyyatdır. Azərbaycan bugünkü Azərbaycanı anlamağa və qəbul etməyə hazır olan hər kəslə əməkdaşlığa açıq dövlətdir. Bənzərsiz mədəniyyət, unikal rəhbərlik, əlbəttə bunları Azərbaycan Prezidentinə xoş gəlmək üçün demirəm, bir müddət əvvəl Azərbaycana müəyyən dərəcədə bədbinliklə baxan, sonra gördüklərini etiraf edənlərin fikrini təsdiq edirəm... Azərbaycan regional və dünya siyasətinin ən mürəkkəb məsələlərinə özünün müdrik və balanslı yanaşması ilə, istənilən proseslər üçün danışıqlar platformasına çevrilə bilər”.

Əlbəttə, bu, ilk növbədə, Prezident İlham Əliyevin müstəsna xidmətləri sayəsində qazanılan bir etimaddır və noyabrın 11-dən 22-nə qədər Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası bunun əyani sübutudur. Dünyanın taleyinin müzakirə olunduğu Bakı sessiyasında 190-dan çox ölkədən 72 min nümayəndə gəlmişdi ki, onların arasında 80 prezident, vitse-prezident və baş nazir yer almışdı. Beynəlxalq tədbirin miqyası və əhəmiyyətinə gəldikdə isə, qeyd etmək lazımdır ki, Bakıda keçirilən COP29-da Azərbaycan beynəlxalq arenada rolunu gücləndirərək bir sıra mühüm nəticələr əldə etdi:

**Əvvəla,** qlobal iqlim maliyyələşdirməsini 300 milyard dollara çatdırmaq üçün mühüm konsensus əldə olundu. Mövcud geosiyasi və iqtisadi reallıqlarda iqlimə həssas ölkələr üçün 300 milyard dollarlıq əsas maliyyə ehtiyatı ayrılması və ümumi hədəfin 1,3 trilyon dollar olaraq müəyyən edilməsi çox mühüm nailiyyətdir. Azərbaycan üçün mühüm olan budur ki, bu qərar 15 illik nəticəsiz müzakirələrdən sonra Bakıda əldə edildi.

**İkincisi,** Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitini təşkil etdi və bu sammitdə Prezident İlham Əliyev bu ölkələrin iqlim dəyişikliyinin nəticələrinə və bir sıra dövlətlərin neokolonial siyasətinə qarşı mübarizədə dəstəyini ifadə etdi.

**Üçüncüsü,** Gender Məsələləri üzrə 10 illik yenilənmiş Lima İş Proqramı qəbul edildi ki, bu da iqlim gündəmində mühüm addım idi

Bu siyahını xeyli artırmaq da olar, əsas məsələ ondan ibarətdir ki, ümumilikdə, Bakıda keçirilən COP29 qlobal iqlim gündəmini təbliğ etmək və Azərbaycanın diplomatik nüfuzunu gücləndirmək üçün uğurlu platformaya çevrildi.

*

Yekun olaraq, bütün bu nailiyyətlərə imza atan, böyük dəyanətlə, müdrikliklə, usta diplomatik gedişlərlə Azərbaycanı idarə edən Prezident İlham Əliyevin arqumentə və əsaslandrmaya ehtiyacı olmayan bir çox keyfiyyətlərinə diqqət edək:

**Əvvəla,** İlham Əliyev siyasi lider kimi 20 ildən artıqdır ki, xalqın uğurlu seçimi olaraq özünü təsdiqləyib.

**İkinci,** İlham Əliyev öz ideyalarına son dərəcə diqqətlidir və onların gerçəkləşməsində heç nəyi əsirgəmir. Bu onun ən mühüm keyfiyyətlərindən biridir.

**Üçüncü,** İlham Əliyev xalqının və ölkəsinin düşmənləri üzərində qələbə çalır və bu yolda təşəbbüsü əldən verməmək üçün daim mübarizədədir. İlham Əliyev ölkəsinin və xalqının maraqlarına qəsd etməyə çalışan istənilən qüvvəni məhv etməyə belə hazırdır və bu işdə güzəştə getmir.

**Dördüncü,** İlham Əliyev müstəqildir və dövlətinin də müstəqilliyinin bir zərrəsini də heç kimə güzəştə getmir. Bu onun liderliyinin ən parlaq göstəricilərindən biridir.

**Beşinci,** İlham Əliyev bayraqdar liderdir. Onu başqalarından fərqləndirən reallığı qabaqcadan görməsi və qiymətləndirməsi, arzu olunan gələcəyin obrazını müfəssəl təsəvvür edə, xüsusilə ekstremal vəziyyətlər baş verən zaman “nəyi necə və nə vaxt etməyi” bilmək istedadıdır.

Maraqlıdır ki, İlham Əliyevin güclü lider olduğunu söyləyən təkcə Azərbaycan ziyalıları, “gözü tərəzi olan xalq” yox, hətta erməni millətinin ağıllı başları və ziyalı nümayəndələri də etiraf edirlər. Xatırlayırsınızsa, erməni əsilli məşhur rus rejissoru Karen Şahnazarov “Rossiya 1” telekanalında Vladimir Solovyova müsahibəsində bunu xüsusi vurğuladı: “Azərbaycan Prezidenti İlham Əliyev əla məktəb keçmiş, görkəmli, ağıllı siyasətçidir. Buna şübhə yoxdur. Bu gün Azərbaycanda baş verənlər fenomenaldır. Bu işdə ona qarşı hansı iddialar ola bilər? İlham Əliyev bütün postsovet dövrünün 30 ili ərzində Qafqazın ən uğurlu və nüfuzlu siyasətçisi oldu... İndi Cənubi Qafqazın bu və ya digər şəkildə hansısa regional birliyə ehtiyacı var. Bu gün bu regional birlikdə kim lider ola bilər? Cənab İlham Əliyev! Müharibədə qalib gələn, nefti, pulu, hər şeyi olan öz Azərbaycanı ilə”.

**Altıncı məqam,** İlham Əliyev öz xalqının maraqlarını təkcə mükəmməl ifadə etməklə deyil, həm də ən yaxşı halda, ən uğurlu şəkildə gerçəkləşdirməklə vətəndaşların sevgi və hörmətini qazanmış liderdir.

Bu yerdə dövlət başçımızın Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Şuşaya səfəri yadıma düşdü. Şuşanı və Qarabağı prezidentimizlə gəzəndən sonra Belarus Prezidenti həmkarı İlham Əliyevin nailiyyətlərini həqiqətən epoxal fəaliyyət kimi qiymətləndirərək dedi: “Azərbaycan son illər çox şeyə nail olub. Hər şeydən əvvəl isə özünün əsas problemini – uzun müddət sadəcə səhraya çevrilmiş torpaqlarının qaytarılmasını həll edib. Bu çox ağır bir tarixdir... Siz ki torpaqları qaytarmısınız, onları dirçəldirsiniz, bu, uzun illər, əsrlərlə tarixdə qalacaq”. Bəli, İlham Əliyevin xidmətləri artıq Azərbaycanın şanlı Zəfərlə zinətlənmiş parlaq tarixinə çevrilib və uzun əsrlər nəsillər tərəfində ehtiram və qürurla xatırlanacaq.

**Yeddinci,** İlham Əliyevdə özünə və ideyalarına böyük əminlik və inam var. O lider kimi fəaliyyətndə qətiyyətlidir, çünki özünün doğru olduğuna əmindir və gördüyü işə heç vaxt şübhə etmir. Bu əminlik və qətiyyət də ona və xalqımıza böyük uğur gətirir.

Böyük alman filosofu Fridrix Nitşe yazıb: “İnsanlığın məramı onun ali nümayəndələrində cəmlənir. Bəşəriyyət yorulmadan çalışmalıdır ki, dünyaya böyük insanlar bəxş etsin, onun əsas vəzifəsi məhz bundadır, başqa heç nədə... ” Bu mənada, əlbəttə, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, taleyinə bəşəriyyətə XX əsrdə Heydər Əliyev, XXI əsrdə isə İlham Əliyev kimi nəhəng şəxsiyyətlər bəxş edib. Kim bundan qürur duymaz!

*Məhərrəm SƏFƏRLİ,*
*“Həsən bəy Zərdabi” mükafatçısı*

# Uğurlu idarəetmə və İlham Əliyev təcrübəsi

### I MƏQALƏ

**Sürətli dəyişmələr dönəmində insanlar identiklik boşluğuna düşürlər. Bu zaman onların radikal alternativlər təklif edən liderlərə ehtiyacları artır.**

**Rocer İTVEL,**
**Avropa siyasəti üzrə professor**



Azərbaycan Prezidentinin dövlət başçısı və lider kimi fəaliyyəti uzun müddətdir ki, fəlsəfi və politoloji fikrin diqqət mərkəzindədir. İlham Əliyev Prezident kimi fəaliyyəti müddətində təhlilinə ciddi ehtiyacı olan proqramlar həyata keçirmişdir. Azərbaycan liderinin əldə etdiyi nailiyyətlər, faktiki olaraq, postsovet məkanında oxşarı olmayan hadisədir. Əlbəttə, bununla bağlı geniş təhlillər həm fəlsəfi, həm də politoloji kontekstdə aparılır və bu proses davam edəcəkdir. Çünki Prezident İlham Əliyevin reallaşdırdığı siyasi kurs müasir mərhələdə hər bir müstəqil dövlət üçün əhəmiyyətlidir və faydalı təcrübədir. Biz bu tezisdən çıxış edərək, artıq dövlət idarəedilməsində və siyasi ldierlikdə İlham Əliyev təcrübəsindən danışa bilərik.

Öncə "İlham Əliyev təcrübəsi" ifadəsinin siyasi izahını verməyə çalışaq. Məsələ ondan ibarətdir ki, istənilən dövlət başçısı və siyasi liderin elmi səviyyədə təcrübəsindən bəhs etmək üçün bir neçə şərt ödənməlidir.

Burada uğurlu olmaq kiafəyətedici kriteriya deyildir, lakin o olmasa, ümumiyyətlə, müsbət mənada idarəetmə və liderlik təcrübəsindən danışmaq mümkün deyil. Deməli, uğurlu olmaq idarəetmədə və liderlikdə təcrübə "sahəsinin sərhədlərini" müəyyən edir.

Buna müasir fəlsəfədə "tezaurus" deyilir, yəni, seçim etmək üçün mövcud variantların bir məkanı vardır. Həmin məkan seçim diapazonunu, üsulunu və konkret hansı faktorları seçmək imkanının olduğunu müəyyən edir.

Bu ümumi fəlsəfi anlamı konkret "siyasi liderin təcrübəsi" ifadəsinə reduksiya (müncər etmə) etsək, alırıq ki, siyasi təcrübənin özünəməxsus təşkili qaydası, məzmunu və siyasi funksiyası mövcuddur. Belə bir baxış bucağının işığında "Azərbaycan Prezidentinin təcrübəsi" ifadəsini tam əminliklə politoloji dövriyyəyə daxil edə bilərik.

## Təcrübənin tezaurus sahəsi

Azərbaycanın dövlət başçısının 21 illik fəaliyyətində konkret tezaurus sahəsi (və ya məkanı) formalaşmışdır. Onun səlis seçim diapazonu, seçim üsulu və hansı faktorları seçmək özəlliyi vardır. Bu təcrübə hazırda milli və regional miqyası aşaraq, qlobal səviyyədə dərk edilməli və praktiki tətbiqə layiq bir fenomenə çevrilmişdir.

## Təcrübənin seçim diapazonu

Dövlət başçısı və xalqın liderinin təcrübəsinin seçim diapazonu müstəqil milli dövlət quruculuğu fəlsəfəsinin sərhədləri əsasında müəyyən edilir. Bunun siyasi anlamı ondan ibarətdir ki, İlham Əliyevin istənilən situasiyada seçim variantları milli müstəqil dövlətçilik, milli maraqlar və mənafelərin hüdudunu aşmır.

## Təcrübənin seçim üsulu

İlham Əliyevin dövlət başçısı və lider kimi seçim üsulunun təməlində bir neçə kriteriya dayanır – ədalətlilik, azərbaycançılıq, multikulturalizm, hüquqilik, təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlığın təmini.

Diqqətə almaq gərəkdir ki, bu nəzəri faktorlar İlham Əliyevin fəaliyyətində daima praktiki təsdiqini tapır. Bu məqam XXI əsrdə real siyasi fəaliyyətin qalıcı təcrübəyə çevrilməsində aparıcı yerlərdən birini tutur.

## Təcrübədə seçim özəlliyi

Nəzəri olaraq bu aspekt daha mürəkkəb təbiətlidir. Ona seçim mexanizminin siyasi texnologiyaları ilə yanaşı, liderin iradi və mənəvi-əxlaqi keyfiyyətləri də daxildir.

Təcrübə sahəsindən aktual olanı seçmək liderin situasiyanı qiymətləndirmə özəlliyindən, gələcəyi görmək üsulundan və nəzərdə tutduqlarını həyata keçirmək texnologiyalarından asılıdır. İlham Əliyev təcrübəsində bunların maraqlı nümunələri vardır.

Məsələn, 2008-ci ildə Rusiya – Gürcüstan münaqişəsi zamanı Azərbaycan Prezidenti həm müstəqil, həm də ədalətli seçim etdi – qonşu dövlətin məhv olmaması üçün hüquqi cəhətdən mümkün olan addımları çəkinmədən atdı.

Eyni seçim texnologiyasını 2012-ci ildə Azərbaycan – Aİ münasibətlərinin "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində təkamül yolunun seçilməsində və 2013-2014-cü illərdə Ukrayna ilə Rusiya arasında enerji böhranı yarananda gördük. Həmin situasiyalarda İlham Əliyev seçiminin təcrübəsi üçün ortaq olan bir özəllik özünü göstərmişdir – ədalət, hüquq və qarşılıqlı faydalı əməkdaşlıq əsasında iştirakçıların milli təhlükəsizliyinin təmini!

Burada seçim mexanizmlərinin müəyyən edilməsi və onların cəsarətlə reallaşdırılması üçün liderin şəxsi keyfiyyətləri ön plana çıxır. Yüksək zəka, praqmatik məqsədin düzgün müəyyən edilməsi, siyasi-diplomatik məharət və yaradıcı təşəbbüskarlıq özünü göstərməlidir. Bunu dünya gördü!

## Təcrübənin regional konteksti

Öncə onu vurğulayaq ki, postsovet məkanında XXI əsrin ilk onillikləri müddətində müstəqil dövlətin başçısı və liderinin regional kontekstdə təcrübəsinin mövcudluğunun başqa nümunəsi yoxdur. Ya milli miqyasda uğurlu olanlar onu qalıcı olaraq regional miqyasa transformasiya edə bilməmişlər, ya da, ümumiyyətlə, regional miqyasda davamlı fəaliyyət göstərə bilməmişlər.

Məsələn, Gürcüstan bir müddət milli səviyyədə qazandığı uğurları regional miqyasa transformasiya edə bilmədi. Hətta dərin siyasi, iqtisadi və geosiyasi qeyri-müəyyənlik vəziyyətinə düşdü.

Ukrayna, ümumiyyətlə, regional miqyasda hər hansı uğur qazana bilməmişdir, əksinə, indi özü region üçün risk məkanına çevrilmişdir.

Mərkəzi Asiyada Qazaxıstan və Özbəkistan milli səviyyədə əldə etdikləri uğurları daxili imkanlar hesabına regional səviyyəyə proyeksiya edə bilmirlər. Bu prosesdə onlara qardaşları – Azərbaycan və Türkiyə yardımçıdırlar.

Rusiyanın da regional miqyasda kifayət qədər ziddiyyətli faktorları mövcuddur. Onun Baltikyanı, Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında həll edilməmiş problemləri qalmaqdadır. Rusiya nə qədər güclü və böyük dövlət olsa da, müasir mərhələdə onun təcrübə məkanının pozitiv tezaurus sahəsindən danışmaq xeyli çətindir.

Azərbaycan Prezidentinin təcrübəsinin regional konteksti isə tamamilə fərqli kriteriyalara malikdir. Onların üzərində dayanaq.

## Daxili həmrəyliyin regional miqyasa proyeksiyası

İlham Əliyev 2003-cü ildən başlayaraq Azərbaycan cəmiyyətinin həmrəyliyini siyasi varisliyə uyğun yeni səviyyəyə yüksəltmək xəttini seçdi. Onun əsas istiqamətləri aşağıdakılar oldu: Milli ideyanın həyata keçirilməsi zərurətinin toplum tərəfindən qəbul edilməsi, azərbaycançılıq, multikulturalizm, hüquqi təminat, fərdi maraqlarla milli maraqların müstəqil dövlətçiliyə xidmət müstəvisində düzgün nisbətinin müəyyən edilməsi, müstəqil dövlət quruculuğu prosesinin başlıca prinsiplərinin cəmiyyət tərəfindən inklüziv legitimliyinin qəbul edilməsi.

Əlbəttə, liderin siyasi və diplomatik məharəti daxili həmrəylik kriteriyalarını yaradıcı surətdə regional miqyasa transformasiya etməlidir. Çünki daxili və regional mühit fərqlidir, birində uğurlu olan hər hansı faktoru eyni ilə digərinə tətbiq etmək olmaz.

İlham Əliyev təcrübəsinin mühüm cəhətlərindən biri bununla bağlıdır. Milli ideya, multikulturalizm, hüquqi təminat, fərdi maraqlarla milli maraqların müstəqil dövlətçiliyə xidmət müstəvisində düzgün nisbətinin müəyyən edilməsi və müstəqil dövlət quruculuğu prosesinin başlıca prinsiplərinin cəmiyyət tərəfindən inklüziv legitimliyinin qəbul edilməsi üzrə İlham Əliyev təcrübəsinin regional miqyasa proyeksiyasına nəzər salaq.

## Milli ideya və regional reallıqlar

Milli ideyanın Azərbaycan daxilində həmrəylik və birliyi təmin etməsinin konkret göstəricisi II Qarabağ müharibəsi zamanı vətəndaşların monolit davranışında və lider-xalq birliyinin gücündə təzhaür etməsidir. Prezident İlham Əliyev bu bağlılıqda "Biz birlikdə güclüyük!" tezisini irəli sürmüşdür ki, onun təsiri çox yüksək olmuşdur.

Digər mənaları ilə yanaşı, bu tezisin insanları vahid məqsəd uğrunda kollektiv fəaliyyətə səsləniş motivi də vardır. Həmin prizmada milli ideyanın birləşdirici gücünün regional miqyasa transformasiyası yerli dövlətlərin və cəmiyyətlərin ortaq məqsədlərinin formalaşdırılması ola bilərdi. Azərbaycan Prezidenti məhz həmin kontekstdə regional hərmrəylik siyasətini Cənubi Qafqaz miqyasına proyeksiya etmişdir. "Qafqaz evi" ideyasının yenidən gündəmə gətirilməsini, "3+3" əməkdaşlıq və təhlükəsizlik platformasını, Orta dəhliz layihəsinə Cənubi Qafqaz dövlətlərinin hər birinin qoşulması istiqamətində aparılan diplomatik və konkret proqram üzrə fəaliyyətini, regionda kommunikasiya xətlərinin açılması və onların şəffaf işləməsinin təmini üzrə atılan addımları, regionun hər bir xalqının hüquqlarının qorunması üzrə əməkdaşlığı, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinin ön plana çıxarılmasını və digər addımları qeyd edə bilərik. Bütün bunlar məhz Azərbaycan Prezidentinin regional miqyasda milli ideya kontekstində həmrəyliyini təmin etməsinin fraqmentləridir.

## Multikulturalizm

Multikultural dəyərlərin aparıcı rolu Azərbaycanda müstəqil dövlət siyasətinin ayrıca istiqaməti kimi oturuşmuşdur. Bu şərtin ölkə daxilində ödənməsi artıq real faktdır. Azərbaycan cəmiyyəti mahiyyətcə multikultural təbiətlidir. Məharətli siyasi-diplomatik fəaliyyət bu kriteriyanı uğurla regional miqyasa proyeksiya etməkdədir. Artıq Cənubi Qafqazda yerli xalqların hər birinin mədəni, mənəvi, əxlaqi və hüquqi sərbəstliyinin təmin edilməsi qəbul olunmuşdur. Azərbaycanın Ermənistanı hərb meydanında tam məğlub etməsi faktından Prezident İlham Əliyev multikultural dəyərlərə sayğı kontekstində yararlanmaqdadır. Belə ki, Azərbaycan müxtəlif regional və beynəlxalq tədbirlərdə Cənubi Qafqazın bütün xalqlarının eynihüquqluluq əsasında qarşılıqlı faydalı əməkdaşlıqda olması zərurətini addım-addım reallaşdırmağa çalışır. Burada yerli xalqların hər hansı birinin mənəvi, mədəni, əxlaqi və ya hüquqi ayrı-seçkiliyini Prezident İlham Əliyev qəbul etmir. Onun ən bariz təsdiqlərindən biri COP29-un keçirilməsi olmuşdur. Azərbaycan rəhbərliyi Ermənistan rəhbərliyini də bu tədbirə digərləri ilə eyni hüquq əsasında dəvət etmişdir.

Bununla yanaşı, Azərbaycan rəhbərliyi sülh müqaviləsi ilə bağlı etdiyi təkliflərdə ermənilərin də mədəni, mənəvi və hüquqi təminatını ön plana çıxarmışdır. Prezident İlham Əliyev azərbaycanlılarla ermənilərin birgə yaşamasının mühüm şərtlərindən biri kimi real olaraq məhz multikultural dəyərlər prinsipinə tam əməl olunmasını müəyyən etmişdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

***(əvvəli qəzetin 17, 18, 19, 20, 21, 22 dekabr tarixli saylarında)***

Resurslarla dolu bu adam nəinki Makrona Əlcəzairə səfər etməyi məsləhət görür, həm də onun əlinə bu ölkədəki "bağlı qapıların açarlarını" da verir. Ona görə də bu səfəri Fransua-Ayssa Tuazi şəxsən özü – seçki kampaniyasının təşviqat qruplarından xəlvət hazırlayır. Onun adı heç bir təşkilat orqaniqramında görünmür. Ancaq bu "səhv" tez bir zamanda "düzəlir": 14 iyul 2018-ci ildə – Fransanın milli bayramı günü Fransua-Ayssa Tuazi prezident tərəfindən Fəxri Legion medalı ilə təltif olunur. Makron Tuazinin keçdiyi həyat yolunu çox bəyənir və bunu hamıya etiraf edir. Onun əsilləri Kabildən olan, Əlcəzair Fransanın müstəmləkəsi olanda Fransanın siyasətini dəstəkləyən valideynləri Əlcəzair müstəqillik qazanandan sonra, Fransaya köçüb Normandiyanın Drö şəhərində məskunlaşıblar. Sadə bir zəhmətkeş ailəsindən çıxan Tuazi, tədricən dövlət səviyyəsində ən yüksək pillələrə qalxacaq. Hamı ilə ünsiyyət qurmağı bacaran, hamı ilə dil tapan bu adam öz bacarığı sayəsində Xarici İşlər Nazirliyində müxtəlif funksiyalarda çalışandan sonra xarici işlər naziri Filip Duste-Blazinin xüsusi müşaviri vəzifəsinə təyin olunur (2005-2007-ci illər arasında Dominik dö Villpənt Baş nazir olan vaxt). Bu illər ərzində Tuazi həm Parisdə, həm də Əlcəzairdə özünə yaxşı çevrə toplayır və hər yerdə sözü keçən bir şəbəkə yaradır. Tuazinin əmisi oğlu əvvəllər Journal du dimanche qəzetində ştatdankənar müxbir kimi çalışan, sonra isə "Tout sur Algérie" (Əlcəzair haqqında hər şey) saytının nəşriyyat direktoru keçən Lun Qemaş onun üçün bir çox qapıları açır. Fransada Tuazi müxtəlif təbliğat işlərinə də qatışır – Azad Siyasi Fikirlər İnstitutunun banisi Klod Bebearlə, eləcə də onun kimi Normandiyanın Drö şəhərində böyüyən xalası qızı Kler Tassadi Hudla bir sıra məsuliyyətli işlər görür. Yeri gəlmişkən, bu qadın (Kler Tassadi Hud) yeddi il ərzində Paris Şurasının seçilmiş üzvləri üçün xüsusi missiya icraçısı kimi çalışandan sonra Siemens və Pitney Bowes kimi müxtəlif beynəlxalq qruplarda insan resursları direktoru kimi bütün dünyanı gəzir... Fransaya qayıtdıqdan dərhal sonra Kler Tassadi Hud, Emmanuel Makronun seçki kampaniyasına qoşulur və hətta ondan çox əvvəl kampaniyada çalışan komanda üzvlərinə kömək əli uzadır.

Kler kampaniyanın daxilində müxtəlif qruplara rəhbərlik edəndən sonra Parisin məşhur və adlı-sanlı məhəllələrində "Hərəkətdə olan analar" adlı təbliğat qrupu yaradır. Makronların cütlüyünə yaxın olan Kler Tassadi Hud prezident seçkilərindən sonra boya-başa çatdığı Drö şəhərində Makronun yaratdığı LREM partiyası tərəfindən deputatlığa namizəd versə də, seçkilərdə uğur qazanmır.

Filip Duste-Blazinin və Dominik dö Villpəntin yaxın dostu olan Fransua-Ayssa Tuazi prezidentliyə namizəd Makronu Əlcəzairə səfərində onu müşayiət edən nümayəndə heyətinin tərkibinə lobbiçi Abdu Malaşı da daxil edir. Xarici İşlər Nazirliyində Tuazinin Moris Qurdolt-Montayn və əvvəllər Qətər və Səudiyyə Ərəbistanında Fransanın səfiri olmuş Bertran Bezanseno kimi dostları var. Ərəbistan yarımadasının, eləcə də ərəb mədəniyyətinin gözəl bilicisi kimi tanınan bu keçmiş diplomat, həm iş adamı Mazen Al Savvaf, həm də Kral Abdallahın dövründə qılıncının dalı da, qabağı da kəsən Ben Ladenin yaxın qohumları ilə də işləyib.

(Fransua Hollandın prezident olduğu ilk illərdə) Elə həmin vaxtlar Ayssa Tuazi Səudiyyə Ərəbistanına tez-tez səfər edən, məhsuldarlıq naziri Arno Montburqla tanış olur. Amma onun müəllimi, onun məsləhətçisi tamamilə başqa bir adamdır –Aleksandr Djurinin yaxın dostu, Sarkozinin dövründə Müxtəliflik və Bərabərlik Şansı komissiyasının komissarı olmuş franko-əlcəzairli iş adamı Yezid Sabeq.

Makronda həmişə belədir – simvollar heç vaxt biznesdən çox da uzaqda dayanmır. Seçki kampaniyası ərəfəsində Əlcəzairə səfəri zamanı prezidentliyə namizəd Makron hamıdan gizlin orada bir neçə iqtisadiyyatla məşğul olan məmurla görüşür. Foto və tele-kameralardan, eləcə də mətbuatın gözündən uzaqda təşkil olunan bu gizli görüşlər xüsusi əhəmiyyət kəsb edir. Nəticədə, yerli hökumətə sadiq olan Əlcəzair Ticarət və Sənaye Palatası (CACI) Makronun bura səyahətini təşkil edən adamlarla əlaqəyə girir. Fevralın 14-də El Orassi hotelinin terrasında Əlcəzair Biznes Liderlərinin Forumu Təşkilatının (FCE) nümayəndələri ilə onların səhər yeməyi təşkil edilir. Əlcəzairin çox məşhur iş adamı Əli Haddad dayanmadan dişlərini ağardır. Böyük bir tikinti sektorunun başında duran Əli Haddad Əlcəzair prezidentinin qardaşı Səid Buteflikanın çevrəsində olan adamlardan biridir. Bu səhər yeməyi zamanı əlcəzairlilər gülür, zarafat edir, əylənir, məzələnirlər. Adama elə gəlir ki, onlar Makronun iqtisadi inkişaf layihələrini o qədər də ciddi qəbul etmirlər.

"Praqmatik" Emmanuel Makron isə qayğısız görünür, hamıyla söhbət edir və onunla şəkli çəkdirmək istəyənlərə mane olmur. Bu görüşdən sonra Makron yerli mətbuata uzun bir müsahibə verir. Bu müsahibədə prezidentliyə namizəd iddia edir ki, əgər prezident seçilsə, Əlcəzairlə bağlı bir sıra iqtisadi öhdəliklər götürəcək, xüsusilə bərpaolunan enerji sahəsində: "Bizə lazımdır ki, Əlcəzairə, onun müxtəlif sahələrdəki iqtisadi inkişafına kömək edək. Biz bu məsələ ilə bağlı təşəbbüs qaldıran ilk ölkəyik. Biz istəyirik ki, Fransa bu texnologiya sahəsində dünya liderliyini əlinə alsın...". Əslində, bu səfərdən bir neçə həftə əvvəl "Afrika üçün Enerji" fondunun prezidenti Jan-Lui Borlo və vitse-prezidenti Yamina Benqiqi Əlcəzairə bir neçə dəfə səfər edib, bu mövzuda ölkənin səlahiyyətli nümayəndələri ilə söhbət aparmışdılar.

Prezidentliyə namizəd Əlcəzairə səfərə hazırlaşanda, onlar ikisi də təbii ki, Makrona və arvadı Brijitə tövsiyə etmişdilər ki, bu haqda mütləq yerli mətbuata informasiya versinlər.

Fransa və Əlcəzair arasında elə şeylər var ki, onlar haqqında ehtiyatla və hər şeydən əvvəl kiçik bir çevrədə danışmaq lazımdır. Məsələn enerji problemləri. Bu məsələ iki ölkə arasındakı, bəlkə də, ən böyük problemdir... təəssüf ki, əvvəlki ölkə liderlərimiz bu problemi görməzliyə vurublar. Başqalarından fərqli olaraq Makron bu məsələyə çox ciddi yanaşır. Hələ Yelisey sarayında baş katibin müavini vəzifəsində çalışandan hiss etmişdi ki, bu strateji sektorun əsas üstünlüyü ondadır ki, onunla nə media, nə də publika maraqlanır. Bu gün Fransada istifadə olunan qazın cəmi 10%-i Əlcəzairdən gəlir. 1980-ci illərin əvvəllərində Fransa Əlcəzairdən 30% qaz alırdı. 1982-ci ildə Əlcəzair Fransanın yeni sosialist hakimiyyəti ilə 20 illik qaz müqaviləsi bağlayır və prezident Fransua Mitt eran Əlcəzair qazına bazar qiymətindən 30% artıq pul ödəyir! O vaxtlar "Fransanın Qazı" şirkətinin çiçəkləyən dövrü idi. İndi Emmanuel Makron Əlcəzairdən daha çox qaz almağı planlaşdırır ki, rusların qazına möhtac qalmasın. 1990-cı illərin əvvəllərində Əlcəzair Mərkəzi Bankının sədri olmuş, tanınmış ekonomist və bankir Abderrahman Hacı-Nacer 2015-ci ildə müsahibələrinin birində etiraf etmişdi ki, Fransa ilə Əlcəzair arasındakı diplomatik soyuqluq, Fransa və Əlcəzair tamaşaçılarını əyləndirmək üçün bir kinodur. Bu iki dövlət bir-birinə düşmən deyir, amma aralarında yaxşı biznes var.




2017-ci ilin sonunda "Franko-Əlcəzair Birgə İqtisadi Komitəsi" (COMEFA) təşkilatının yaranmasından bir neçə gün sonra, eləcə də Parisdə Fransa və Əlcəzairin Baş nazirlərinin sədrlik etdikləri "Yüksək səviyyəli hökumətlərarası komitə" (CIHN) iclasının nəticəsi olaraq Fransanın Total qrupu, Əlcəzairin milli Sonatrach şirkəti ilə Timimun qaz yatağının istismarı üçün nəhəng qaz müqaviləsi rəsmiləşdirir. Bu müqavilə dörd aylıq danışıqlardan sonra həmin ilin aprelində imzalanır və tərəflər qaz yatağının istismarına 1,5 milyard dollar ərmayə ayırırlar. Bu iki neft şirkəti (Total və Sonatrach) hətta günəş enerjisinin inkişafı və gələcəkdə birgə beynəlxalq layihələr üçün qlobal müqavilələr də planlaşdırır. İllərdən bəri bu iki şirkət arasında davam edən ticarət mübahisələrindən sonra, nəhayət, Total Əlcəzairə qalib kimi dönür. Digər tərəfdən, başqa bir məşhur fransız şirkəti Engie də aralarındakı illər boyu gərginlikdən sonra Sonatrach ilə bir neçə müqavilə bağlayır. Yəni illər boyu davam edən soyuq iqtisadi münasibətlərdən və onlarca nəticəsiz mübahisələrdən sonra, nəhayət, 2017-ci ilin aprelində Fransa ilə Əlcəzair arasında bloka düşmüş maliyyə əlaqələri iki tərəfin razılığı ilə blokdan çıxır.

**(ardı var)**

# Xalq – iqtidar vəhdətinin dövlət formulu

**“Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Bu fikirləri ulu öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan Prezidenti olaraq xalqa müraciətində bildirmişdi. Böyük şəxsiyyətin hər bir sözünün və cümləsinin reallıqla dərin fiksasiya mahiyyətinin olduğunu son illərin hadisələri daha dolğun şəkildə sübuta yetirdi.**



Doğum günləri insanların özlərinə başa vurduqları ildə gördükləri işlərə dair hesabat vermək fürsətidirsə, şübhəsiz, ötən müddətdə xidmətləri ilə ən çox fəxr ediləcək bir şəxs var ki, o da Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Dövlətimizin başçısı yola saldığı ilə nəzərən özü ilə ən çox öyünməyə haqqı çatan azərbaycanlı adının da şəriksiz sahibidir. Çünki gördükləri işlərin, reallaşdırdığı təşəbbüslərin sayı-hesabı yox, miqyası ölçüyəgəlməzdir. Ulu öndər Heydər Əliyev də haqqında söz açdığımız müraciətində məhz bunu nəzərdə tutmuş, böyük uzaqgörənliklə həm də Azərbaycan xalqına taleyindəki parlaq gələcəyə inam aşılamışdı.





Doğum günləri həm də insanın keçdiyi ömür yoluna nəzər salıb özünə hesabat verməsi baxımından da qiymətləndirilən təqvim hadisəsidir. Cənab İlham Əliyevin həyatı Azərbaycanın həyatıdır. Dövlətimizin başçısının rəhbərliyi altında Azərbaycan haradan haraya gəlib? Hazırda yuxu kimi günlər yaşayırıq. Bəli, Şuşada, Xankəndidə, Ağdərədə, Kəlbəcərdə, Xocalıda, Xocavənddə, Əsgəranda, Laçında, Ağdamda, Zəngilanda, Füzulidə, Qubadlıda Azərbaycan bayrağı dalğalanırsa, bu, doğrudan da, bir yuxudur. Nəzərə alaq ki, Qarabağımız son yüz ildə heç vaxt indiki qədər Azərbaycan olmamışdı. İlham Əliyev yuxuları gerçəkləşdirən liderdir, haqqı olduğu kimi təqdim etməyi bacaran böyük şəxsiyyətdir. İlham Əliyev hər bir azərbaycanlının yuxusunu çin eləmiş misilsiz dövlət adamıdır.

* * *

“Bu gün Ulu öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub”. Bu fikirləri Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldarkən etdiyi çıxışında səsləndirdi. Cənab Prezident müstəqillik illərində doğma yurd-yuva həsrəti, el-oba yanğısı ilə yaşayan, niskili ürəyinə qubar sancan insanların didərgin ruhlarını şad etmiş liderdir. Bundan böyük mənəvi fəxarəti təsəvvürə gətirmək qeyri-mümkündür. Ölkə liderinin hər doğum günündə bütün bunlar yada salınmalıdır və yada salınır da. Prezidentə qədirbilənlikdən böyük hədiyyə nə ola bilər ki?

Heç şübhəsiz, əlahəzrət zaman Prezident İlham Əliyevin Azərbaycan tarixindəki müstəsna yeri və rolunu daha dolğun şəkildə qiymətləndirəcək. Zamanın 2003-cü ilin 15 oktyabr tarixindən indiyədək keçilmiş yolun hər anına, hazırda xalqımızın bu mərhələni qiymətləndirdiyi alilik mərtəbəsinə daha şəffaf boyalarla rəng qatmasına ehtiyac var. “Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır”, - deyən dövlətimizin başçısının fəaliyyət çalarları zəngindir və qətiyyətlə bildirmək olar ki, bu zənginliyin çıxış nöqtəsi xalqın ona dərin inamı və etimadıdır.

İnam və etimaddan söz düşmüşkən, son günlərini yaşadığımız 2024-cü ildə keçirilmiş prezident və parlament seçkiləri möhkəm və güclü dövlət olmanın, monolitliyin təntənəsi kimi yadda qaldı. Bu təntənənin müəllifi İlham Əliyevdir. Hesab edirik ki, mövcud anlamda da dövlətimizin başçısı yaşadığı ömür yolunun ötən bir ili ilə fəxr edə bilər. Çünki xalqın inam və etimadı Azərbaycanın parlaq gələcəyi üçün təminatdır. Prezidentin sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışı zamanı səsləndirdiyi bu fikirlər isə həm təminata aydınlıq gətirir, həm də ölkəmizin parlaq gələcəyinin kənar qüvvələrin mənfi təsirindən qorunma müqavimətinin olduğunu təsdiqləyir: “30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf yoluna qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz”.

Güclü lider amilinin ayrı-ayrı xalqların və dövlətlərin yaşamına təsiri baxımından çox fikirlər səsləndirilib, maraqlı mülahizələr yürüdülüb. Müxtəlif nümunələr də var ki, onların hər biri lider fenomeninin xalqı öz arxasınca aparmaq xüsusiyyətlərini vurğulamaqdadır. Hesab edirik ki, bu mənada İlham Əliyev şəxsiyyəti ayrılıqda siyasi sistem qurucusudur. Çünki dövlətimizin başçısının lider obrazı özünü tarixi-siyasi, coğrafi şəraitdən asılı olmayaraq göstərir, milli dövlət anlayışını xalqımızın taleyinə biçilmiş hadisə kimi tərənnüm etdirir. Onun başçılıq etdiyi milli dövlət həm də dərin dövlətin özüdür. O dövlətin ki, illər sonraya hesablanmış kursa malikdir.

Prezident İlham Əliyev strateji kursdan irəli gələn hədəfləri reallığa çevirmənin obrazıdır. Bu obraz əsl möcüzə yaradır və yaratmaqda davam edir. Onun yaratdığı möcüzədə milli dövlətçilik tariximizin inkişaf mərhələlərinə sadiqlik də var, müasir dövrün müsbət xüsusiyyətlərinin mənimsənilməsi də. Başlıca halqa isə ənənələrimizin qorunmasıdır. İlham Əliyev şəxsiyyəti Azərbaycan xalqının malik olduğu ənənə və dəyərləri müasir dövlətçilik tariximizdə yaşatmaqla, ulu öndər Heydər Əliyevdən miras qalmış ictimai-siyasi sabitlik amilini inkişafın rəhninə, eyni zamanda, inkişafın təkanvericisinə çevirdi. Güc gələcəyin təminatıdır. Təminat isə qlobal rəqabət mühitində Azərbaycanın dünya nizamındakı



yerini möhkəmləndirir, rolunu və nüfuzunu artırır.

* * *

Siyasi müstəqillik, iqtisadi resurslardan səmərəli istifadə ilə ölkənin inkişaf etdirilməsi, innovativ sənaye, ordu quruculuğu və hərbi sənayenin yaradılmasına xüsusi diqqət ayrılması, üstəlik vətənpərvərlik təbliğatının aparılması. Hesab edirik ki, dövlətimizin başçısının fəaliyyətində bütün bu məsələlərə yanaşmada heyrətamiz proporsiya və balans var. Əminliklə deyə bilərik ki, İlham Əliyevli Azərbaycan dərin hərbi-siyasi, diplomatik və sosial-iqtisadi planlaşdırma ilə hərəkət edən mexanizmdir və bu mexanizmdə hər şey zərgər dəqiqliyi ilə hesablanıb.

İlham Əliyev liderliyi praqmatizm üzərində qurulub. Dövlətimizin başçısı hadisə və prosesləri dəqiq qiymətləndirir. Bu qiymətləndirmə üçün elmi cəhətdən əsaslandırılmış rasional həll yolları xarakterikdir, strateji inkişaf paradiqmaları son dərəcə dəqiqdir. Ən əsası, praqmatizmin qayəsində inkişafın Azərbaycan modeli dayanır. Elə bir model ki, yeni keyfiyyətlərlə zəngindir, məqsədyönlüdür və təkcə ölkəmizə deyil, bütövlükdə bəşəriyyətin inkişafına xidmət amalını seçir, dinamik tərəqqi uğrunda mübarizə əzmi aşılayır. Başqa sözlə desək, Prezident İlham Əliyevin yaratdığı inkişaf modeli praqmatizmi tərəqqinin silahına çevirir.

Azərbaycan tərəqqinin hədəfinin vətəndaş rifahı olduğu ölkədir. Bu cəhət müxtəlif beynəlxalq reytinqlərdə də fiksə edilmiş reallıqdır. İlham Əliyev şəxsiyyəti üçün vətəndaş rifahı həm də milli maraq və mənafelərin qorunmasında mühüm amildir. Azərbaycan güclü dövlət, güclü vətəndaş formulunu rəhbər tutur. Ona görə də sosial siyasət ölkəmizin liderinin idarəçilik fəlsəfəsinin məğzində dayanır. Axı, hər bir vətəndaşın layiqli həyat şəraitinin təminatı gerçəkləşməlidir. Nəzərə alaq ki, dünya kimi həyat şərtləri də dəyişir. Mövcud şəraitdə qarşıda duran başlıca vəzifə layiqli yaşamın adekvatlılığı prinsipinin qorunmasıdır. Bu prinsip insanların qarşılaşa biləcəkləri risklərdən ən etibarlı sığortadır. Prezident əbəs yerə bu fikri vurğulamır: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”.

Dövlət başçımızın yaratdığı idarəçilik sistemi sabit, mütəhərrik və çevikdir. Sistemin sadaladığımız xarakterini müəyyənləşdirən müstəsna cəhət isə islahatlardır. Əslində, dünya təcrübəsinə baxsaq, davamlı islahatlar heç də hər dövlətin və cəmiyyətin axarına müsbət təsir göstərmir. Görünür, həm də ona görə ki, adətən, islahat məntiqi böhranları aradan qaldırmanın, onlardan xilas olmanın vasitəsi kimi prioritet seçilir. İlham Əliyev lilderliyindəki islahata gəldikdə, bu, sistemin özünü yeniləməsi, sanki daxili tələbatdır. Daxili tələbat böhranlardan özünüqoruma immunitetidir. Çoxşaxəli və kompleks xarakterli islahatlar Azərbaycanın milli gücünün artması reallığını doğurmalıdır. Deməli, bütün sahələrdə tərəqqiyə xidmət edən ardıcıl, çoxşaxəli, kompleks islahatların həyata keçirilməsi, eyni zamanda, idarəçilik sisteminin çeviklik zəmanətidir. Heç nə təxirə salınmamalıdır. Çünki “geridə qalan atların güllələndiyi” zəmanədə yaşayırıq.

Prezident İlham Əliyevin uğur formulunu şərtləndirən ən mühüm məqamlardan biri də onun xalq-iqtidar vəhdətinə nail olmasıdır. Bu vəhdət ona görə var ki, yuxarıda sadaladığımız kimi, vətəndaşlarımız layiqli həyat şəraiti ilə təmin olunublar. Layiqli həyat isə təhlükəsizlik və sabitliklə həmahəngdir. Hər iki amil strateji maraqların gerçəkləşməsinə və dinamik inkişafın qorunmasına şərait yaradır. Nəticə etibarilə bu günün Azərbaycanında milli təhlükəsizliyin təhdid ünsürləri neytrallaşdırılıb, saat mexanizmli idarəçilik neqativ təmayülləri dərhal aşkara çıxarır və aradan qaldırır. Ən böyük nəticə isə Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminin güclü və nüfuzlu aktoruna çevrilməsidir. Dövlətimizin başçısı da vurğulayır ki, apardığımız siyasət bizə dünyada çox böyük hörmət və rəğbət qazandırıb.

* * *

Əminliklə deyə bilərik ki, müasir Azərbaycan özünün praqmatik kursu ilə dünyada və regionda balanslı siyasət nümunəsidir. Çünki İlham Əliyev liderliyindəki Azərbaycan balanslılıq düsturuna söykənərək hərəkət edir. Mövcud xüsusiyyət ölkəmizi cazibə mərkəzinə çevirib. Dünyanın güc mərkəzləri isə bu reallıqla hesablaşmağa, sadəcə, məhkumdurlar. Dövlətimizin başçısının siyasət meydanında böyüklüyünün vacib cəhətlərindən biri də elə budur.

Bu günün Azərbaycanı İlham Əliyevin yüksək səviyyədə həyata keçirdiyi siyasi kursun nəticəsində regionun siyasi, iqtisadi və humanitar mərkəzidir. Ölkəmiz, eyni zamanda, sivilizasiyalar və dinlərarası dialoq məkanıdır. Bu günün Azərbaycanı, həmçinin, qloballaşan dünyanın hegemon güc mərkəzlərinin də dialoq platforması kimi özünü təsdiqləmiş statusdadır.

Hesab edirik ki, bu statusun əldə edilməsində güc amilinin müstəsna payı var. Güc inamdan qanyaqlanır. Xalqın İlham Əliyev şəxsiyyətinə inamının nəticəsi idi ki, cəmi 44 gün ərzində düşməni diz çökdürdük, onu ağ bayraq qaldırmağa məcbur etdik. Ümumən, Vətən müharibəsi və ondan sonrakı mərhələ Prezident İlham Əliyevi xalqa və beynəlxalq aləmə tamamilə yeni və fərqli obrazda təqdim etdi. Həmin müddətdə dövlətimizin başçısı Ali Baş Komandan, mahir sərkərdə keyfiyyətləri ilə seçilməklə yanaşı, həm də hər bir azərbaycanlının doğmasına, güvənc yerinə çevrildi. Bu doğmalıqda sözübütöv əsl Azərbaycan kişisinin obrazı canlandı. İstər 44 günlük müharibə, istərsə də 23 saat 43 dəqiqəlik lokal antiterror tədbirləri göstərdi ki, Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına nəinki imkan verməyəcək, həmçinin bu xülyaya düşmək istəyənlərə qarşı barışmaz olacaq. Bəli, bu gün Xocalı qatilləri, Qarabağdakı separatçı rejimin təmsilçiləri Bakıda mühakimə olunurlar. Haqq və ədalət öz yerini tapır. Haqqımızı tarix kimi yazan da odur – “Azərbaycan” adlı gəminin kapitanı”, Prezident İlham Əliyev.

*Əvəz CAHANGİROĞLU*
*XQ*



# 21 illik yüksəliş marafonu yeni mərhələdə

(əvvəli 1-ci səhifədə)

Adıçəkilən tarixi sənədin davamı olaraq Prezident İlham Əliyev 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə 4 dövlət proqramı imzalayıb. Bu proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiya qoyulub və nəticəsdə regionların siması müasirləşib, əhalinin rifahı getdikcə yaxşılaşıb.

Ötən illər ərzində Ulu öndər Heydər Əliyevin neft strategiyası uğurla davam etdirilib. 2006-cı il iyulun 13-də dahi şəxsiyyətin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı olub və həmin ilin dekabrın 15-də “Şahdəniz” yatağında ilk quyu istismara verilib. Sonrakı illərdə “Ümid”, “Babək” və “Abşeron” yataqlarının kəşfi ilə Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğu təsdiqlənib. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açılıb. 2014-cü il sentyabrın 20-də isə Səngəçal terminalında “Cənub Qaz Dəhlizi” layihəsinin təməli qoyulub.

Prezident İlham Əliyevin gərgin fəaliyyəti və ardıcıl səyləri ilə Bakı –Tbilisi – Ceyhan neft kəmərindən sonra, Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yaradılıb. Bununla da dünyanın enerji xəritəsində yeni mənzərə formalaşıb. 2017-ci il sentyabrın 14-də isə Prezident İlham Əliyevin səyi ilə Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri – Çıraq – Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlayıb. Nəhayət, 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans – Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracı reallaşıb.

Belə irimiqyaslı neft və qaz layihələri ilə yanaşı, 2017-ci ildə Bakı–Tbilisi– Qars dəmir yolunun istismara verilməsi, 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və 2023-cü ildə Ələt Azad İqtisadi Zonasının açılışı ilə Azərbaycan və Bakı regionun ən böyük ticarət və logistika mərkəzinə, Şimal – Cənub, Şərq – Qərb və Orta Dəhliz nəqliyyat marşrutlarının mərkəzinə çevrilib. Həyata keçirilən geniş miqyaslı layihələr nəticəsində Azərbaycan regionda ən böyük mülki hava, Xəzər dənizində isə ən böyük dəniz yük donanmalarına malik ölkə kimi tanınıb.

Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti sayəsində Azərbaycan bu gün qlobal proseslərin mənfi təsirindən minimum itkilərlə çıxan azsaylı ölkələrdən biri olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına, investorların maraq mərkəzinə çevrilib.

Neft-qaz ölkəsi olan Azərbaycan hazırda “yaşıl” enerji növlərinin gerçəkləşdirilməsini və “yaşıl” enerjinin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlayır. Respublikamızda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, ölkəmizdə təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

## COP29-un tarixi nəticələri

Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) beynəlxalq aləmdə 2024-cü ilin ən nüfuzlu konfransı kimi dəyərləndirildi. Ötən ilin dekabrında, təxminən, 200 dövlətin yekdil qərarı ilə bu tədbirə ev sahibliyinin Azərbaycana həvalə olunması Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin və ölkəmizə çox böyük etimadın, yüksək inamın göstəricisi idi. “Yaşıl dünya naminə həmrəylik ili”ndə keçirilən COP29-un təşkili üçün cəmi 10 ay vaxt sərf edildi. Bu qısa müddətdə 70 mindən çox insanı qəbul etmək üçün şərait yaradıldı. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq uğurla reallaşdırıldı.

Azərbaycan COP29-a uğurla rəhbərlik etməsi ilə bir daha bütün dünyaya göstərdi ki, beynəlxalq aləmdə ciddi narahatlıq doğuran məsələlərin müzakirəsi üçün əlverişli məkan, ən mürəkkəb, genişmiqyaslı tədbirləri yüksək səviyyədə təşkil edə və zəruri nəticələrin gerçəkləşdirilməsinə dəyərli töhfələr verə bilən bir ölkə, ideal bir platformadır. Respublikamızda qurulan müasir infrastruktur, dövlətin təşkilatçılıq təcrübəsi və yüksək təhlükəsizlik təminatı bu nüfuzlu konfransın uğurla yekunlaşmasını şərtləndirən əsas amillər sırasında xüsusi diqqət çəkir.

COP29 bir sıra məqamları ilə yadda qaldı. Əvvəla bu iqlim konfransında taleyüklü məsələnin–iqlim dəyişikliyi ilə bağlı mübarizənin müzakirəsi aydın və hərtərəfli şəkildə gerçəkləşdirildi, ölkələrin daha səmərəli əməkdaşlığı istiqamətində gələcəkdə dəyərli layihələrin həyata keçirilməsinə imza atıldı, yeni dostluq, əməkdaşlıq, sülh körpülərinin qurulmasına əlverişli zəmin yaradıldı. Bütün bunlarla bərabər, xalqımızın qonaqpərvərliyi iqlim sessiyasının iştirakçılarında xoş təəssürat doğurdu.

Eyni zamanda, Azərbaycanın belə bir nüfuzlu konfransı yüksək səviyyədə keçirməsi, 76 min nəfərin heç bir problemlə üzləşmədən sessiyada fəal, səmərəli iştirakına əlverişli şərait yaradılması, onların məişət məsələlərinin diqqət mərkəzində saxlanılması ölkəmizin dünya siyasətinin ön cərgəsindəki mövqeyini daha da möhkəmləndirdi, beynəlxalq ictimaiyyətin respublikamıza olan hörmət və etimadını daha da gücləndirdi. Bütün bunlarla yanaşı, beynəlxalq ictimaiyyət iqlim konfransı ilə Azərbaycanın regionda sülh, inkişaf və əməkdaşlıq naminə yorulmaz fəaliyyətinin və bu istiqamətdə irəli sürdüyü dəyərli təşəbbüslərin şahidi oldu.

Azərbaycanın bu gün iqlim dəyişikliklərinə qarşı mübarizədə həyata keçirdiyi layihələr beynəlxalq aləmdə təqdir edilir və bu sahənin sürətli inkişafına yeni investisiyaların cəlbi ilə müşahidə olunur. Neft–qaz ölkəsi olan respublikamızda ətraf mühitin yaxşılaşdırılması ilə bağlı çağırışlara da yüksək səviyyədə reaksiya verilir. Belə ki, 2030-cu ilə qədər istilik effekti yaradan qazların həcminin ölkəmizdə 35 faizə qədər azaldılması nəzərdə tutulur. O cümlədən, sürətlə bərpaolunan enerji sahələri yaradılır və 2030-cu ilə qədər istehsal edilən elektrik enerjisinin 30 faizinin “yaşıl” enerji üzərinə keçirilməsi ilə bağlı könüllü öhdəlik diqqətdə saxlanılır. Bu məqsədlə günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı layihələr davamlı olaraq reallaşdırılır. Ölkəmizdə “yaşıl” enerji sahələrinin genişləndirilməsi ilə əlaqədar təcrübəsi olan dünyanın aparıcı şirkətləri ilə sazişlər imzalanır.

COP29-un yekununda qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşımaqla bərabər, Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha sübuta yetirdi. Rəsmi Bakı iki həftə davam edən qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantının dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatması üçün bütün qüvvəsini səfərbər etdi. BMT-nin Baş katibi Antonio Quterreş tədbirlə bağlı bəyanat verdi, COP29-da əldə olunmuş razılaşmanın iqlim dəyişikliyi ilə mübarizədə gələcək addımların əsasını qoyduğunu, qlobal istiləşməni 1,5°C-də saxlamaq məqsədini qorumaq üçün həyati əhəmiyyət daşıdığını bildirdi.



## Qarabağ cənnətə çevrilir

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən salınması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığın təmin olunmasına xidmət edir.

Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. Yaxın 3 ildə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisinə çevrilir.

Qarabağ və Şərqi Zəngəzurda salınan “ağıllı kənd”lərdə “ağıllı” texnologiyalardan istifadə edilir. “Yaşıl” enerjidən istifadə olunmaqla kanalizasiya təmizləmə qurğuları quraşdırılır. Bütün növ qənaətli texnologiyalar “ağıllı kənd” konsepsiyası çərçivəsində tətbiq edilir. Evlərin inşası zamanı təbii materiallardan, “smart” texnologiyaların istifadə olunur.

Hazırda işğaldan azad edilən ərazilərdə ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Bütün bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Erməni faşizmi tərəfindən tamamilə dağıdılan iqtisadiyyatın qurulması üçün iqtisadi fəaliyyətin canlanması sürətləndirilir və əlverişli biznes mühitinin formalaşdırılması təmin edilir.

## İqtisadi inkişafın Azərbaycan modeli

Son 21 ildə iqtisadi artım dinamikasına dair rəqəmlər Azərbaycanın inkişaf mənzəsi haqqında aydın təsəvvür yaradır. Belə ki, “Güclü iqtisadiyyat ən önəmli şərtdir” deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM), təxminən, 4 dəfə artıb. Dövlət başçısının iqtisadiyyatın şaxələndirilməsi çağırışı istiqamətdə görülən işlər nəticəsində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfəyə yüksəlib.

Bu il də Azərbaycan iqtisadiyyatı üçün gözləntilər, əldə edilmiş nəticələr və iqtisadi göstəricilər dövlətimizin başçısının proqnozlarını doğruldub. Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxışı zamanı bu məsələyə toxunaraq il ərzində Azərbaycanın iqtisadi artım templərinin inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələdiyini vurğulayıb. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət nəticəsində 2024-cü ilin 11 ayında iqtisadi artım 4,1 faiz təşkil edib, o cümlədən, qeyri–neft sektoru 6,4 faiz artıb. Ölkənin strateji valyuta ehtiyatları 72 milyard ABŞ dollarını ötüb. Azərbaycanın birbaşa xarici dövlət borcu ÜDM-in cəmi 7,3 faizini təşkil edir. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Xarici investisiyaların ölkəmizə, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Ənənəvi sənaye mərkəzlərimizdə, sənaye parklarımızda yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parkları yaradılır.

Azərbaycan son 1 ildə valyuta ehtiyatlarını 13 faizə yaxın artırıb. Bu il oktyabrın 1-nə respublikamızın strateji valyuta ehtiyatları 73 milyard 493,4 milyon ABŞ dolları təşkil edib. Bunun 83,95 faizi və yaxud 61 milyard 697,6 milyon ABŞ dolları Dövlət Neft Fondunun, 16,05 faizi və yaxud 11 milyard 795,8 milyon ABŞ dolları isə Azərbaycan Mərkəzi Bankının payına düşüb.

Bu il oktyabrın 1-nə Dövlət Neft Fondunun vəsaitləri ilin əvvəlinə nisbətən 10 faiz artaraq 61 milyard 697,6 milyon ABŞ dolları təşkil edib. Məlumata görə, yanvar–sentyabr aylarında fondun büdcə gəlirləri 15 milyard 4 milyon manat, xərcləri isə 9 milyard 634,5 milyon manat olub.

Hesabat dövründə fond 2024-cü il büdcəsinin icrası çərçivəsində 9 milyard 585,8 milyon manat vəsaiti dövlət büdcəsinə transfert edib, “2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”-nın maliyyələşməsinə 18 milyon manat, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı” nın maliyyələşməsinə isə 10,8 milyon manat yönəldib.









***V.BAYRAMOV***
***XQ***

# Azərbaycanın dini maarifləndirmə örnəyi

## *İnanc siyasi alətə çevriləndə ekstremizmə, məzhəbçiliyə yol açır, sülhə təhdid yaradır*



**Son illər Bakı müxtəlif konfessiyaları bir araya gətirən nüfuzlu forum və konfranslara, sivilizasiyalararası və dinlərarası dialoqa layiqli töhfə verən beynəlxalq tədbirlərə evsahibliyi edib. Azərbaycan paytaxtında “Bakı Prosesi” kimi tanınan, mədəniyyətlər arasında dialoqu təşviq edən çeşidli forumlar keçirilib. Cari ilin noyabr ayında BMT-nin COP29 iqlim konfransı çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Müsəlman Ağsaqalları Şurası, Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Dini Liderlərin Qlobal Sammitinin məhz Bakıda baş tutması təsadüfi deyildi.**

Dünən Bakıda “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Azərbaycan din xadimlərinin Forumu öz işinə başlayıb. “Ayrı-ayrı dini etiqad və inanclara mənsub icmaların əmin-amanlıq şəraitində yaşadığı Azərbaycanda tarixən qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni münasibətlər sistemi formalaşıb. Yüz illərlə nümunəvi tolerantlıq ənənələrinin mövcud olduğu ölkəmizdə heç vaxt dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməyib”. Bu fikirlər Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciətdə yer alıb. Müraciəti Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub. Dinin cəmiyyət həyatında yerinin və rolunun düzgün qiymətləndirilməsi məsələsinin vacibliyinə diqqət çəkən dövlət başçısımız müraciətində bu sahədə din xadimlərinin üzərinə böyük vəzifələr düşdüyünü vurğulayıb: “Mənəvi-əxlaqi tərbiyə işinin təkmilləşdirilməsi, dini təhsil və maarifləndirmə istiqamətində fəaliyyətin gücləndirilməsi günümüzün zəruri məsələlərindəndir”.

Yeri gəlmişkən, dünya dini liderlərini bir araya gətirmək kimi nəcib təşəbbüslər məkanına çevrilən Bakının bu gün mədəniyyətlərarası əməkdaşlığın və dialoqun daha geniş miqyas almasında danılmaz xidmətləri var. Bunun təsadüfi olmadığını diqqətə çatdıran dövlətimizin başçısı forum iştirakçılarına müraciətində bu fikri xüsusi olaraq vurğulayıb: “Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, zəngin multikulturalizm dəyərlərinin təbliği və təşviqi dövlət siyasətimizin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə din siyasəti demokratik, hüquqi, dünyəvi dövlətçilik prinsiplərinə və beynəlxalq normalara uyğun həyata keçirilir. Biz bu təcrübəni ictimai-siyasi sabitliyin və həmrəyliyin vacib amili kimi qiymətləndiririk”.

* * *

“Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda keçirilən Azərbaycan Din Xadimlərinin Forumunun iştirakçıları dekabrın 22-də Heydər məscidində vəhdət namazı qılıblar. Dövlətimizin və xalqımızın tolerantlıq, multikultural dəyərləri qoruyub saxlamasının, bu dəyərlərə dərin hörmətinin ifadəsi sayılan vəhdət namazında respublikamızın müxtəlif bölgələrindən gəlmiş 100-ə yaxın din xadimi iştirak edib. Azərbaycanda yaşayan müxtəlif məzhəblərə mənsub insanların vahid məkanda, eyni sırada düzülərək ibadət etmələri faktının özü ölkəmizdə dövlət tərəfindən həyata keçirilən tolerantlıq və multikulturalizm siyasətinin bəhrəsi sayılmalıdır. Qürurla qeyd etməliyik ki, vəhdət namazının məhz ulu öndər Heydər Əliyevin adını daşıyan məsciddə qılınması nəinki ölkəmizdə, eləcə də bütün dünyada xoşniyyətli gözəl bir ənənənin əsası qoyulub. Həqiqətən də Azərbaycan müxtəlif coğrafiyaların və sivilizasiyaların qovuşduğu, əsrlər boyu milli-mədəni rəngarənglik və tolerantlıq mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq içində, qarşılıqlı etimad və hörmət şəraitində birgə yaşaması dünyada nadir nümunələrdən sayılır.

Forum iştirakçıları əvvəlcə Azərbaycan ərazisindəki dini ibadət yerləri, ziyarətgahlar, qəbiristanlıqlar, ixtisaslaşdırılmış satış məntəqələri, ölkədə fəaliyyət göstərən din xadimləri haqqında informasiya bazasının sistemləşdirilmiş formada toplandığı vahid elektron xidmətlər portalı olan AMIN (Azerbaijan Multicultural Information Network) layihəsinin videotəqdimatını seyr ediblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov çıxışında qeyd edib ki, Azərbaycan müxtəlif etnik və dini icmaların birgə yaşadığı, ortaq dəyərləri bölüşdüyü, sivilizasiyalar arasında mənəvi körpü rolu oynayan nadir məkandır. Komitə sədri ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət-din münasibətləri modelinin tarixi ənənələrə və ümumbəşəri dəyərlərə istinad etdiyini nəzərə çatdırıb. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasətin mərkəzində dini, etnik mənsubiyyətin deyil, insan amilinin dayandığını vurğulayan R.Məmmədov bildirib ki, dövlətimizi güclü edən əsas amillərdən biri, heç şübhəsiz, multikultural ənənələrimizlə yanaşı, milli-mənəvi dəyərlərimizi qorumağımızdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, dünyanın gərgin siyasi mənzərəsi fonunda Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bu, Azərbaycan Prezidentinin müdrik daxili və uzaqgörən xarici siyasətinin bəhrələridir. Dini-mənəvi sahədə uğurlarımız dövlətimizin dünyaya örnək multikultural siyasi xətti, dinlərarası əməkdaşlıq, məzhəblərarası anlaşma mühiti ilə bağlıdır. Şeyxülislam bildirib ki, dövlətimizin başçısının qlobal ideya və bəşəri həmrəyliyə xidmət edən müdrik təşəbbüslərinin təbliği yönündə din xadimlərinin fəallığı, cəmiyyətin həyatında yaxından iştirakı önəmli məsələlərdəndir.

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədovun sözlərinə görə, Azərbaycan bütün dünyaya həm dini tolerantlıq, həm də multikulturalizmin mərkəzi kimi təqdim edilir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə, xüsusilə suverenliyin və ərazi bütövlüyünün tam təmin olunması ilə tarixi nailiyyətlər əldə edilmiş, həmçinin din və əqidə məsələlərində mühüm dəyişikliklər baş verib. Əli Əhmədov bu reallıqlar fonunda dini baxışların və insanların dinə münasibəti sayəsində Azərbaycanın transformasiya dövrünü yaşadığını diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli çıxışında qeyd etdi ki, bu gün dünyada gedən proseslər aydın şəkildə göstərir ki, sabitliyin və mənəvi kamilliyin təmin olunmasının əsas amilləri içərisində din xüsusi əhəmiyyətə malikdir. Azərbaycanda dini sahədə qanunvericilik bazasının təkmilləşdirilməsinin vacibliyindən danışan İ.Həbibbəylinin sözlərinə görə, cəmiyyətdə dini maarifləndirmə işi elmi əsaslara söykənməsə, fanatizmə və digər meyillərə yönləndirmə, milli-mənəvi dəyərlər sferasından yayınma müşahidə oluna bilər. O, son illər bu sahədə atılan addımlar Azərbaycanda dini maarifləndirmənin yeni mərhələsinin başlanğıcından xəbər veridiyini bildirdi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, dünyanın coğrafi, geosiyasi, iqtisadi, xüsusilə də insan resursları ilə zəngin olan əhəmiyyətli bir coğrafiyasında yerləşən Azərbaycanın milli-mənəvi və dini-mədəni irsi qədim tariximizə və ənənələrimizə söykənir. Ölkəmizdə müxtəlif dinlər və konfessiyalara məxsus xalqlar və etnik qruplar daim sülh şəraitində yaşayıb və bu əsasda formalaşmış birgəyaşayış modelinin özünəməxsus unikallığı qorunub saxlanılıb.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov dini maarifləndirmənin vacib məsələlərdən olduğunu qeyd edərək deyib: “Həyatı dərk etmək üçün üç yol var. Birincisi elm, ikincisi incəsənət, üçüncü isə dindir”. O, təhsil proqramlarında daha çox humanizmə diqqət yetirildiyini qeyd edib. “Məktəblərdə keçirilən həyat bilgisi, tarix və digər fənlərdə bu mövzular ətraflı öyrənilir. Həmçinin multikulturalizm fənni də tədris olunur. Bu, Azərbaycanda dinlərə olan münasibətin təzahürüdür”, – deyə nazir müavini diqqətə çatdırıb.

Sonra forum işini panel iclaslarla davam etdirib. “Dünyəvi dövlətdə dini təhdidlər: siyasi-ideoloji baxış”, “Qadın hüquqlarının həyata keçirilməsində din amilinin rolu”, “Azərbaycan multikulturalizmi: təcrübə, ənənə və müasir çağırışlar”, “Dünyəvi dövlətdə dini təhsil modelləri: nəzəriyyə və praktika” mövzularında təşkil edilən panel iclaslarda çıxış edənlər öz fikir və mülahizələrini bölüşüblər.

Tədbirin sonunda forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

* * *

Bizim nə milli təfəkkürümüzdə, nə də qan yaddaşında başqa xalqlara, inanclara dözümsüzlük təcrübəsi var. Azərbaycan xalqı kimi onun dövləti də dini və etnik mənsubiyyətindən asılı olmayaraq, ərazisində yaşayan bütün vətəndaşlarına qucaq açan, onları hər cür təhlükədən qoruyan dövlətdir. Vətəndaşlarımız öz gələcəklərini tolerant bir cəmiyyətdən kənarda təsəvvür etmirlərsə, deməli, bu, milli həmrəyliyin əlamətidir. Bu gün Azərbaycan həm də bu reallığı yaratması ilə fəxr edə bilər. Elə daxildə mövcud sabitliyi şərtləndirən əsas amillərdən biri də budur.

Amma əldə etdiyimiz uğurlar arxayınlaşmağa dəlalət etməməli, biz heç zaman üzləşə biləcəyimiz kənar ideoloji təhdidləri unutmamalıyıq. Din xadimlərinin dövlət qurumları ilə birgə fəaliyyətinin qayəsini məhz bu istiqamətdə maarifləndirmə işlərinin aparılması təşkil etməlidir. Bakıda öz işini uğurla başa vuran “Dini maarifləndirmənin aktual məsələləri: ənənə, təcrübə və perspektivlər” mövzusunda Forumu bu nəcib niyyətin, savab işin reallaşması yollarını müəyyənləşdirmiş oldu.

***Hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Ermənistan–Fransa–Hindistan hərbi alyansında yunan izi

**(əvvəli 1-ci səhifədə)**

Rəsmi İrəvanın silah tədarükü üçün üz tutduğu ünvanlardan biri də Yunanıstan və Afinanın çox yaxın müttəfiqi olan Kipr Respublikası, yaxud Cənubi Kiprdir. Bu yaxınlarda Ermənistan Yunanıstan və Cənubi Kiprlə üçtərəfli hərbi əməkdaşlıq proqramı imzalayıb. Daha doğrusu, 2023-cü ildə S.Papikyanın Afinaya səfəri zamanı iki ölkə arasında imzalanmış hərbi-texniki əməkdaşlıq haqqında sazişə bu il Cənubi Kipr də qoşulub.

Qeyd edək ki, Ermənistan–Yunanıstan hərbi əməkdaşlıq proqramı Afina və İrəvan arasında təmasları xeyli intensivləşdirib. Bu ilin fevralında Nikol Paşinyanın Afinaya səfərindən sonra Yunanıstanın müdafiə naziri Nikolaos Dendias İrəvana səfər etmişdi. O, səfər zamanı S.Papikyanla birgə keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Afina Ermənistana hərbi dəstək vermək üçün Fransa və Hindistanla birgə fəaliyyət göstərməyi istisna etmir. Nazir, həmçinin Ermənistan–Fransa–Yunanıstan–Kipr–Hindistan çoxtərəfli hərbi əməkdaşlığının qurulmasını da istisna etmədiyini demişdi: “Bizim Kiprlə birgə uğurlu üçtərəfli müdafiə tərəfdaşlığımız var. Amma Fransa və Hindistanla başqa dördtərəfli, beştərəfli tərəfdaşlıq da mümkündür. Onlar həm Ermənistana, həm də Yunanıstana ortaq dost olan mühüm ölkələr, mühüm güclərdir”. Yunan nazir bununla da beştərəfli hərbi ittifaqın yaradılmasını ideyasının anonsunu vermişdi. Bu mənada yeni silah tədarükçülərinin peyda olması fonunda Ermənistanın militarizasiyasını gələcəkdə daha da artıracağını demək mümkündür. Yola salmağa hazırlaşdığımız ilin əvvəlində S. Papikyan ölkəsinin İctimai televiziyasına müsahibəsində Ermənistanın silah tədarükü sahəsində “ciddi uğurlar” qazandığını bəyan etmişdi: “Biz bu prosesdə həm böyük dövlətlər, həm də digər dost ölkələr səviyyəsində yeni tərəfdaşlar əldə etmişik. Söhbət Fransa və Hindistandan gedir, amma hələlik danışmaq istəmədiyim digər tərəfdaşlardan da bəhs edirik”.

Ermənistan müdafiə nazirinin sözləri bir daha təsdiq edir ki, Paşinyan iqtidarının sülhə hazır olması ilə bağlı bəyanatları yalandan başqa bir şey deyil. İrəvan bu bəyanatların əksinə olaraq, fəal şəkildə silahlanır və revanşist planlar qurur.

* * *

Qeyd edək ki, Ermənistanın sürətlə silahlanması məsələsinə rəsmi Bakı dəfələrlə münasibət bildirib. Azərbaycan rəhbərliyi bunun region, o cümlədən Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini açıq mətnlə dilə gətirib. Sonuncu dəfə dekabrın 17-də “Rossiya-1” televiziya kanalında “Vesti nedeli” proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibəsində Prezident İlham Əliyev bu barədə bir daha danışdı. Dövlətimizin başçısı bildirdi ki, Ermənistanın silahlandırılması birbaşa təhlükə deməkdir: “Biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarıda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq”.



Prezident İlham Əliyev qeyd etdi ki, təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var: “Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, – hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, – ABŞ isə bunu etiraf etmir”.

Ancaq görünən odur ki, Ermənistan rəhbərliyi bu xəbərdarlıqlardan nəticə çıxarmır və militarist siyasətini davam etdirir. Eyni zamanda, Paşinyan iqtidarı onları silahlandıran dövlətlərin Ermənistandan bir vasitə kimi istifadə etdiyini nəzərə almır. Söhbət ondan gedir ki, Hayastana silah ixrac edən hər bir ölkə strateji əhəmiyyətə malik bu regionda ilk növbədə öz maraqlarını güdür. Məsələn, Fransa Ermənistanı yalnız Cənubi Qafqazda öz məqsədlərinə çatmaq üçün silahlandırır. Xüsusilə nəzərə almaq lazımdır ki, Parisin Afrika qitəsində yürütdüyü siyasət biabırçı uğursuzluğa düçar olub. Emmanuel Makron iqtidarı hazırda bu boşluğu Ermənistan vasitəsilə Cənubi Qafqazda doldurmağa çalışır. Hindistan da Ermənistanı silahlandırmaqla regionda öz geosiyasi məqsədlərini həyata keçirir. Nyu–Dehli Pakistana müqavimət göstərməyə, Avropa və Asiya bazarlarına çıxışını genişləndirməyə çalışır. Cənubi Asiya dövləti paralel olaraq Türkiyə ilə ciddi fikir ayrılıqlarına malik Yunanıstanla da hərbi əməkdaşlığı genişləndirir. Ölkənin baş naziri Narendra Modinin 2023-cü ilin avqustunda Afinaya birgünlük rəsmi səfəri zamanı Hindistan mediası bu hadisənin “Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyən Türkiyə üçün mühüm siqnal” olacağını yazmışdı. Eyni zamanda, “Financial Express” qəzeti Hindistanın Türkiyə–Pakistan–Azərbaycan müttəfiqliyinə alternativ olaraq Ermənistan və Yunanıstanın iştirakı ilə yeni güc mərkəzi yaratmaq planlarından xəbər vermişdi.

* * *

**Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik Şair Ramaldanov** mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, son illərdə, xüsusilə son iki ildə Ermənistanın intensiv şəkildə silahlandırılması prosesi gedir. Onun sözlərinə görə, silahlanma prosesi həm birbaşa, həm də hərbi-texniki əməkdaşlıq adı altında həyata keçirilir. İrəvanın havadarları bu prosesi Ermənistanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsi adı altında icra edirlər: “Ancaq bunun alt qatında başqa məqsədlər dayanır. Ermənistanı silahlandıranlar onun siyasətinə təsir edə bilən dövlətlərdir. Bu addım ilk növbədə region üçün təhlükəlidir. Digər tərəfdən onlar Azərbaycana qarşı revanş xarakterli hansısa addım atmaq istəyirlər. Bundan sonra beynəlxalq qurumlar Ermənistanın havadarlarına uyğun olaraq qətnamələr çıxaracaq. Həmin qətnamələr isə İrəvanı silahlandıran qüvvələrə bölgədə öz maraqlarını təmin etmək üçün “hüquqi əsas” verəcək. Burada lokomotiv rolunda Fransa çıxış edir. Eyni zamanda, burada ABŞ-nin də maraqlarını qeyd etmək lazımdır. Onların səyləri nəticəsində gələcəkdə burada Ukrayna münaqişəsinə bənzər münaqişənin yaranacağı istisna edilmir”.



Ermənistanı silahlandıran ölkələrin coğrafiyasının genişləndiyini vurğulayan Ş.Ramaldanov Fransa, Hindistan kimi ölkələrlə yanaşı siyahıya Cənubi Koreyanın, Yaponiyanın, Yunanıstanın, Cənubi Kiprin də daxil olduğunu vurğuladı: “Yəni, biz bu ölkələri nəzərdən keçirdikdə görürük ki, onlar həm Azərbaycana, həm də bölgəmizə dost olmayan dövlətlərdir. Əlbəttə, dost olmayan ölkələrin regionda öz maraqlarını təmin etmələrinin və çirkin əməllərini həyata keçirmələrinin bölgənin inkişafına bilavasitə mənfi təsir göstərəcəyi istisna olunmur”.

Müsahibimiz qeyd etdi ki, Ermənistan rəhbərliyinin silah aldığı ölkələrin siyahısını genişləndirməsinin siyasi səbəbi də var: “Rəsmi İrəvan göstərmək istəyir ki, onları dəstəkləyən ölkələr çoxdur. Ermənistan bu gün Azərbaycana dost olmayan qüvvələri öz ətrafında cəmləşdirərək ölkəmizə hansısa təzyiqlər göstərməyə çalışır. Ancaq buna baxmayaraq, Azərbaycan ordusu ölkənin ərazi bütövlüyünü, suverenliyini və milli maraqlarını təmin etməyə qadirdir. Bu gün ordumuz yüksək döyüş qabiliyyətinə malik ordu kimi bütün dünyada qəbul edilir. Beynəlxalq hesabatlarda Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasında olduğu artıq neçənci dəfədir ki, öz əksini tapır”.

Ş.Ramaldanov onu da bildirdi ki, buna baxmayaraq, Azərbaycan Ermənistanın silahlandırılması prosesini daim nəzarət altında saxlamalıdır: “Müharibə şəraitində olmağımız səbəbindən Ermənistanın bizə təhlükə yaradacaq hər hansı hərbi infrastrukturu və ya obyekti Azərbaycan Ordusu üçün legitim hərbi hədəf kimi qiymətləndirilə bilər. Digər tərəfdən, beynəlxalq qanunlara görə, əgər bir ölkənin silahlanması digərinə təhlükə yaradarsa, həmin dövlətin bu prosesin qarşısını almağa haqqı çatır. Bu gün Azərbaycanın artan hərbi büdcəsi Ermənistana və onun havadarlarına məqsədlərinə çatmağa imkan verməyəcək. Digər tərəfdən Prezident İlham Əliyevin müsahibəsində bildirdiyi kimi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Yəni, onlar hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərinin nəticələrini unutmamalıdırlar. Azərbaycanın “dəmir yumruğ”u daim hazır vəziyyətdədir. İrəvanı silahlandıran ölkələr bilməlidirlər ki, Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünü və suverenliyini istənilən xarici təhlükədən, o cümlədən Ermənistanın revanşist niyyətlərindən qorumağa hər zaman qadirdir”.

***Səxavət HƏMİD***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Biznesinin İnkişafı Fondunun vəsaitindən istifadə QAYDASI

**1. Ümumi müddəalar**

1.1.Bu Qayda Azərbaycan Biznesinin İnkişafı Fondunun (bundan sonra – Fond) vəsaitindən istifadənin təşkilati və hüquqi əsaslarını müəyyən edir.

1.2.Fondun vəsaiti Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri çərçivəsində Fondun Müşahidə Şurasının müəyyən etdiyi prioritet sahələrə, o cümlədən qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə maliyyələşdirilmə və ya təminat mexanizmləri vasitəsilə (bundan sonra – dəstək mexanizmləri) sahibkarlığın inkişafına yönəldilir.

1.3.Fondun dəstək mexanizmləri aşağıdakı formalarda həyata keçirilir:

1.3.1.sahibkarlıq subyektlərinə müvəkkil təşkilatlar vasitəsilə güzəştli kreditlərin verilməsi (yalnız bank və bank olmayan kredit təşkilatları vasitəsilə) və güzəştli şərtlərlə digər maliyyələşdirmə;

1.3.2.Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilən hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyasının verilməsi;

1.3.3.“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 8.1.1-ci, 8.1.2-ci və 8.1.5-ci maddələrində göstərilmiş formalarda ölkə daxilində, eləcə də ölkə xaricində yerli biznesin inkişafı ilə əlaqəli olan istiqamətlərdə investisiya qoyuluşu şəklində maliyyələşdirmə.

1.4.Aşağıdakıları əhatə etməklə, bu Qaydanın 1.3.1-ci və 1.3.3-cü yarımbəndlərində nəzərdə tutulmuş dəstək mexanizmlərinin həyata keçirilməsi qaydasını bu Qaydanın tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir:

1.4.1.maliyyələşdirmənin və investisiya qoyuluşunun təfərrüatlı şərtlərini (o cümlədən müddəti və məbləği), onlarla əlaqədar müraciət edilməsi və müraciətə baxılma qaydasını;

1.4.2.maliyyələşdirmə və investisiya qoyuluşundan imtina hallarını, ayrılmış vəsaitin geri qaytarılması, habelə müvəkkil təşkilatlar tərəfindən Fond qarşısında öhdəliklər icra edilmədikdə görüləcək tədbirləri;

1.4.3.hesabatların və məlumatların təqdim edilməsi müddətini və qaydasını.

1.5.Bu Qaydanın 1.3.2-ci yarımbəndində nəzərdə tutulmuş dəstək mexanizminin həyata keçirilməsi qaydası Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilir.

**2. Əsas anlayışlar**

2.1.Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1.müvəkkil təşkilat – Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun fəaliyyət göstərən, Fondun dəstək mexanizmləri üzrə sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinə vasitəçilik edən və Fondla əməkdaşlıq müqaviləsi bağlayan hüquqi şəxs (bank, bank olmayan kredit təşkilatı, lizinq, faktorinq və investisiya fəaliyyətini həyata keçirən kommersiya hüquqi şəxsləri);

2.1.2.əməkdaşlıq müqaviləsi – Fondun dəstək mexanizmlərinin həyata keçirilməsi üzrə Fondla müvəkkil təşkilatlar arasında ümumi şərtləri müəyyən edən saziş.

2.2.Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**3. Dəstək mexanizmlərinin həyata keçirilməsi**

3.1.Müvəkkil təşkilatlar vasitəsilə dəstək mexanizmləri aşağıdakı qaydada həyata keçirilir:

3.1.1.Fond dəstək mexanizmlərinin tətbiqi məqsədilə bu Qaydanın 5-ci hissəsində nəzərdə tutulmuş tələblərə uyğun olaraq seçilmiş müvəkkil təşkilatlarla əməkdaşlıq edir;

3.1.2.bankların Fonddan cəlb etdikləri vəsaitlərin ümumi məbləğinin qalığı onların məcmu kapitalının, digər təşkilatların isə kapitalının (xalis aktivlərinin) 100 faizindən çox ola bilməz;

3.1.3.müvəkkil təşkilat Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsində nəzərdə tutulmuş ona aidiyyəti şəxs olan sahibkarlıq subyektlərinə münasibətdə Fondun dəstək mexanizmlərinin həyata keçirilməsində iştirak edə bilməz.

3.2.Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və digər qarşısıalınmaz qüvvə (fors-major hadisə), eləcə də şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə bağlı Fondun Müşahidə Şurasının müəyyən etdiyi qaydada Fond qarşısındakı öhdəliklərin restrukturizasiyası (öhdəliyin icrasına möhlət verilməsi) həyata keçirilə bilər.

3.3.İnvestisiya qoyuluşu formasında maliyyələşdirmə bu Qaydanın 1.3.3-cü yarımbəndinə uyğun olaraq hüquqi şəxslərin yaradılması və yenidən təşkili, hüquqi şəxslərdə iştirak paylarının (səhmlərin) əldə edilməsi, investisiya fəaliyyətinin həyata keçirilməsinə dair müqavilə bağlanılması vasitəsilə həyata keçirilir.

**4. Fondun vəsaitinin ayrılması və ondan istifadə**

4.1.Fondun dəstək mexanizmləri üzrə layihələr Fondun Müşahidə Şurası tərəfindən müəyyən edilən qaydada ekspertizadan keçirilir. Ekspertizanın nəticəsindən asılı olaraq, Fond layihələrin təmin olunmasına və ya onlardan imtina edilməsinə dair qərar qəbul edir.

4.2.Fondun fəaliyyətindən əldə olunmuş gəlirdən (faiz, cərimə, dividend və s.), həmin gəlirin Fondun saxlanılması xərclərinə ayrılan hissəsi istisna olmaqla, yenidən bu Qaydanın 1.2-ci bəndində nəzərdə tutulmuş məqsədlər üçün istifadə olunur.

**5. Müvəkkil təşkilatlara dair tələblər**

5.1.Fondun dəstək mexanizmlərinin həyata keçirilməsində iştirak üçün müvəkkil təşkilatlara dair aşağıdakı tələblər müəyyən edilir:

5.1.1.müvəkkil təşkilatın 3 (üç) illik fəaliyyət təcrübəsinin olması;

5.1.2.müvəkkil təşkilatın son 2 (iki) maliyyə ili ərzində mənfəətlə fəaliyyət göstərməsi.

5.2. Müvəkkil təşkilatların seçilməsi meyarları Fondun Müşahidə Şurası tərəfindən təsdiq edilir.

5.3. Maliyyə bazarlarına nəzarət orqanının məcmu kapitalın məbləği, məcmu kapitalın adekvatlıq əmsalı, leverec əmsalı və ani likvidlik əmsalı üzrə müəyyən etdiyi normativlərin tələblərini pozan banklar, nizamnamə kapitalının məbləği üzrə müəyyən etdiyi normativlərin tələblərini pozan bank olmayan kredit təşkilatları və nizamnamə kapitalının məbləği, kapitalın adekvatlıq əmsalı, aktiv və öhdəliklərin ödəniş müddətlərinin uyğunluğu üzrə müəyyən etdiyi normativlərin tələblərini pozan kredit ittifaqları Fondun müvəkkili ola bilməzlər.

**6.Müvəkkil təşkilatlara limit ayrılması**

6.1.Hər bir müvəkkil təşkilat üçün Fondun Müşahidə Şurasının müəyyən etdiyi qaydada limit müəyyən edilir.

6.2.Müvəkkil təşkilat tərəfindən istifadə edilməmiş limit azaldıla və ya ləğv edilə bilər.

**7. Hesabatlılıq və monitorinq**

7.1.Fond bu Qaydanın 1.3.1-ci və 1.3.3-cü yarımbəndlərində nəzərdə tutulmuş dəstək mexanizmləri üzrə ayrılmış vəsaitdən təyinatı üzrə istifadə edilməsinə nəzarət məqsədilə sahibkarlıq subyektlərində ilkin, növbəti və növbədənkənar monitorinqlər apara bilər.

7.2.Müvəkkil təşkilat sahibkarlıq subyektlərinin monitorinqini aparır və Fonda hesabat verir.

7.3.Müvəkkil təşkilatla sahibkarlıq subyekti arasında bağlanılan müqavilədə sahibkarlıq subyektinin fəaliyyətində şəffaflığın təmin edilməsi ilə bağlı tələblər, o cümlədən Fond tərəfindən monitorinq keçirilməsi üçün şərait yaratmaq, habelə vəsaitdən istifadə üzrə tələb olunan sənədləri və məlumatları təqdim etmək öhdəliyi nəzərdə tutulmalıdır.

## Azərbaycanın XİN rəhbəri Serbiyada



**Dekabrın 23-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Aleksandar Vuçiç tərəfindən qəbul edilib.**

Görüş zamanı iki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə olunub, qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb, ikitərəfli strateji tərəfdaşlıq münasibətləri, eləcə də regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan və Serbiya tərəfindən hər zaman qarşılıqlı şəkildə ərazi bütövlüyü və suverenliyə göstərilən davamlı dəstəyin təqdirəlayiq olduğunu bildiriblər.

Ölkəmizi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına uğurlu evsahibliyi münasibətilə təbrik edən Prezident Vuçiç COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla xatırlayıb.

***

**Dünən Ceyhun Bayramov Serbiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin Baş naziri Milos Vuçeviç ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və Serbiya arasında ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan və Serbiya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişafında ali və yüksək səviyyəli səfər və təmasların əhəmiyyətini qeyd edib, bu sahədə mövcud dinamikanın qorunmasının vacibliyini vurğulayıb.

İki ölkə arasında xüsusilə iqtisadi-ticari əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın vacib platforma olduğu qeyd edilib. Energetika sahəsində əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə olunub, münasibətlərin perspektivlərinə toxunulub.

***

**Həmin gün Ceyhun Bayramov Serbiya Respublikasına işgüzar səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının sədri Ana Brnabiç ilə görüşüb.**

Söhbət zamanı parlament diplomatiyasının əhəmiyyətini nəzərə alaraq, ikitərəfli əsasda, o cümlədən beynəlxalq parlament platformaları çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacib olduğu qeyd edilib. Bu xüsusda eyni zamanda, ölkələrimizin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının işi təqdir olunub.

Serbiyanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi birmənalı dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür edilib, Serbiyanın ölkəmizlə qarşılıqlı hörmət əsasında əməkdaşlığın inkişafından məmnunluq duyduğu diqqətə çatdırılıb. Həmçinin beynəlxalq təşkilatlarda, BMT-də və Avropa Şurasında qarşılıqlı dəstəyə görə təşəkkür ifadə olunub.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Serbiyanın dəvəti əsasında işgüzar səfəri çərçivəsində bu ölkənin səfirlər müşavirəsində iştirak və çıxış edib.**

Nazir Azərbaycan–Serbiya strateji tərəfdaşlığının siyasi, iqtisadi, enerji, humanitar aspektlərindən, ölkələrimizi birləşdirən ümumi çağırışlar, eləcə də təhdidlər və onlarla mübarizədə ortaq yanaşmalardan ətraflı bəhs edib.

İki ölkə arasında 30 ilə yaxın tarixi olan diplomatik münasibətlərin bu gün Azərbaycan və Serbiya rəhbərliyinin birbaşa iştirakı ilə özünü əməldə, çoxşaxəli strateji tərəfdaşlıqda göstərdiyi qeyd olunub. Yaşıl enerji sahəsində strateji tərəfdaşlıq kimi təşəbbüslərin Xəzər və Qara dəniz hövzələrindən keçməklə Avropa və Mərkəzi Asiyanın əlaqələndirilməsində mühüm addımlar olduğu diqqətə çatdırılıb.

***

**Ceyhun Bayramov daha sonra Serbiyanın xarici işlər naziri Marko Curiç ilə görüşüb.**

Geniştərkibli görüş zamanı nazirlər Azərbaycan–Serbiya strateji tərəfdaşlığının müxtəlif aspektləri, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Serbiyanın “Expo 2027” tədbirinə hazırlıq işlərində uğurlar arzulanıb, bu tədbirin Serbiyanın artan nüfuzunun göstəricisi olduğu vurğulanıb. Qarşı tərəf işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti barədə də ətraflı məlumatlandırılıb.

Mətbuat konfransında nazirlər görüşün nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

**XQ**

Təqdimat

## “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003–2024)”



**Dünən AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tarixçi alim, Milli Məclisin sədr müavini, AMEA-nın müxbir üzvü Musa Qasımlının “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003–2024)” kitabının təqdimatı keçirilib.**

Mərasimi giriş nitqi ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi Zəfərdən danışıb, ictimaiyyətə təqdim olunan kitabın elmi və siyasi əhəmiyyətini qeyd edib. O, professor Musa Qasımlının kitabında Prezident İlham Əliyevin çoxşaxəli və səmərəli fəaliyyətinin elmi əsaslarla geniş şəkildə əks olunduğunu söyləyib.

AMEA rəhbəri bildirib ki, yeni nəşr müəllifin elmi fikir və düşüncələri ilə bərabər, bilavasitə müşahidə etdiyi beynəlxalq münasibətlər prosesinə təhlili yanaşmasının məhsulu kimi də maraq doğurur. Kitabın ağırlıq mərkəzini Prezident İlham Əliyevin müstəqil Azərbaycanın hərtərəfli inkişafına yönəlmiş siyasi fəaliyyəti təşkil edir. O, yeni nəşri ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə kimi dəyərləndirib, müəllifə yeni yaradıcılıq uğurları arzulayıb.

Kitabın dövlət başçısının ad günü ərəfəsində təqdimatının keçirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirən AMEA-nın prezidenti akademiya kollektivi və tədbir iştirakçıları adından Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyeviin müstəqil Azərbaycan dövlətinin inkişafında xüsusi rolunu və böyük xidmətlərini qeyd edərək ölkə başçısına təbriklərini və xoş arzularını ifadə edib.

Nəşrin rəyçilərindən biri, AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elnur Kəlbizadə “İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri (2003–2024)” kitabı haqqında ətraflı məlumat verib. Milli Məclisin Elm və təhsil komitəsinin sədri, professor Anar İsgəndərov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov və Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Günel Musayeva yeni kitabın respublikamızın siyasi və mədəni həyatında böyük hadisə olduğunu diqqətə çatdırıblar.

Sonda nəşrin tədqiqatçılar üçün etibarlı mənbə olduğunu deyən AMEA prezidenti qeyd edib ki, müəllif Prezident İlham Əliyev haqqında faktların, hadisələrin qiymətləndirilməsini və təhlilini tamamilə fərqli rakursdan aparıb.

**Qabil YUSİFOĞLU**
**XQ**

## Qərbi Azərbaycan İcmasının ədalət çağırışı



**“ABŞ-nin Azərbaycandakı səfirliyinin insan hüquqlarını müdafiəsi adı altında ölkəmizin daxili işlərinə qarışan növbəti bəyanatını qınayırıq”.**

Qərbi Azərbaycan İcmasının bu açıqlamasının davamında deyilir: “ABŞ səfirliyinin bəyanatı məzmun baxımından əsassız, manipulyativ və həqiqətdən uzaqdır. Mövcud ABŞ administrasiyasının insan hüquqlarının təşviqi adı altında fəaliyyəti tamamilə zərərlidir və hüquq anlayışı ilə bir araya sığmır.

ABŞ administrasiyası Ermənistan tərəfindən azərbaycanlıların hüquqlarının pozulması kimi kütləvi insan hüququ problemini gözardı etmiş və faktiki olaraq onlara qarşı etnik və dini əsasda ayrı-seçkiliyə yol vermişdir. Bu ayrı-seçkilik insan hüquqları ideyasına vurulan ən böyük zərbədir”.

Hazırkı ABŞ administrasiyasına çağırışla bitən bəyanatda bildirilir: “İndiki rəhbərliyi, heç olmasa, son günlərində insan hüquqlarını siyasi məqsədləri üçün alət etməkdən çəkinməyə çağırır və Qərbi azərbaycanlıların öz tarixi yurdlarına qayıtması kimi əsl insan hüquqları məsələsini müdafiə etməyə və bu haqq işinə dəstək verməyə səsləyirik”.

**XQ**

Naxçıvan Muxtar Respublikası – 100

# Uğurlarla zəngin yubiley ili

**Başa çatmaqda olan 2024-cü il Azərbaycanın ictimai-siyasi həyatında böyük uğurlarla yadda qaldı. Ölkəmizin tarixinə qızıl hərflərlə yazılan ilin əsas hadisələrindən biri də Naxçıvan Muxtar Respublikasının (NMR) yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsidir. Prezident İlham Əliyevin 2023-cü il dekabrın 30-da imzaladığı "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamda qeyd edilir ki, Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutub, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynayıb. Sərəncamda deyilir: "Naxçıvan şəhəri Azərbaycan Atabəyləri–Eldəgizlər dövlətinin paytaxtı olub, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapıb. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verib".**



Dünyanın ən qədim insan məskənlərindən biri olan Naxçıvanın hər tərəfində qədim tikililərə, tarixi abidələrə, mədəni irs nümunələrinə rast gəlmək mümkündür. Azərbaycanın memarlıq inciləri olan Möminə Xatun türbəsi, eləcə də Xan Sarayının məhz Naxçıvanda yerləşməsi təsadüfi deyil. Naxçıvan Azərbaycan xalqına və dünyaya dahi insanlar, mütəfəkkirlər, sərkərdələr bəxş edib. Ulu öndər Heydər Əliyev belə şəxsiyyətlərin fövqündə duran liderlərdəndir. O, həyatı boyu doğma Vətəninə, xalqına sədaqət nümunəsi göstərib, ölkənin tərəqqisi, yüksəlişi üçün əlindən gələni əsirgəməyib. Dahi lider Naxçıvanın davamlı inkişafını hər zaman diqqətdə saxlayıb, onun gələcəyi ilə bağlı vacib qərarların qəbuluna nail olub. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması Azərbaycan və bütövlükdə Türk dünyası üçün tarixi əhəmiyyətə malikdir. Bu diyar həm coğrafi, həm də strateji baxımdan Azərbaycan üçün strateji məkanda yerləşir. NMR-in yüzillik yubileyi ilə bağlı keçirilən tədbirlər bu ərazinin Türk dünyasındakı xüsusi rolu, eləcə də bu torpaqların inkişafında ümummilli lider Heydər Əliyevin gördüyü işləri ön plana çıxarmaq üçün bir fürsətdir.

Naxçıvanın tarixi çox qədim dövrlərə gedib çıxır. Bu bölgə minilliklər boyu müxtəlif mədəniyyətlərin və imperiyaların təsir dairəsində olub, burada yaşayan insanlar Azərbaycan xalqının formalaşmasına mühüm töhfələr verib. Naxçıvan eramızdan əvvəlki dövrlərdən başlayaraq qədim dövlətlərin, imperiyaların bir parçası olub. Araz çayının sahilində yerləşən bu ərazi həm iqtisadi, həm də strateji mövqeyinə görə müxtəlif dövlətlərin maraq dairəsində olub.

Naxçıvan Muxtar Respublikası 1924-cü il fevralın 9-da yaradılıb. Bu tarix Azərbaycanın muxtar vilayəti olaraq Naxçıvanın hüquqi statusunun müəyyən olunması ilə əlaqədardır. SSRİ dönəmində də Naxçıvan xüsusi statusa malik idi. Amma Azərbaycanın əsas ərazilərindən ayrı düşməsi nəticəsində blokadada qalıb. Bu durum bölgənin iqtisadi və sosial inkişafına mənfi təsir göstərib. Buna baxmayaraq, Naxçıvan özünün nadir mədəniyyəti və tarixi ilə Azərbaycan xalqının mədəni irsində xüsusi yer tutur. Ermənistanla sərhəddə yerləşməsi səbəbindən Naxçıvan daim hərbi və siyasi təzyiqlərə məruz qalıb. XX əsrin əvvəllərində Ermənistan ilə Azərbaycan arasında gedən münaqişələr zamanı Naxçıvanın strateji mövqeyi bir daha sübut olunub. Muxtar respublikanın müdafiəsi və qorunması Azərbaycan üçün böyük əhəmiyyət kəsb edib və bu səbəbdən bölgə hər zaman diqqət mərkəzində olub.

Naxçıvanın Türk dünyası ilə əlaqələri tarix boyu möhkəm olub. Bu əlaqələr coğrafi mövqedən irəli gəlir. Naxçıvan Şərqlə Qərbi birləşdirən mühüm bir nöqtədə yerləşir. Əsrlər boyu ticarət yollarının kəsişmə nöqtəsi kimi Naxçıvan Türk dünyasının iqtisadi və mədəni əlaqələrinin inkişafında mühüm rol oynayıb.

Naxçıvanın Türk dövlətləri arasında əlaqələrini gücləndirən əsas amillərdən biri də bu regionda yaşayan insanların türk mənşəli olmasıdır. Bölgənin əhalisi tarixin çətin anlarında da öz türk kimliyini qoruyub saxlayıb, Azərbaycan xalqının bir parçası olub. Naxçıvan, həmçinin qədim türk tarixi və mədəniyyətinin izlərini özündə daşıyan abidələrə evsahibliyi edir. Müasir dövrdə Naxçıvan Türk dövlətlərinin inteqrasiyası prosesində xüsusi yer tutur. Xüsusilə, Türk Şurası (indi Türk Dövlətləri Təşkilatı) çərçivəsində Naxçıvan Azərbaycan və digər Türk dövlətləri arasında əlaqələrin inkişafında mühüm platformadır. 2009-cu ildə məhz Naxçıvan şəhərində Türk Şurasının yaradılması ilə bağlı əsas sənəd imzalanıb. Bu hadisə Naxçıvanın Türk dünyası üçün nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyib.

Heydər Əliyevin Azərbaycan tarixində rolu əvəzolunmazdır. Onun rəhbərliyi altında respublikanın bir çox regionları, o cümlədən Naxçıvan Muxtar Respublikası mühüm inkişaf mərhələsinə qədəm qoyub. 1969-cu ildə Azərbaycan SSR-nin rəhbərliyinə gələn Heydər Əliyev Naxçıvanın inkişafı üçün strateji planlar hazırladı. SSRİ dönəmində Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda müxtəlif sənaye müəssisələri açıldı, regionun iqtisadi potensialı artırıldı.

SSRİ-nin dağılması ərəfəsində, 1990-cı illərin əvvəllərində Heydər Əliyev Naxçıvana qayıdaraq burada siyasi fəaliyyətə başladı. 1990-cı ilin yanvarında sovet qoşunlarının Bakıya daxil olmasından sonra Heydər Əliyev öz iradəsi və qətiyyəti ilə Naxçıvanın təhlükəsizliyini təmin etməyə nail oldu. O, Naxçıvan Ali Məclisinin sədri kimi muxtar respublikada siyasi sabitliyin qorunmasına, Ermənistanın təcavüzkarlıq siyasətinə qarşı durmağa nail oldu.

1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpası dövründə Ulu öndərin Naxçıvanda yaratdığı siyasi sabitlik ölkənin bütövlükdə güclənməsi üçün əsas oldu. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqillik ruhu daha da gücləndi və bu, Azərbaycanın gələcəkdə müstəqil siyasət yürütməsində mühüm rol oynadı.

Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü ildə Azərbaycana rəhbərliyə qayıdışı ilə Naxçıvanın inkişafında yeni mərhələ başlandı. O, Naxçıvanın strateji əhəmiyyətini nəzərə alaraq, bölgənin inkişafı üçün müxtəlif iqtisadi və sosial proqramlar həyata keçirdi. Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, Heydər Əliyevin səyləri sayəsində bölgənin iqtisadi potensialı artırıldı. Ulu öndərin təşəbbüsü ilə Naxçıvanda infrastrukturun modernləşdirilməsi, sosial-iqtisadi layihələrin həyata keçirilməsi prosesi genişləndi. Naxçıvanın suverenliyinin və təhlükəsizliyinin təmin olunmasında Heydər Əliyevin xüsusi xidmətləri var. O, Naxçıvanın ərazi bütövlüyünü və Azərbaycanla birliyini qorumaq üçün daim çalışıb.

2003-cü ildə Azərbaycanın Prezidenti seçilən İlham Əliyev Naxçıvanın inkişafını daim diqqət mərkəzində saxlayıb. Dövlət başçısının bu qədim diyara çoxsaylı səfərləri, NMR-nın sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı sərəncamlar, həyata keçirilən struktur islahatları, Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin təsis olunması bunun bariz nümunəsidir.

Birinci vitse-prezident Mehriban Əliyeva da muxtar respublikaya xüsusi qayğı ilə yanaşır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu Naxçıvanda müxtəlif layihələr həyata keçirib, əhalinin aztəminatlı hissəsinin, xüsusi qayğıya ehtiyacı olan insanların ümid yeri olub.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi onun Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında nə qədər əhəmiyyətli olduğunu bir daha xatırladır. Naxçıvanın strateji əhəmiyyəti, Türk dünyasında xüsusi çəkisi və Heydər Əliyevin NMR-nın inkişafında oynadığı rol Azərbaycan tarixinin qızıl səhifələridir.

Sözsüz ki, bu yubiley Naxçıvanın keçmişindən ilham alaraq gələcəyə doğru daha böyük uğurlar qazanmasına imkan yaradacaq.

Bu gün Naxçıvan tarixinin qızıl dövrünü yaşamaqdadır. Muxtar respublika bütün sahələrdə yüksək inkişafa nail olub. Burada ərzaq və enerji, eləcə də müdafiə təhlükəsizliyi təmin edilib. Azərbaycan xalqının çoxəsrlik nailiyyətlərini, mədəni irsini özündə yaşadan Naxçıvanda milli və dini dəyərlərə hörmətlə yanaşılır, elm və təhsil inkişaf etdirilir, qədim yaşayış yerləri, memarlıq nümunələri bərpa olunur.

İnanırıq ki, yaşı bir əsrə bərabər Naxçıvan Muxtar Respublikası bundan sonra daha da çiçəklənəcək, dövlətimizin inkişafı, cəmiyyətimizin tərəqqisi və milli vəzifələrimizin həyata keçirilməsi yolunda öz töhfələrini verməkdə davam edəcək.

**Reyhan SADİQOVA,**
**Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin bölmə rəisi**



# Liderliyin Zəfər formulu

**Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının və Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Liderliyin Zəfər formulu: xalqa şərəfli xidmət nümunəsi" mövzusunda toplantı keçirilib.**

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, zəngin idarəçilik təcrübəsinə, dönməz əqidəyə, xalqın birmənalı dəstəyinə - yüksək etimadına malik lideri olan dövlətlər möhtəşəm nailiyyətlərə imza ataraq adlarını tarixə əbədi həkk etdiriblər. Onun sözlərinə görə, Şərqdə ilk demokratik respublika yaratmış və 33 il əvvəl öz müstəqilliyini bərpa etmiş Azərbaycanın təcrübəsi də bu baxımdan əlamətdardır.

YAP Sədrinin müavini qeyd edib ki, Çağdaş Azərbaycan reallığı xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır: "Hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır. Prezident, YAP Sədri İlham Əliyevin Ulu öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilib, xalq-iqtidar birliyi daha da möhkəmlənib, Azərbaycan regionda lider dövlətə çevrilib, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınıb".

Qazanılan tarixi nailiyyətlərlə yanaşı, qarşımızda gələcəyə yönəlik çox önəmli vəzifələrin dayandığını deyən Tahir Budaqov daha sonra bildirib ki, Azərbaycan Prezidentinin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənib: "Azərbaycanın bu günlərdə D-8 təşkilatına yekdilliklə üzv seçilməsi də bunun növbəti bariz təzahürüdür. Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaq".

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva qeyd ediblər ki, dünyada gedən mürəkkəb geosiyasi vəziyyət fonunda əldə edilmiş nəticələr onu göstərir ki, Azərbaycan uğurla inkişaf edir. Ən önəmli amillərdən biri olan ictimai-siyasi sabitlik qətiyyətlə qorunur. Prezident İlham Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri də 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın düşmən tapdağından azad edilməsidir.

**XQ**

# Şuşaya qayıdış davam edir



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Şuşa şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış şuşalı ailələrin köçürülməsi davam edir.**

Dünən 208 nəfərdən ibarət 51 ailə də doğma şəhərə qayıdıb. Onlara təntənəli şəraitdə yeni mənzillərin açarları təqdim edilib. 32 illik yurd həsrətinə son qoyulmuş Şuşa sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

Yurda qayıtmaq xoşbəxtliyinə çatmış insanlar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə də minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

**XQ**

# Qədim diyarda idman turizminin üstünlükləri

**Son dövrlərdə dünya turizm bazarının idarəçiləri o qənaətdədirlər ki, zaman keçdikcə insanlar aktiv istirahətə daha çox üstünlük verirlər. Bu isə, nəticədə, idman turizminin ayrı-ayrı növlərinin inkişaf etdirilməsini zəruri edir.**

Çox zaman "ekstremal turizm" adlandırılan bu sahə özündə müəyyən riskləri daşısa da, nəticə etibarilə, çoxları üçün əsrarəngiz bir istirahət növüdür. Buna görədir ki, hazırda dünya turizm bazarının 10 faizi ekstremal turizmin payına düşür. Ölkəmizin bir çox regionları kimi Naxçıvan Muxtar Respublikasının ərazisi də bu turizm sahəsinin inkişaf etdirilməsi üçün böyük potensiala malikdir.

Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların cənuba doğru uzanan orta və alçaq dağlıq yaradan qolları tutur. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsiləsidir. Bu silsilənin ən hündür zirvəsi olan Qapıcıq dağı isə (3 min 906 metr) Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisindəki ən yüksək zirvəsidir. Bundan əlavə, hündürlüyü 3 min metrdən çox olan Yağlıdərə, Qazangöl, Sarıdərə, Dəvəboynu dağları, dəniz səviyyəsindən yüksəkliyi 2 min metrdən çox olan onlarla aşırımlar, eləcə də alçaq və orta yüksəklikli çoxsaylı dağ və təpələr Naxçıvanın əsrarəngiz relyefini formalaşdırır. Bu coğrafi potensial ekstremal turizmin inkişafında əhəmiyyətli rol oynayır.

Qeyd edək ki, ekstremal turizm alpinizm, speleoturizm (mağara turizmi), qayayadırmanma, veloturizm, ultramarafon, piyada turizmi, dağ xizəkçiliyi və sairi özündə birləşdirir. Təsadüfi deyil ki, Şahbuz rayonunun Ağbulaq kəndində yeni dağ-xizək turizminin yaradılması muxtar respublikada idman turizminin inkişafında atılan ilk uğurlu addımlardandır. Ərazinin relyefi, qış fəslində qarın 4-5 ay yerdə qalması xizək turizmi üçün burada geniş imkanlar yaradır.

Alpinizmin inkişafı üçün də muxtar respublikada potensial baza var. Səyahətin idmana yaxın olan bu mürəkkəb növünün inkişaf etdirilməsi üçün yüksək, orta yüksək və alçaq dağlıq ərazilərin coğrafi imkanları, eyni zamanda, qayayadırmanma üçün ərazi obyektlərinin müəyyənləşdirilməsi bu işə öz töhfəsini verə bilər. Doğrudur, turizmin bu növü alpinist və dağ turist düşərgələrində təlim keçmiş fiziki, nəzəri və praktik cəhətdən hazır olan idmançılar üçün məqbul sayılsa da, dünya turizmində buna həm də kütləvi maraq var.

Təsadüfi deyil ki, son illər muxtar respublika ərazisindəki Haçadağ da yerli və xarici alpinistlərin diqqətini çəkməyə başlayıb. Belə ki, yerli idmançılarla birgə qardaş Türkiyə Respublikasından olan dağçıların hər il Xocalı faciəsi qurbanlarını yad etmək məqsədi ilə Haçadağa yürüşlərdə iştirak etməsi muxtar respublikanın bu əsrarəngiz təbiət abidəsinin təbliğinə böyük töhfə verməkdədir. Və yaxud speleoturizmi götürək.

Mağara turizmi mənasını verən bu turizmin inkişafı üçün Naxçıvan ən unikal məkanlardandır. Çünki Cənubi Qafqaz regionunda təbii mağaraların ən çox yayıldığı ərazi Naxçıvan ərazisidir. Qeyd edək ki, bu turizm növünün məqsədi mağaraların kəşfi və tədqiqi sayıldığından bu sahəyə idmançılarla yanaşı, tarixçilər də böyük maraq göstərirlər.

İdman turizmində diqqətçəkən mühüm istiqamətlərdən biri də veloturizmdir. Veloturizm az fiziki qüvvə sərf etməklə nisbətən yaxın məsafələrin təbiəti, tarixi abidələri ilə tanış olmağa imkan verən turizm növüdür. Atmosferi çirkləndirməyən, insan səhhətini möhkəmləndirən velosipedin nəqliyyat vasitəsi kimi universallığı ondan hər yerdə



istifadə etməyə imkan verir.

Əlavə olaraq, orta dağlıq və dağətəyi regionlarda dağ velosipedi yarışlarının təşkili də müasir dövrdə ən populyar idman yarışlarındandır. Son illərdə muxtar respublikada velosiped idmanı üzrə müxtəlif yarışların təşkili də bu idman növünün təbliğinə yeni imkanlar açır.

Ümumiyyətlə, idman turizminin müxtəlif növlərinin inkişafı üçün muxtar respublikada hərtərəfli şərait mövcuddur. Uzağa getməyək, elə Türkiyə Respublikasında son dövrlərdə turizmin hərtərəfli inkişafı idman turizminin də dirçəlməsinə imkan verib. Bu ölkənin Kapadokya bölgəsi hər il dünyanın müxtəlif ölkələrindən bura gələn turistlərlə dolu olur.

Beynəlxalq səviyyəli ultramarafonlar, triatlon və dağ velosipedçiləri üçün təşkil olunan yarışlar artıq bu bölgəni idman turizmi üçün də ildən-ilə daha cəlbedici edir. Düşünürük ki, muxtar respublikanın təbii coğrafi şəraiti bu turizm sahəsinin inkişafı üçün geniş imkanlara malikdir.

2016-cı ildə Honqkonqda keçirilən ümumdünya ultramarafon (100 kilometr) yarışının litvalı qalibi Gedminas Griniusdan soruşmuşdular ki, yaşadığınız Vilnüs şəhəri tamamilə düzənlikdir, bəs dağlıq ərazilərdə keçirilən bu tip ultramarafonlarda necə qalib ola bilirsiniz? O cavab vermişdi ki, bəli, yaşadığım yerlərdəki təpələrə dəfələrlə qalxıb enməklə yarışlara hazırlaşıram.

Demək ki, zəngin coğrafi relyefə sahib olmaq Tanrının bizə bəxş etdiyi zənginlikdir.

**Səbuhi HƏSƏNOV,**
**XQ-nin Naxçıvan müxbiri**

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Biznesinin İnkişafı Fondunun NİZAMNAMƏSİ

**1.Ümumi müddəalar**

1.1.Azərbaycan Biznesinin İnkişafı Fondu (bundan sonra – Fond) Azərbaycan Respublikasında iqtisadiyyatın qeyri-neft sahələrinin inkişafını dəstəkləyən, bu sahədə fəaliyyətin stimullaşdırılmasını təmin edən, habelə sahibkarlığın inkişafına (bundan sonra – müvafiq sahə) maliyyə dəstəyi göstərən publik hüquqi şəxsdir.

1.2.Fond Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3.Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.4.Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5.Fond ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6.Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7.Qanuna uyğun olaraq, Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Fond məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.8.Fondun rəsmi adı aşağıdakı kimidir:

1.8.1.tam halda – Azərbaycan Biznesinin İnkişafı Fondu, qısaldılmış halda – ABİF;

1.8.2.ingilis dilində tam halda – Azerbaijan Business Development Fund, qısaldılmış halda – ABDF.

1.9.Fond Bakı şəhərində yerləşir.

**2.Fondun fəaliyyət istiqamətləri**

2.1.Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1.müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2.müvəkkil təşkilatlar vasitəsilə və investisiya qoyuluşu formasında Azərbaycan Respublikasında sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərmək;

2.1.3.Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;

2.1.4.müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin hazırlanmasında iştirak etmək;

2.1.5.bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3.Fondun vəzifələri və hüquqları**

3.1.Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Fondun vəzifələri aşağıdakılardır:

3.1.1.müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2.Fondun vəsaiti hesabına Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri çərçivəsində Fondun Müşahidə Şurasının müəyyən etdiyi prioritet sahələr, o cümlədən qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə maliyyələşdirmə və ya təminat mexanizmləri vasitəsilə dəstək göstərmək;

3.1.3.Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada sahibkarlıq subyektlərinin manatla aldıqları kreditlərə zəmanət və faiz subsidiyası vermək;

3.1.4."İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci, 8.1.2-ci və 8.1.5-ci maddələrində nəzərdə tutulmuş formalarda ölkə daxilində, eləcə də ölkə xaricində yerli biznesin inkişafı ilə əlaqəli olan layihələrə investisiya qoyuluşunu həyata keçirmək;

3.1.5.Fonda təqdim olunan investisiya layihələrinin ekspertizasını həyata keçirmək;

3.1.6.Fondun maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə tədbirlər görmək;

3.1.7.Fondun fəaliyyət istiqamətləri üzrə riskləri müəyyənləşdirmək, qiymətləndirmək və idarə etmək, habelə bu sahədə həyata keçirilən siyasətin optimallaşdırılması istiqamətində müvafiq tədbirlər görmək;

3.1.8.fəaliyyət istiqamətləri üzrə ayrılmış vəsaitdən təyinatına uyğun istifadə olunmasına nəzarət etmək üçün müvəkkil təşkilatlar vasitəsilə və müstəqil surətdə monitorinqlər aparmaq, bu vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə müvafiq tədbirlər görmək;

3.1.9.Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Fondun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.10.müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.11.Fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.12.müvafiq sahədə təşviqat işlərini təşkil etmək;

3.1.13.dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.14.kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Fond əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.15.öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet səhifəsinin yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin səhifədə yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.16.Fonda ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

3.1.17.dövlət və kommersiya sirrinin, habelə qanunla qorunan digər məlumatların məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.18.Fondun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.19.Fondun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.20.qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.21.bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2.Öz vəzifələrini yerinə yetirmək üçün Fondun aşağıdakı hüquqları vardır:

3.2.1.müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2.müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3.Fonda maliyyə vəsaitinin cəlb olunması üçün tədbirlər görmək, o cümlədən maliyyə bazarlarından kreditlərin cəlb olunması barədə danışıqlar aparmaq, təkliflər vermək, normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla əqdlər bağlamaq;

3.2.4.qiymətli kağızlar (istiqraz, investisiya fond payı və s.) almaq;

3.2.5.fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.6.qabaqcıl beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7.fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.8.fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.9.dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə, habelə müvəkkil təşkilatlara zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.10.müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.11.əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.12.Nazirliyin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.13.bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4.Fondun idarə olunması**

4.1.Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2.Fondun idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətidir.

4.3.Fondun Müşahidə Şurası (bundan sonra – Şura) Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4.Şura sədr də daxil olmaqla, 5 (beş) üzvdən ibarət tərkibdə təşkil edilir.

4.5.Şuranın 2 (iki) üzvünü Nazirlik, 3 (üç) üzvünü isə aşağıdakı dövlət qurumları (hər qurumdan bir nümayəndə olmaqla) təyin edirlər:

4.5.1.Azərbaycan Respublikasının Mərkəzi Bankı;

4.5.2.Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

4.5.3.Azərbaycan Respublikasının Dövlət Neft Fondu.

4.6.Şuranın sədri Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.7.Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.8.Şura səlahiyyətləri çərçivəsində qərar qəbul etməkdə müstəqildir (bu Nizamnamənin 4.9.11-ci yarımbəndi və 5.3-cü bəndi nəzərə alınmaqla).

4.9.Şuranın vəzifələri aşağıdakılardır:

4.9.1.təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Fondun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.9.2.Fonda təqdim edilən investisiya layihələrinin tərtib olunmasına dair minimal tələbləri və investisiya layihələrinin qiymətləndirilmə meyarlarını təsdiq etmək;

4.9.3.Fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadiyyatın müəyyən edilmiş prioritet sahələri üzrə istiqamətləri müəyyənləşdirmək;

4.9.4.müvəkkil təşkilatların seçilməsi meyarlarını təsdiq etmək;

4.9.5.Fond ilə müvəkkil təşkilatlar arasında bağlanılan müqavilələrin nümunəvi formalarını təsdiq etmək;

4.9.6.müvəkkil təşkilatlara sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə limitlərin müəyyən edilməsi qaydasını təsdiq etmək;

4.9.7.sahibkarlıq subyektlərində monitorinq aparılması qaydasını təsdiq etmək;

4.9.8.Fondun dəstək mexanizmləri ilə bağlı müraciətlər üzrə ekspertizanın keçirilməsi qaydasını təsdiq etmək;

4.9.9.Fondun inkişaf istiqamətlərinə dair Nazirliyə təkliflər vermək, strateji məqsəd və planlarını müəyyən etmək;

4.9.10.Fondun fəaliyyətinə nəzarət etmək;

4.9.11.Fondun strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin, onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin, o cümlədən Fondun əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi üçün Nazirliyə təkliflər vermək;

4.9.12.Şura üzvlərinin və İdarə Heyətinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.9.13.Fondun fəaliyyətinə dair illik hesabatı dinləmək və Nazirliyə təqdim etmək;

4.9.14.Nazirliklə razılaşdırmaqla, Fondun maliyyə planlaşdırmasını təsdiq etmək;

4.9.15.İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.9.16.Fondun audit hesabatını qəbul etmək;

4.9.17.kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.9.18.Nazirliyin razılığı ilə Fondun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul etmək;

4.9.19.Fondun fəaliyyət göstərən və ya yeni təsis edilən kommersiya təşkilatlarının nizamnamə kapitalına investisiya qoyuluşunun müddətini müəyyən etmək;

4.9.20.Nazirliyin razılığı ilə Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Fondun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.9.21. Fondun fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.9.22.Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.9.23.daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək.

4.10. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İdarə Heyətinin sədri çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.11. Şuranın üzvlərinə, habelə İdarə Heyətinin sədrinə və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.12. Şuranın iclasında İdarə Heyətinin sədri də iştirak edə bilər.

4.13. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.14. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.15. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri sırasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.16. Şuranın sədri:

4.16.1.Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İdarə Heyəti üzvlərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2.Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslarda sədrlik edir;

4.16.3.öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4.Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şuranın üzvləri:

4.17.1.Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.17.2.Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.17.3.Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.17.4.Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.17.5.Şuranın qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.18. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarından irəli gələn digər tələbləri yerinə yetirməlidirlər.

4.19. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək İdarə Heyətinin sədrinə göndərir.

4.20. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.21. Şuranın katibi:

4.21.1.Şuranın iclaslarını təşkil edir;

4.21.2.bu Nizamnamənin 4.11-ci bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.21.3.Şuranın iclas protokollarını tərtib edir və imzalanması üçün Şura üzvlərinə təqdim edir;

4.21.4.Şuranın qərarlarının layihələrini hazırlayır, baxılma və imzalanması üçün Şuranın sədrinə təqdim edir;

4.21.5.Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.22. İdarə Heyəti Fondun fəaliyyətinə cari rəhbərliyi həyata keçirir.

4.23. İdarə Heyəti 5 (beş) üzvdən – Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və sədrin dörd müavinindən ibarətdir.

4.24. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə İdarə Heyəti sədrinin müavinlərindən biri icra edir.

4.25. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.25.1.Fondun fəaliyyətini təşkil edir;

4.25.2.bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

4.25.3.Şuranın qərarlarını icra edir;

4.25.4.aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.25.5.Fondun strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.25.6.bu Nizamanmənin 3.1.16-cı yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.25.7.cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır;

4.25.8.İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.25.9.Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

4.26. İdarə Heyətinin sədri rübdə bir dəfədən az olmayaraq, İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü və ya Şura çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir. İdarə Heyətinin iclasına münasibətdə bu Nizamnamənin 4.11-ci, 4.13-cü və 4.14-cü bəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir.

4.27. İdarə Heyətinin sədri:

4.27.1.Fondun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.27.2.İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.27.3.öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.27.4.öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.27.5.Fondun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.27.6.Fondun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.27.7.özünün və Fondun struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.27.8.müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Fondun Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.27.9.Fond işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.27.10.bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Fond işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin tətbiq edilməsi barədə qərarlar qəbul edir;

4.27.11.Fondun əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.27.12.bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.27.13.Fondun fəaliyyət istiqamətləri ilə bağlı komitələr, məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.27.14.Fondun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.27.15.kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.27.16.Fondda müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.28. İdarə Heyətinin üzvləri:

4.28.1.İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.28.2.İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.28.3.İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.28.4.İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.28.5.İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.29. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5.Fondun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1.Fondun nizamnamə fondunun məbləği 1.180.929.648,0 (bir milyard bir yüz səksən milyon doqquz yüz iyirmi doqquz min altı yüz qırx səkkiz) manatdır.

5.2.Fondun əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3.Fond öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4.Fond qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun, onun idarə, filial və nümayəndəliklərinin, təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək, fəaliyyət istiqamətləri üzrə yerləşdirilmiş vəsaitlərdən əlavə Fondun hesablarında qalan sərbəst vəsaitləri depozit, digər maliyyə aktivlərinə və qiymətli kağızlar alınmasına yönəltmək hüququna malikdir.

5.5.Fondun mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6.Fondun məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

**6.Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1.Fondun fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Şura və İdarə Heyəti həyata keçirirlər.

6.2.Fondun fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

**7.Fondda uçot və hesabat**

7.1.Fondun milli valyutada pul vəsaiti Azərbaycan Respublikasının Mərkəzi Bankında açılan bank hesablarında saxlanıla bilər.

7.2.Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.3.Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.4.Fond idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.5.Fond öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir. Eyni kənar auditorla ardıcıl 3 ildən artıq müddətə müqavilə bağlanıla bilməz.

**8. Fondun ləğvi və yenidən təşkili**

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# AYİB ölkəmizin strateji layihələrini dəstəkləyir

(əvvəli 1-ci səhifədə)

Hesabat dövründə “AccessBank” ilə birlikdə Azərbaycanda Risk Bölgüsü Çərçivəsi də yenidən işə salınıb. Bundan əsas məqsəd isə “AccessBank”ın yerli KOB strukturlarına verdiyi kredit riskini AYİB-lə bölüşmək olub. Beləliklə, 2024-cü ilin dekabr ayında Risk Bölgüsü Çərçivəsində ilk subkredit təsdiqlənib və yerli bizneslərin maliyyəyə çıxış imkanlarını yaxşılaşdırmaqla və onların daha rəqabətqabiliyyətli olmasına kömək etməklə KOB-ları dəstəkləmək qarşıya mühüm vəzifə kimi qoyulub.

AYİB hazırda 2025-ci il üçün digər Azərbaycan bankları ilə potensial tərəfdaşlığı araşdırır. Həmçinin ticarətin maliyyələşdirilməsində və yerli iqtisadiyyatın “yaşıllaşdırılması” səylərində iştirakını genişləndirməyə çalışır. Bütün bunların mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşdirilməsi yolu ilə həyata keçirilməsi nəzərdə tutulur.

Növbəti illərdə bu beynəlxalq maliyyə qurumu rəqabət qabiliyyətinin artırılmasına, “yaşıl” maliyyənin təşviqinə, biznesdə qadınların dəstəklənməsinə və gənclərin məşğulluğunun artırılmasına diqqət yetirəcək. Azərbaycanda kiçik və orta sahibkarlığın daha da inkişaf etməsi istiqamətində önəmli layihələr gerçəkləşdiriləcək.

AYİB-in respublikamızdakı daimi nümayəndəliyinin rəhbərinin sözlərinə görə, bank Azərbaycanın enerji sektoru ilə əməkdaşlığının inkişafını da diqqətdə saxlayır. Bu, təsadüfi hal sayılmır. Çünki son onilliklər ərzində AYİB Azərbaycanın enerji sektoruna yüz milyonlarla avro sərmayə qoyub. Bərpa olunan enerji mənbələrinə diqqətin artması ilə sektor indi daha da əhəmiyyətli olur. Siyasi dəstəklə yanaşı, son illər külək və günəş enerjisi sahəsində də yüksək nəticələr əldə edilir.

Ümumiyyətlə, sözügedən maliyyə qurumu Azərbaycanda bərpa olunan enerji layihələrinin icrasında fəal iştirak edən və bu istiqamətdə yüksək nəticələrə imza atan




yeganə çoxtərəfli inkişaf bankı olmaqdan qürur duyur. N.Mouravidze bununla bağlı açıqlamasında deyir: “2022-ci ildə biz ilk özəl kommunal miqyaslı 240 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasını maliyyələşdirənlərdən biri olduq. Bunun ardınca 2023-cü ildə ölkənin ilk kommunal miqyaslı 240 MVt gücündə Xızı–Abşeron külək elektrik stansiyasının maliyyələşdirilməsi reallaşdı. Bu uğurlu investisiyalar iqlim maliyyələşdirməsinin daha da səfərbər edilməsinə yol açdı və bu il Biləsuvar və Neftçalada sazişin imzalanması ilə yekunlaşdı. Qafqazda bu günə qədər ən böyük olan bu günəş elektrik stansiyalarının ildə 600 min tondan çox $CO_2$ qənaət edəcəyi təxmin edilir. 300 minə qədər evi “yaşıl” enerji ilə təchiz etməklə yanaşı, bu əhəmiyyətli investisiya regionun bütün bərpa olunan enerji bazarı üçün yeni bir mərhələdir”.

Qeyd edək ki, AYİB islahatlar istiqamətində elektrik şəbəkəsinin təkmilləşdirilməsi, enerji sektoru üçün aşağı karbonlu yolun yaradılması və milli hidrogen strategiyasının hazırlanması kimi məsələlər üzrə də Azərbaycan hakimiyyəti ilə siyasi dialoqu davam etdirir. Maliyyələşdirmə və islahatların bu şəkildə birləşməsi ölkəyə əlavə özəl iqlim maliyyəsini cəlb etmək məqsədi daşıyır.

AYİB-in “Yaşıl Şəhərlər Proqramı”-na qoşulan ilk və indiyədək yeganə şəhər olan Gəncə ilə əməkdaşlığı haqqında danışan bankın respublikamızdakı daimi nümayəndəliyinin rəhbəri bildirib: “Biz iki layihə imzalamışıq və növbəti 15 il ərzində Gəncə şəhəri üçün “Yaşıl Şəhər Fəaliyyət Planı” hazırlamışıq. Bu layihələr şəhərə bərk məişət tullantılarının toplanmasının və küçə işıqlandırmasının davamlılığını və səmərəliliyini artırmağa kömək edəcək. Hazırda biz şəhərin su, tullantı və yağış sularının idarə edilməsi infrastrukturunu yaxşılaşdırmaq üçün böyük investisiyalar üzərində işləyirik. Paralel olaraq, biz Azərbaycan İqtisadiyyat Nazirliyi ilə bankın yeni şəhərlərə, infrastruktur sektorlarına “yaşıl” və aşağı karbonlu investisiyalarını genişləndirmək üçün müzakirələr aparırıq. Ümid edirik ki, tezliklə Azərbaycanın digər şəhərləri də proqramımıza qoşulacaq”.

Yeri gəlmişkən, Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizə ciddi maraq göstərməsi bir sıra amillərlə əlaqədardır. Əvvəla, respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastruktura malik olması bu baxımdan diqqət çəkir. Belə bir əlverişli şərait səbəbindən mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla əməkdaşlıq etməyə calışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı da ilbəil artır.

AYİB-in respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam şərtləndirir. Bankla Azərbaycan İnvestisiya Holdinqi arasında razılıq əldə edilməsi–niyyət sənədi imzalanması da bu məsələdən qaynaqlanır. Bu əməkdaşlıq mövcud nəqliyyat dəhlizləri üzrə Azərbaycanın dəniz, avtomobil və dəmir yolu nəqliyyatının iştirakı ilə multimodal daşımaçılığın səmərəliliyini artıraraq iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verəcək.

Yuxarıda bildirdik ki, AYİB-in ölkəmizlə əməkdaşlığında əsas istiqamətlərdən biri də bərpaolunan enerji layihələrinin həyata keçirilməsidir. Bank tərəfindən aparılan tədqiqatlar da bu sahəyə marağı gücləndirir. Belə ki, maliyyə qurumunun araşdırmalarında Azərbaycanda ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olması öz təsdiqini tapır. Bununla bağlı AYİB-in dəstəyi ilə Niderlandın tanınmış “Advision” şirkətinin Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də mühüm önəm daşıyır. Başqa sözlə, adıçəkilən şirkətin hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alır.

Sonda qeyd edək ki, AYİB 1991-ci ildən fəaliyyətə başlayıb. Ötən müddət ərzində əsasən, keçmiş sosialist ölkələri və Mərkəzi Asiya dövlətlərinə bazar iqtisadiyyatına keçid məqsədilə kredit və texniki yardım üçün kredit, həmçinin ianələr ayırıb.

Böyük Britaniyanın paytaxtı London şəhərində 2019-cu ildə keçirilən AYİB-in Şərq Tərəfdaşlığı İnvestisiya Sammiti çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə bu maliyyə institutu arasında ölkəmizin Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fondunda iştirakı ilə əlaqədar ianə haqqında, həmçinin respublikamızın AYİB-in donorları icmasına qoşulması ilə bağlı sazişlər imzalanıb.

# D-8-ə üzvlük Azərbaycana üstün imkanlar yaradacaq




(əvvəli 1-ci səhifədə)

Artıq uzun zamandır ki, bu qurum İndoneziyanın yoxsulluqla mübarizə və insan resursları, Malayziyanın maliyyə – bank, Türkiyənin sənaye, səhiyyə, şəhərsalma, Pakistanın kənd təsərrüfatı, İranın elm və texnologiya, Misirin turizm və ticarət, Nigeriyanın enerji qaynaqlarının idarəedilməsi sahələrində fəaliyyətlərini əlaqələndirir, həmçinin müsəlman ölkələri arasında qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması üçün demokratik platforma rolunda çıxış edir.

Beynəlxalq Valyuta Fondunun 2024-cü ildə nəşr edilən hesabatına əsasən, D-8-ə üzv ölkələrin nominal milli gəlirləri, təqribən, 5,1 trilyon dollar, adambaşına düşən milli gəliri isə cəmi 48 min dollardan çox olub. Təşkilata üzv ölkələrin, ümumilikdə, əhali sayı 1,3 milyard nəfərə yaxınlaşıb. D-8 ölkələri arasında xarici ticarət dövriyyəsi isə 2 trilyon dollara çatmaqla qlobal ticarətin 4,5 faizini və qlobal ümumi daxili məhsulun 5 faizini təşkil edib.

Nicat Hacızadə vurğulayıb ki, inkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına üzvlük Azərbaycanın həmin ölkələrlə iqtisadi-siyasi əlaqələrinin daha da inkişaf etməsinə və genişlənməsinə səbəb olacaq. Azərbaycanın Türkiyə və İran ilə geniş ticarət və investisiya əlaqələrinin olmasına baxmayaraq, qalan dövlətlərlə iqtisadi münasibətlərinin daha da genişlənməsinə ehtiyac var. Belə ki, 2023-cü ilin yekunlarına görə, Azərbaycanın Türkiyə ilə xarici ticarət dövriyyəsi 7,7 milyard dollar olmaqla, D-8 iqtisadiyyatları ilə məcmu xarici ticarət dövriyyəsinin 90 faizini, İran ilə xarici ticarət dövriyyəsi 487,4 milyon dollar olmaqla, ümumi dövriyyənin 5,7 faizini təşkil edir. Eyni zamanda, respublikamızın D-8 təşkilatına üzv ölkələr ilə birgə məcmu xarici ticarət dövriyyəsi 8,52 milyard dollar təşkil edir ki, bu da ümumi xarici ticarət dövriyyəsinin 16,7 faizinə bərabərdir.

Şöbə müdirinin sözlərinə görə, Azərbaycanın D-8 ölkələrinə ümumi ixracı 5,6 milyard dollar təşkil edib. Üzv ölkələr arasında Azərbaycanın ən aşağı ticarət dövriyyəsi 477 min dollar ilə Nigeriya olub. Qarşılıqlı birbaşa xarici investisiya dövriyyəsinin də əsas hissəsi Türkiyə və İranın payına düşüb. Belə ki, 2024-cü ilin 9 ayı ərzində Türkiyənin Azərbaycana birbaşa xarici investisiya qoyuluşu 912 milyon dollar, İranın isə 275,9 milyon dollar təşkil edib.

Azərbaycan təşkilata üzvlüyü ilə D-8 preferensial ticarət sazişi anlaşmasına qoşulacaq üzv ölkələrlə qarşılıqlı ticarət imtiyazlarından istifadə edə bilər. Bura tariflərin qarşılıqlı endirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi, mənşə qaydalarının müəyyənləşdirilməsi və s. daxildir. Hazırda Türkiyə və Pakistanla preferensial ticarət razılaşması olan Azərbaycanın qalan üzv ölkələrlə də güzəştli ticarət razılaşmalarına daxil olması mümkündür. Bu, respublikamızın qeyri-neft-qaz ixracının çeşidlənməsi və şaxələndirilməsi baxımından əlverişli fürsətdir.

Nicat Hacızadənin sözlərinə görə, D-8 ölkələrinin 2030-cu ilə qədər qəbul edilən Birgə Yol Xəritəsinin əsas hədəflərindən biri üzv ölkələr arasında ticarət dövriyyəsinin qlobal ticarətin 15-20 faizə çatdırılmasına nail olmaqdır. Azərbaycanın D-8 təşkilatına qoşulmaqla müxtəlif hədəflərə çatmaq istiqamətində dinamik addımlar atması milli iqtisadiyyatın da böyüməsi ilə nəticələnəcək.



# “Şimal – Cənub” dəhlizində tranzit daşımalara “yaşıl” işıq!

**Azərbaycan və Rusiya arasında “Şimal – Cənub” beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yükdaşımaların inkişafı məqsədilə əməkdaşlıq haqqında saziş imzalanıb.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumata görə, saziş nazir Rəşad Nəbiyevin Rusiyaya işgüzar səfəri çərçivəsində imzalanıb. Məlumata görə, dəmir yolu infrastrukturunun və tranzit daşımalarının inkişafı üzrə əməkdaşlığın şərtlərini müəyyən edən sazişin məqsədi nəqliyyat əlaqələrinin səmərəliliyini yüksəltmək və “Şimal – Cənub” dəhlizinin qərb marşrutunun potensialını artırmaqdan ibarətdir. Eyni zamanda, sənəd dəmiryol nəqliyyatı ilə yükdaşımaların artmasına və daşıma həcmlərinin artım tempi ilə dəmiryol nəqliyyatı infrastrukturunun inkişafı arasında balansın təmin edilməsinə imkan yaradacaq.

Səfər zamanı R. Nəbiyev, Rusiya hökuməti sədrinin müavini Vitali Savelyev və nəqliyyat naziri Roman Starovoytun iştirakı ilə görüş keçirilib. Görüşdə avtomobil daşımalarının həyata keçirilməsi ilə bağlı müzakirələr aparılıb.

Yeri gəlmişkən, Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev bu ilin 11 ayında ölkəmizin ərazisindən keçən “Şimal – Cənub” beynəlxalq nəqliyyat dəhlizinin qərb marşrutu üzrə yükdaşımaların həcminin ötən ilin eyni dövrü ilə müqayisədə 31 faiz artdığını bildirib. Onun sözlərinə görə, sözügedən marşrutla yüdaşımaların həcmi, hələlik, tam dəqiqləşdirilməyindən bunun son həddi hesab etmək olmaz.

Azərbaycanda “Şimal – Cənub” nəqliyyat dəhlizinin dəmir və avtomobil yolları seqmentlərinin tam reallaşdırıldığını və uğurla fəaliyyət göstərdiyini xatırladan diplomat deyib ki, ölkəmiz öz ərazisində infrastrukturun daha da təkmilləşdirilməsi üçün bütün zəruri tədbirləri görür. O, həmçinin bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2023-cü ildə təsdiqlənmiş 2024-2026-cı illər üçün tranzit yükdaşımalar üzrə fəaliyyət planı çərçivəsində fiziki infrastrukturun gücləndirilməsi, əməliyyat səmərəliliyinin və koordinasiyanın artırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərində innovativ həllər və rəqəmsallaşdırmanın tətbiqi üzrə tədbirlər görülür.

Xatırladaq ki, “Şimal – Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması haqqında saziş 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan hökümətləri arasında imzalanıb. Azərbaycan Respublikası bu sazişə 2005-ci il sentyabrın 20-də qoşulub. Artıq saziş iştirakçılarının sayı 12-yə çatıb. Uzunluğu 7,2 min kilometr olan marşrut Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindən Hindistanın Mumbay limanına qədər uzanır. “Şimal – Cənub” dəhlizi 3 marşrutdan: Transxəzər (dəmir yolları və limanlardan istifadə edilməklə), qərb və şərq (quru) marşrutlarından ibarətdir.

# Daha çox milli avtobus!

*Ölkəmizdə onun istehsalı 8 il ƏDV-dən azad ediləcək*

**Xəbər verildiyi kimi, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi Milli Məclisdə 3-cü oxunuşda qəbul edilib. Vergi qanunvericiliyində biznesin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində nəzərdə tutulan mühüm dəyişikliklərdən biri ölkə ərazisində istehsal olunan avtobusların satışının, habelə təsdiqedici sənəd əsasında istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalının əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi ilə bağlıdır. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib.**

Qurumun açıqlamasına görə, hazırda Vergi Məcəlləsinin qüvvədə olan müddəalarına əsasən, Azərbaycan Respublikasının ərazisində istehsal olunan minik avtomobillərinin satışı 2023-cü il mayın 1-dən 10 il müddətinə ƏDV-dən azaddır. Avtomobil sənayesinə investisiya cəlbinin stimullaşdırılması məqsədilə müvafiq azadolma ölkə ərazisində avtobus istehsalına da şamil edilir.

Qanunvericiliyə nəzərdə tutulan dəyişikliyə əsasən, ölkə ərazisində istehsal olunan avtobusların satışı, habelə müvafiq təsdiqedici sənəd əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların ehtiyat hissələrinin idxalı 2025-ci il yanvarın 1-dən 8 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulur. Avtobus istehsalçılarına vergi güzəştlərinin verilməsi isə avtomobil sənayesinin canlanmasına və iqtisadiyyata əlavə investisiyaların cəlb olunmasına imkan yaradıb.



# “Şahdağ” Orta Dəhlizə qayıtdı



**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) Dəniz Nəqliyyat Donanmasına məxsus “Şahdağ” gəmi-bərəsinin təmiri başa çatdırılıb. Gəmi yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşımalara cəlb edilib. Ələt limanından yola salınan “Şahdağ” ilk səfərini Kurık limanına edib. Bu barədə XQ-yə ASCO-dan məlumat verilib.**

Bildirilib ki, “Şahdağ”ın təmiri “Zığ” Gəmi Təmiri Zavodunda həyata keçirilib. Ötən müddətdə gəmi-bərənin baş və köməkçi mühərrikləri, nasos və soyuducuları təmir edilib, köməkçi buxar və köməkçi qazanlarında zəruri işlər yerinə yetirilib. Bununla yanaşı, gəminin gövdə hissəsi qaynaq edilib, boruqurəşdırma və avtomatika işləri görülüb, elektrik, rabitə və elektroradionaviqasiya avadanlıqları təmir edilib, nasaz vəziyyətdə olan ehtiyat hissələri yenisi ilə əvəz olunub. Təmir işləri çərçivəsində gəmidə müasir, yeni tip sürətölçən “Laq” naviqasiya avadanlığı quraşdırılıb, suüstü hissə təmizlənərək rənglənib, dənizçilərin yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində yenilənib.

Xatırladaq ki, uzunluğu 154,5 metr, eni isə 18,3 metr olan gəminin maksimal sürəti 12,5 uzeldir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Unutsaq-unudularıq

# Akademikin xatirəsinə ehtiram



**Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Elm və Təhsil Nazirliyinin akademik Y.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutunun birgə təşkilatçılığı ilə akademik Soltan Mehdiyevin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Monomerlər və neft kimyasının müasir problemləri" mövzusunda ikigünlük beynəlxalq elmi konfrans keçirilib.**

Konfransın keçirilməsində əsas məqsəd görkəmli alimin elmin inkişafındakı rolunun bir daha işıqlandırılması, bu sahədə son nailiyyətlərin müzakirəsi, yeni istiqamətlərin müəyyənləşdirilməsidir.

Konfransı giriş sözü ilə NKPİ-nin baş direktoru, akademik Vaqif Abbasov açıb. O, görkəmli alimin Azərbaycan kimya elminin inkişafındakı xidmətlərindən, bu sahənin inkişafına verdiyi töhfələrdən danışıb. Sonra kimya üzrə fəlsəfə doktoru Arzu Cəlilova "Akademik Soltan Mehdiyevin Azərbaycanda neft kimyasının inkişafında rolu" mövzusunda məruzə ilə çıxış edib.

AMEA-nın vitse-prezidenti Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun baş direktoru, akademik Dilqəm Tağıyev, Bakı Dövlət Universitetinin üzvi kimya kafedrasının müdiri, akademik Abel Məhərrəmov, İsmayıllıdan konfransa gəlmiş nümayəndələr çıxış edərək, görkəmli alim haqqında öz xatirələrini bölüşüblər. Sonda alimin ailəsi adından çıxış edən oğlu iştirakçılara minnətdarlığını bildirib.

*XQ*

# 1 əsrlik qəzetin 100 yaşlı redaktoru

*"Qələbə" qəzetinin baş redaktoru Mahmud Ağalarovun 100 illik yubileyi qeyd olunub*

**Əməkdar jurnalist, Qırmızı Əmək Bayrağı ordenli, "Qızıl qələm" mükafatı laureatı Mahmud Ağalarov zəngin yaradıcılıq yolu keçmiş jurnalistlərdən olub. Onun yubileyi münasibətilə Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən xatirə gecəsində bu barədə ətraflı bəhs edilib.**



Salyan Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən "Yüz yaşlı qəzetin 100 yaşlı redaktoru" adlı tədbirdə RİH nümayəndələri, "Qələbə" qəzetinin kollektivi, veteran qələm sahibləri və rayon ictimaiyyətinin nümayəndələri, oxucular iştirak edirdilər.



Yubilyarın həyat və fəaliyyətini özündə əks etdirən foto-slaydın nümayişindən sonra çıxışlar oldu. "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, icra hakimiyyətinin məsul əməkdaşı Məhərrəm Məmmədov, rayon qəzetinin sabiq baş redaktoru, Əməkdar müəllim Fərqanə Cəbrayılova, vaxtilə qəzetdə şöbə müdiri işləmiş Əməkdar jurnalist Rəhim Hüseynzadə, rayon ziyalılar birliyinin sədri, Əməkdar müəllim Allahverdi Piriyev, AYB Muğan bölməsinin sədri Nəbi İbrahimov, tarix-diyarşünaslıq muzeyinin direktoru Rəfiqə Ağabəyli, şair Zabil Pərviz, qəzetin əməkdaşları Leyla Nəsirova, Təyyar Nəsirli, Əzizağa Məmmədli, və başqaları peşəkar jurnalist, səmimi insan olmuş Mahmud Ağalarovla bağlı xatirələrini danışdılar. Qeyd edildi ki, mənalı ömrünün tam 50 ilini jurnalistikaya həsr etmiş Mahmud müəllim mənalı və ibrətamiz bir ömür yaşayıb.

Hələ orta məktəbdə illərindən ilk qələm təcrübələrini rayon qəzetinə göndərən gənc müxbirin yazıları tezliklə Bakıda çıxan "Gənc işçi" qəzetində görünməyə başlayıb. 1940-cı ildə 16 yaşlı Mahmud "Sosializm yolu" qəzetində məsul katib vəzifəsinə işə götürülüb. İkinci Dünya müharibəsi illərində salyanlıların döyüşən cəbhədə, eləcə də arxada qələbəni təmin etmək üçün göstərdikləri rəşadət və hünər nümunələri barədə rəngarəng məqalələrlə "Sosializm yolu"nda və "Kommunist" qəzetində müntəzəm çıxışlar edib, yerli radio qovşağı vasitəsilə sovet informasiya bürosunun rəsmi xəbərlərini rayon camaatına çatdırıb. Gözəl səs tembrinə malik olan M.Ağalarovu o vaxt "Salyanın Levitanı" adlandırırdılar.

Müharibən sonra rayonda bir sıra məsul vəzifələrdə çalışan Mahmud Ağalarov çox keçməmiş yenidən rayon qəzetinə qayıdaraq jurnalist fəaliyyətini davam etdirib. 1952-ci ildə gənc jurnalist "Kommunist" (indiki Xalq qəzeti") qəzetinə işə dəvət olunub, 1956-cı ildə buradan Bakı Ali Partiya Məktəbinin jurnalistika şöbəsinə oxumağa göndərilib. Daha sonra Mahmud Ağalarov Qazaxın "Qalibiyyət bayrağı", Qubanın "Şəfəq" qəzetlərinin redaktoru olub. 1965-ci ildən 1992-ci ilə kimi isə doğma Salyan rayonunda nəşr edilən "Qələbə" qəzetinə rəhbərlik edib.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dönəmdə həyata keçirilən möhtəşəm quruculuq və abadlıq işlərinin fəal təbliğatçılarından biri də Mahmud Ağalarov olub. Onun redaktorluğu ilə həftədə 3 dəfə, 10 min tirajla çıxan qəzetdə respublikanın və rayonun sosial-iqtisadi, mədəni həyatı geniş və maraqlı şəkildə öz əksini tapırdı. O dövrün "Qələbə" qəzeti yüksək poliqrafik səviyyəsinə görə Mariya Ulyanova adına Ümumittifaq mükafatına layiq görülmüşdü. Mahmud müəllimlə birlikdə çalışan jurnalistlərdən Vaqif Əliyev, Səxavət Qarayev, Alimə Möhsümova, Akif Bayramoğlu, Fəxrəddin Fərzəliyev sonralar müxtəlif mətbuat orqanlarının redaktorları olublar.

Mahmud Ağalarov 1992-ci ildə təqaüdə çıxandan sonra da doğma qəzetlə müntəzəm əlaqə saxlayıb, təcrübəsini gənclərdən əsirgəməyib. Beləcə, ömrünün sonuna – 1999-cu ilin may ayına qədər Azərbaycan jurnalistikasına, bölgə mətbuatına xidmət göstərib...

Yubiley gecəsinin sonunda Mahmud Ağalarovun qızı Bahar xanım atasının xatirəsinə göstərilən ehtirama görə mərasimi təşkil edənlərə və bütün iştirakçılara minnətdarlığını bildirdi.

*Ə.ƏLİYEV*
*XQ*

# Kollecdə "Ulduz"lu görüş

**Xəbər verdiyimiz kimi, "XalqTv"nin informasiya dəstəyi ilə gerçəkləşən "Ulduzlu görüşlər" layihəsinin ilk görüşü Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor, tələbə, müəllim heyəti ilə keçirilmişdi. Növbəti görüş Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən Maliyyə-İqtisad Kollecində reallaşıb.**





Görüşdə "Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist, şair Qulu Ağsəs, baş redaktor müavini, yazıçı Təranə Vahid, şöbə redaktorları şair Dayandur Sevgin və Taleh Mansur, eləcə də Azərbaycan Yazıçılar Birliyinin mətbuat xidmətinin rəhbəri, şair Xəyal Rza iştirak ediblər.

Görüşdən öncə qonaqları təhsil ocağının direktoru Davud Davudov qəbul edib. Səmimi söhbətdən sonra kollecin akt zalında görüş başlanıb. Kollecin direktor müavini Murad Muradov 90 illik tarixi olan təhsil ocağı haqqında danışıb və qonaqları təqdim edib.

Jurnalın əçəkdaşları ədəbiyyat və həyat, ədəbi zövqün formalaşdırılması haqqında fikirlərini bölüşüb, tələbələrə öz tövsiyələrini verib, onları maraqlandıran sualları cavablandırıblar. Müəlliflərin yeni şeirlərinin səsləndirilməsi ilə görüşə əlavə rəng qatılıb. Səmimi ruhda keçən görüşün sonunda tələbələrə "Ulduz" jurnalının müxtəlif sayları hədiyyə edilib.

*XQ*

# İlin son kitab sərgisi

**Oxucuların yazıçılarla ünsiyyətdə olması, Azərbaycan milli ədəbiyyatı ilə tanış olması baxımından vacib olan daha bir kitab festivalı reallaşıb.**

Bakı İdman Sarayında "Azərbaycan Nəşriyyatçılar Assosiasiyası" İctimai Birliyinin (ANAİB) Mədəniyyət Nazirliyi ilə birgə təşkil edilən festivalın açılış mərasimində qeyd olunub ki, ilin sonuna təsadüf edən I Bakı Kitab Festivalının öz ətrafına xeyli mütaliə həvəskarını toplaması təqdirəlayiqdir.

Əsas şüarı "Yeni ilə yeni kitablarla!" olan 4 günlük festivalda ANAİB üzvləri də daxil olmaqla, 30-dan çox nəşriyyat öz stendi ilə təmsil olunub ki, bu da 10 minlərlə kitabın, onlarla Azərbaycan yazıçısının iştirakı deməkdir. Burada yerli qəzet və jurnallar da öz çap məhsullarını nümayiş etdiriblər.

Açılış mərasimində ANAİB-in Şamil Sadiq salamlama nitqi ilə çıxış edərək kitabla ünsiyyətin vacibliyini diqqətə çatdırıb. O, festivala hazırlıq prosesi barədə danışıb və qonaqlara təşəkkürünü bildirib. Xalq şairi Sabir Rüstəmxanlı, Türkiyə Üsküdar Universitetinin rektoru Nazife Güngör, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri, Azərbaycan Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin deputatı Fazil Mustafa, Mətbuat Şurasının sədri Rəşad Məcid və Azərbaycanın Əməkdar artisti Rafiq Həşimov çıxışlarında kitab və mütaliənin əhəmiyyətini, cəmiyyətin inkişafındakı rolunu vurğulayıblar.

"I Bakı Kitab Festivalı" isə belə adlansa da, assosiasiyanın keçirdiyi sayca 18-ci kitab bayramıdır. Daha öncə analoji festivallar Gəncə, Sumqayıt, Xırdalan, Lənkəran kimi şəhər və rayonlarında uğurla keçib. Sərgidə əsasən Azərbaycan dilində əsərlər çap edən nəşriyyatlar təmsil olunurdu. Məqsəd buraya daha çox üz tutan məktəbli və tələbələrin, eləcə də digər mütaliə həvəskarlarının bədii ədəbiyyatla daha yaxından tanış olmasını təmin etməkdir. Onu da bildirək ki, satış-sərgidə kitablar onlara 90 faizədək endirimli qiymətlərlə təklif olunub.

Festival çərçivəsində tanınmış yazıçıların əsərlərinin təqdimatları keçirildi, avtoqraf sessiyaları, məşhur şəxslərlə görüşlər, poeziya saatları maraqla qarşılandı. MİMTA Yayımlarının çap etdiyi, Əli bəy Hüseynzadənin seçilmiş yazılarının toplandığı "Nicat məhəbbətdədir" kitabının təqdimatı xüsusilə yaddaqalan oldu. Təqdimat MİMTA Yayımlarının direktoru Əsəd Aslanoğlunun moderatorluğu ilə "Füyuzat" jurnalının baş redaktoru Mübariz Yunusun oxucularla söhbəti maraqlı keçdi.

Oxucuların tanınmış şair Nazim Əhmədlinin "Unutduğum göy üzü" və eləcə də xaricdə nəşr olunmuş kitablarını müəllif avtoqrafı ilə alması da sərginin xarakterik cəhətlərindən idi. Festivalın sonuncu günü yazıçı, filosof-şərqşünas Rövşən Abdullaoğlu ilə görüş və imza saatı isə aktual mövzularda söhbətləri ilə diqqət çəkdi.




Həmçinin sərgi salonunda balaca oxucular üçün əyləncəli tədbirlər, intellektual ustad dərsləri, oxu saatları və səhnəciklər təşkil olundu. Uşaqlar üçün ucadan nağıl oxuma dəqiqələri də bir ilk kimi bəyənildi. Söhbət etdiyimiz gənclər Yeni il ərəfəsində belə bir bayramın keçirilməsini yüksək dəyərləndirdilər.

**Bakı Dövlət Universitetinin tələbəsi Nicat Bağışov təəssüratlarını belə ifadə etdi:**

– Baxın, möhtəşəm idman sarayı necə gözəl bəzədilib! Bu saray özünün genişliyi və alıcı-satıcı rahatlığının tam təmin olunması ilə seçilir. Buraya gəlib-getmək də asandır, kitab müəllifləri ilə birbaşa təmaslar yaratmaq da xoşdur.

**Sumqayıtdakı 25 nömrəli məktəbin 10-cu sinif şagirdi Yağmur Əlizadə isə dedi:**

– Mən sərgidən əvvəl Mark Tvenin "Şahzadə və dilənçi" əsərini oxumuş və zövq almışdım. Bu gün isə sevinirəm ki, evə Ekzüperinin "Balaca şahzadə" əsəri ilə gedəcəyəm. Burada səslənən nağılları maraqla dinlədim və bir neçə şəkilli nağıl jurnalı da aldım. Artıq evdə özümün şəxsi kitabxanamı yaradıram.

Bəli, ədəbiyyatın və mütaliə mədəniyyətinin təbliği baxımından önəmli sayılan daha bir kitab bayramı, beləcə, könülləri oxşadı və oxucuların şəxsi kitabxanalarını sərfəli qiymətə alınan dəyərli əsərlərlə daha da zənginləşdirdi.

*Ə.DOSTƏLİ*
*XQ*

# Vokalçıların IV "parad"ı

**Mədəniyyət Nazirliyinin dəstəyi ilə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı və Bülbül Vokal Məktəbinin təqdimatında 4-cü dəfə Azərbaycan Vokalçıları Festivalı təşkil olunub.**




Festival Azərbaycan klassik vokal musiqisinin inkişafı və təbliği, gənc nəsildə yüksək musiqi zövqünün formalaşdırılması məqsədilə keçirilir.

Festivalda Azərbaycan Milli Konservatoriyası tələbələrinin iştirakı ilə "Bülbül irsi" adlı konsert proqramı, "Azərbaycan milli vokalı" adlı elmi seminar keçirilib. Seminarda sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Konservatoriyasının professoru, elmi işlər üzrə prorektor Lalə Hüseynova, Aleksandriya Sultan von Brüseldorff və Əməkdar artist Ramil Qasımov çıxış ediblər.

Həmçinin Bülbül Fondunda Bülbül Vokal Məktəbinin tələbələrindən ibarət konsert proqramı olub. Konsertdə dünya və Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib. Layihə çərçivəsində bir sıra digər tədbirlər – seminarlar, Xalq artisti Şahlar Quliyevin xatirəsinə həsr olunmuş konsert, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Xalq artisti Sevinc İbrahimovanın solo konserti, Kamera musiqisi axşamı, rus bəstəkarlarının ariya və romanslarından ibarət gecə yaddaqalan olub.

Qeyd edək ki, festivalın təntənəli bağlanış mərasimi bu gün Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında olacaq. Tədbir Azərbaycan vokal sənətinin parlaq simalarını bir araya gətirəcək.

*XQ*

# Türkiyə Suriyaya dinclik arzulayır

**Türkiyənin xarici işlər naziri Hakan Fidan bazar günü Suriyaya səfər edib. Prezident Rəcəb Tayyib Ərdoğanın da tezliklə Dəməşqə gedəcəyi bildirilir. Politoloqların sözlərinə görə, bununla Türkiyə Suriyada əsas oyunçu olmaq əzmini nümayiş etdirir. Ancaq Ankaranın bu istəyinə qarşı çıxan digər xarici aktorlar var. Onlar da Suriyadakı mövqelərini gücləndirməyə çalışırlar. Buna nail olacaqları isə o qədər də inandırıcı görünmür.**



Türkiyənin xarici işlər naziri Hakan Fidan Suriyada hakimiyyət dəyişikliyindən sonra Dəməşqə ilk səfəri zamanı Suriyanın yeni lideri Əhməd əl-Şara ilə görüşüb. Dəməşqdə keçirilən görüşdə Türkiyə xarici işlər nazirinin müavini Nuh Yılmaz, Türkiyənin Dəməşqdəki müvəqqəti işlər vəkili Burhan Koroğlu və Suriya Xarici İşlər Nazirliyinin yeni rəhbəri Əsəd Həsən əl-Şibani də iştirak edib. Görüşün əsas mövzusunun Suriyadakı terror ünsürlərinin olduğu bildirilir. Hər iki tərəf həm PKK-nı, həm də İŞİD-i bölgədən tamamilə təmizləməkdə qərarlıdır. Həm Hakan Fidan, həm də əl-Şara terror təşkilatı PKK/YPG-nin varlığına son qoyulmalı olduğunu vurğulayıblar. “Biz ölkədəki bütün silahlara nəzarəti ələ keçirmək istəyirik”, – deyə əl-Şara bildirib. Nazir Fidan da İŞİD-in Suriyaya buraxılmayacağını vurğulayıb. Onun sözlərinə görə, Türkiyə regional sülhə töhfə verəcək təhlükəsiz, azad, firavan Suriyanın yaradılmasına dəstək verəcək.

Xatırladaq ki, ötən həftə nazir Hakan Fidan “France 24” telekanalına müsahibəsində Suriyaya getmək niyyətini açıqlamışdı. O, Ankaranın mərkəzi rolunu saxlamaqla Suriya dövlətinin yenidən qurulması məsələlərini yeni hakimiyyətlə koordinasiya etmək niyyətində olduğunu bildirmişdi. Bundan başqa, Hakan Fidan müsahibəsində Ankaranın Suriyanın şimalında yerləşən kürd hərbi qruplaşmalarına qarşı əməliyyat keçiriləcəyini istisna etməmişdi. “Lazım olan hər şey ediləcək. Suriya Demokratik Qüvvələri (SDQ) Türkiyə, İraq, Suriya və bəziləri Avropadan olan insanların süni şəkildə yaratdığı terror təşkilatıdır. Hesab edirəm ki, dərhal ləğv edilməlidir. İndi Suriyada yeni administrasiya var və ümid edirəm ki, bu məsələni həll edəcəklər. Bu, üstünlük verilən üsuldur, lakin bu baş verməsə, təbii ki, biz öz təhlükəsizliyimizi qorumalı olacağıq”, – deyə türkiyəli nazir xəbərdarlıq etmişdi. Rusiyanın Suriyadakı mövcudluğunu saxlamaq perspektivlərinə gəlincə, Türkiyə XİN rəhbərinin sözlərinə görə, “bu, Suriya xalqının sualıdır və qərar vermək onların öz ixtiyarındadır”.

Nazir Hakan Fidanın səfəri ərəfəsində Suriya Xarici İşlər Nazirliyinin yeni rəhbəri vəzifəsinə 2024-cü ilə qədər Türkiyədə yaşayan Zayed əl-Attar kimi tanınan Əsəd Həsən əl-Şibani təyin edilib. Suriya diplomatik departamentinin rəhbərliyinin Ankaraya yaxın siyasətçiyə təhvil verilməsi Türkiyənin Dəməşqdəki mövqelərini gücləndirmək yolunda daha bir addım olduğu bildirilir. Xatırladaq ki, ötən həftənin sonunda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriya ilə bağlı bir sıra siyasi bəyanatlar vermişdi. Cənab Fidandan qısa müddət sonra Dəməşqə səfər edəcəyinə söz verməklə Türkiyə lideri rəsmi Ankaranın Dəməşqin strateji müttəfiqi və hamisi olduğunu açıq şəkildə ifadə etmişdi. Misir səfərindən sonra vətənə qayıdan qardaş ölkə prezidenti bildirmişdi ki, təcili vəzifə Suriyaya qarşı sanksiyaların ləğvi və onun tezliklə dünya ictimaiyyətinə qaytarılması olmalıdır: “Suriyadakı daxili münaqişələr və illərlə davam edən müharibə şəhərlərin və dövlətin infrastrukturunu məhv edib. Suriya iqtisadiyyatı da çöküb. Əsəd rejiminə görə Suriyaya qoyulan embarqonun və məhdudiyyətlərin aradan qaldırılması ölkənin yenidən qurulması üçün faydalı addım olacaq”. Bundan başqa, Prezident Ərdoğan vurğulamışdı ki, Suriyada fəaliyyət göstərən terror təşkilatlarını zərərsizləşdirməyin vaxtı çatıb.

Lakin Ankaranın Suriyadakı terrorun kökünü kəsmək istəyi ABŞ-də birmənalı qarşılanmır. Ötən həftənin sonunda amerikalı senatorlar Vaşinqtonun yardım etdiyi kürd silahlı qruplaşmalarına qarşı hərbi əməliyyatlara görə Ankaraya qarşı sanksiyaların tətbiqini nəzərdə tutan qanun layihəsini təqdim ediblər. ABŞ Konqresinin yuxarı palatasının üzvü Kris Van Hollen Ankaraya təzyiq etmək niyyətində olduğunu açıqlayıb. Konqresmen X sosial şəbəkəsində yazıb: “Türkiyənin dəstəklədiyi qüvvələrin partnyorlarımız olan suriyalı kürdlərə qarşı hücumları regional təhlükəsizliyə və İŞİD-in bərpasının qarşısını almaq səylərinə zərbə vurur. Bununla bağlı amerikalı qanunvericilər öz qanun layihələrində qeyd ediblər ki, Ankara öz səylərini ABŞ ilə əlaqələndirməyə məcbur olacaq”.

Ancaq amerikalı qanunvericilərin təhdidlərinə baxmayaraq, Suriyada hakimiyyət dəyişikliyindən sonra Türkiyənin dəstəklədiyi Azad Suriya Ordusu birlikləri Mənbic və Ayn əl-Ərəbdə yerləşən silahlı qruplaşmaların mövqelərinə qarşı hücuma keçib. Öz növbəsində “The Wall Street Journal” qəzetinin yazdığına görə, Türkiyə Suriya ilə sərhəddə qüvvələr toplayır ki, bu da genişmiqyaslı işğala hazırlığın göstəricisi ola bilər. “The Washington Post” qəzeti də iddia edir ki, Əsəd hökumətinin devrilməsindən sonra Türkiyəyönlü qüvvələrlə kürd qüvvələr arasında vətəndaş müharibəsi başlaya bilər. Ancaq Türkiyədə bu ittihamları əsassız hesab edirlər və Ankara Suriyada heç bir terror təşkilatının qalmasına razı olmayacağını diqqətə çatdırır. Bir də ki, ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampın komandasında Suriyada amerikalı hərbçilərin qalmasına etiraz edənlərin sayı çoxdur. Məslən, cənab Trampın milli təhlükəsizlik müşaviri Mayk Vals jurnalist Ben Şapiroya müsahibəsində bildirib ki, Amerika qoşunları Suriyada olmamalıdır: “Biz Amerika hərbçilərinin heç bir formada Suriya ətrafında dolaşmasını istəmirik”.

***S.ELAY***
***XQ***

# Makron Afrikadan əliboş qayıtdı

**Fransa prezidenti Emmanuel Makron hakimiyyətə gəldiyi gündən apardığı uğursuz daxili və xarici siyasətin acı bəhrələrini dadmaqdadır. Xüsusən xarici siyasət sahəsində ölkənin uğursuzluqları kifayət qədərdir. Bunu Makronun Afrika ölkələri ilə bağlı siyasətində daha bariz şəkildə görmək mümkündür. Bu sahədə problemlər bir neçə ildir ki, davam edir.**

Ötən ay isə Fransanın Afrikadakı keçmiş müstəmləkələri ilə münasibətləri üçün daha təlatümlü olub. Onun qitədəki təsiri son onilliklər ərzində ən böyük problemlə üzləşməkdədir. Fransanın Afrikadakı ən sabit və sadiq tərəfdaşı hesab edilən Çad hökuməti ölkənin müstəqillik günündə Parislə müdafiə sahəsində əməkdaşlığı dayandırdığını elan edib. Çad Fransaya əməkdaşlığa görə minnətdarlığını bildirib, tərəfdaşlığın yeni formalarının axtarışında konstruktiv dialoqu davam etdirməyə hazır olduğunu qeyd edib.

Bir neçə saat sonra isə Seneqalın yeni prezidenti Bassiru Diomaiye Fay “Le Monde” nəşrinə verdiyi müsahibədə tezliklə Seneqal torpaqlarında heç bir fransız əsgərinin qalmayacağının “açıq-aşkar” olduğunu söyləyib.

Beləliklə, Makron fransız qoşunlarının Afrikada daimi mövcudluğunu kəskin şəkildə azaltmaq barədə yeni hərbi strategiya hazırlayarkən ona bu qitədən bir-birinin ardınca yeni-yeni zərbələr gəlməkdədir. Budur, Çad hakimiyyəti Fransaya qoşunlarını çıxarması üçün az vaxt verib: yanvarın 31-dək. Bu tələb isə Fransa hökumətini çətin vəziyyət qarşısında qoyub. Hökumətə yaxın mənbələrin məlumatına görə, Paris belə bir son tarixlə razılaşa bilmir, qoşunların martdan əvvəl çıxarılmasını mümkün hesab etmir. Artıq fransız hərbi mənbələri 7 həftə ərzində 1000 əsgər və çoxlu texnikanın geri çəkilməsinin mümkünsüz olduğunu bildiriblər. Onların sözlərinə görə, verilmiş müddətin azlığı “Çad hökumətinin sərt təzyiq taktikası” ilə izah edilməlidir.

Çaddakı bir mənbə isə bildirib ki, ölkə üçün ideal vəziyyət fransızların fevralın sonu və müqəddəs Ramazan ayının başlanmasından əvvəl getməsi olardı. Bununla yanaşı, hər iki ölkənin paytaxtı danışıqların “konstruktiv şəkildə” davam etdiyini vurğulayıb.

Qeyd edək ki, Çadın ötən həftə açıqladığı tələbdən sonra Fransa qırıcıları bu ölkəni tərk etməyə başlayıb. Artıq iki “Mirage 2000D” təyyarəsi ölkədən çıxarılıb.

Maraqlıdır, bu uğursuzluqlar fonunda Makron özünü nə qədər sakit aparmağa çalışsa da, Avropada bu hadisələrdən bərk narahatlıq keçirənlər var. Məsələn, Avropa Parlamentinin deputatı Tyeri Mariani Çad və Seneqalla əlaqələrin kəsilməsini Fransa üçün fəlakət adlandırıb. O deyib: “Fransız qoşunlarının öz ərazilərindən çıxarılmasını istəyən Çad və Seneqalla əlaqələrin kəsilməsi Fransa üçün fəlakət oldu. Respublikanın Afrikadakı təsirinin itirilməsinin günahkarı prezident Emmanuel Makrondur”.

Mariani RİA “Novosti”yə açıqlamasında bildirib: “Çadda baş verənlər faciəvidir, Seneqalla münasibət də eyni şəkildə sona çatdı. Bu, bizim xarici siyasətimiz üçün fəlakətdir və bu, Makronun günahıdır”. AP deputatının sözlərinə görə, Makron “Afrika liderlərinə sonsuz nifrətini nümayiş etdirdi. Fransızlara qarşı da eyni nifrətini göstərdi. Səfərlər zamanı Afrika liderlərinə açıq şəkildə əxlaq mühazirələri oxuduqda siz ancaq belə bir münasibət qura bilərdiniz”.

Deputat Mariani xatırladıb ki, Fransa prezidentləri Şarl de Qoll, Jorj Pompidu və Jak Şirakın Afrika regionunda apardıqları xarici siyasətin nəticələrindən heç nə qalmayıb: “Münasibətlərimizi davam etdirə biləcəyimiz cəmi bir-iki dövlət qalıb”.

Hazırda Niger, Burkino Faso, Mali və digər ölkələr Fransa qoşunlarından tamamilə imtina ediblər. Mərkəzi Afrikanın mineral və digər təbii ehtiyatlarla zəngin ölkəsi olan Qabon, Kot-d'İvuar və Cibutidə də Fransa əleyhinə əhval-ruhiyyə güclənir. Noyabr ayında Makronun Afrika üzrə şəxsi nümayəndəsi Jean-Marie Bockel ona Fransanın qitədəki hərbi mövcudluğunun təkamülü ilə bağlı hesabat təqdim edib. Bunun təfərrüatları açıqlanmasa da, bir çox Paris rəsmisi Makronun yaxın günlərdə səfər edə biləcəyi Cibuti istisna olmaqla, Fransanın Afrikadakı bütün bazalarında dərin hərbi ixtisarlar planlaşdırdığını bildirib. Bu ilin əvvəlində Fransa ordusu ABŞ-nin AFRICOM-a bənzər Afrika komandanlığı yaratmışdı. Lakin bu da vəziyyəti xilas edə bilməyib və proses Rusiyanın Afrikada artan iştirakı ilə müşayiət olunub.



Bütün bunlar sübut edir ki, Fransanın müstəmləkə siyasəti tamamilə iflasa uğramaqdadır. Çadın tələbi isə Parisin Afrikada hərbi üstünlüyünün tabutuna vurulan son mismar kimi qiymətləndirilir.

Məhz bu təlatümlər fonunda Emmanuel Makron 1944-cü ildə Fransa ordusu tərəfindən 400-ə yaxın Qərbi Afrika əsgərinin öldürüldüyünü ilk dəfə rəsmən etiraf edib. Bu, fransız əsgərlərinin Afrika ölkələrində törətdikləri vəhşiliklərin cüzi bir qisminin etirafıdır.

İndi müstəmləkə boyunduruğundan xilas olan Afrika ölkələri Rusiya, Çin, Türkiyə və digər ölkələrlə bərabərhüquqlu əməkdaşlıq variantlarını müzakirə edirlər. Bu gün müstəqil olmaq, qarşılıqlı faydalı əməkdaşlıq qurmaq bu ölkələrin liderləri üçün prioritet təşkil edir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Qərb Zurabişvilini siyasi cinayətə təhrik edir

*Eks-prezident yola düşmüş qatarın arxasınca baxır*

**Gürcüstan Prezidenti Salome Zurabişvili Tbilisinin Rustaveli prospektində keçirilən mitinq zamanı “Gürcü Arzusu–Demokratik Gürcüstan” partiyasının fəxri sədri Bidzina İvanişvilini Prezident Sarayına dəvət edib. Onun sözlərinə görə, İvanişvili ilə birgə oturub yeni seçkiləri müzakirə etməyə hazırdır: “Biz hara getdiyimizi bilməliyik. Mən şəxsən Bidzina İvanişvili ilə görüşməyə və yeni seçkilərin necə təyin olunacağını müzakirə etməyə hazıram. Seçkilərin tarixi dekabrın 29-dan əvvəl razılaşdırılmalıdır. Cavab gözləyirəm”.**





Xatırladaq ki, bir neçə gün əvvəl S.Zurabişvili bildirmişdi ki, xaricdən də çoxları İvanişviliyə təzyiq göstərməyə hazırdır. Açıq şəkildə vurğulamışdı ki, Gürcüstana xaricdən təzyiqlər gücləndirilməlidir. Xarici dövlətlər arasında isə Fransa xüsusilə seçilir. Bunu Emmanuel Makronun Salome Zurabişvili ilə Parisdəki görüşdən sonra açıqlaması da təsdiqləyir: “Parisdə xanım prezidentlə çox mühüm söhbətim oldu. Mən xoşbəxtəm ki, onunla Gürcüstanın Avropa İttifaqına namizədliyi, eləcə də ölkənin və regionun gələcəyi barədə danışdım. Mən də öz fikrimi bildirmək istəyirəm. Demokratiya, qanunun aliliyi və inandığım dəyərlər uğrunda cəsarətli mübarizəyə dəstək verməliyik”.

Bundan sonra Makron hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili ilə telefonla danışıb. Yelisey Sarayının bəyanatında deyilir ki, Makron həbs edilən bütün şəxslərin azadlığa buraxılmasını tələb edib və İvanişvilini sərbəst toplaşmaq və ifadə azadlığına hörmət etməyə çağırıb. Makron bu açıqlamaları ilə açıq-aydın Gürcüstanın daxili işlərinə qarışıb, ölkə rəhbərliyinə “ağıl” verməyə çalışıb. Bəs, Fransa Gürcüstandakı hadisələrə müdaxilədə niyə maraqlıdır?

Qeyd edək ki, Türkiyə və Azərbaycanın Gürcüstanla əhəmiyyətli, sıx müttəfiqlik münasibətləri var. Bu münasibətlər Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açır, qarşılıqlı təhlükəsizliyə, ərazi bütövlüyünə, inkişaf və rifaha xidmət edir. Bu 3 ölkəni, hər şeydən əvvəl, Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Rəsmi Tbilisi ilə bu əməkdaşlıq regiondankənar güclərin təsirini minimallaşdırır, onların Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirməsinə imkan vermir.

Bundan narahat olan dövlətlər var. Onlardan biri də Fransadır. Bu ölkənin Türkiyə və Azərbaycana qərəzli münasibəti məlumdur. Cənubi Qafqazda regional təsir imkanlarını genişləndirmək, yeni təsir zonası yaratmaq istəyir. Nəyin bahasına olur-olsun Azərbaycanla Gürcüstan arasında dostluğu, Ermənistanla sülh danışıqlarını pozmağa çalışır. Paris bu siyasətində İrəvanı ən yaxın müttəfiqi kimi görür.

Üstəlik, Gürcüstan Qərb–Rusiya qarşıdurmasının hədəfindədir. Qərb, o cümlədən Fransa Rusiyanın Gürcüstanda mövqeyinin daha da zəifləməsində maraqlıdır. Moskva da öz növbəsində regionda Qərbin iştirakından narazıdır. Bu da böyük güclərin maraqlarının toqquşmasından xəbər verir. Deməli, Gürcüstan indiki şəraitdə Fransa üçün son dərəcə əhəmiyyətli bir istinadgahdır. Paris Cənubi Qafqazda Türkiyə və Azərbaycanın mövqeyini zəiflətmək, həm də Rusiyanın təsir dairəsini azaltmaqda maraqlıdır. Bu səbəbdən də Fransa prezidenti baş verən hadisələrə müdaxilə etməyə çalışır.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya telekanalına son müsahibəsində bu mövzuya da toxunub. Dövlət başçımız Gürcüstandakı etiraz aksiyalarından danışarkən bildirib ki, hadisələrə Fransa prezidenti müdaxilə edib: “Bu məsələdə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir, mütləq Gürcüstana da əl uzatmalıdır”. Azərbaycan rəhbəri qeyd edib ki, Gürcüstan Azərbaycan üçün çox mühüm tərəfdaş və yaxın dostdur: “Görürəm ki, Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir”.

Cənab Prezident Gürcüstanda Qərbdən maliyyələşən müxtəlif qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərdiyini vurğulayıb: “Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir”.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze də ölkədə baş verən hadisələrin arxasında Qərbin dayandığını vurğulayır. Onların arasında Fransa da var. Baş nazirin sözlərinə görə, ölkədəki etiraz aksiyalarını qeyri-hökumət təşkilatları vasitəsilə hakimiyyətin dəyişməsində maraqlı olan Qərb maliyyələşdirir. Qərb Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyir. Bununla bağlı Kobaxidze bildirib ki, Gürcüstandakı etirazlar Ukrayna “Maydan”ı ssenarisini həyata keçirmək cəhdidir və bu, uğursuzluğa düçar olub: “Son 4 ildə biz 3 dövlət çevrilişinə cəhdin şahidi olduq. Bunlar əlaqələndirilmiş və əvvəlcədən planlaşdırılmış tədbirlərdir. Həyata keçirilməsi üçün xarici maliyyə vəsaiti cəlb edilib”.

Baş nazir daha sonra deyib: “Salome Zurabişvilinin öz vəzifəsindən getməyəcəyi və ətrafında radikal müxalifəti toplayacağı əvvəlcədən məlum idi. Bu, ölkədən kənarda yazılmış ssenaridir. Həmin adamlar Gürcüstandakı xarici agentlər sırf “Makkeyn İnstitutu”nun yazdığı senariləri icra edirlər. Bu, bir daha onu göstərir ki, radikal müxalifətin müstəqilliyi sıfırdır. Onların etdikləri bizim ölkənin maraqlarına uyğun deyil, xaricdəki sahiblərinin əmrinin icrasıdır”.

O, Salome Zurabişvilinin Prezident vəzifəsində 1 həftədən az müddətdə qalacağını, bu həftə ərzində heç nə edə bilməyəcəyini deyib: “Düzdür, avropalı bəzi siyasətçilər və rəsmilər iddia edir ki, dekabrın 29-na qədər hələ çox şeylər baş verə bilər. Amma sizi əmin edirəm ki, dekabrın 29-na kimi heç nə olmayacaq və Gürcüstanda radikal müxalifət qalib gəlməyəcək...

Gürcüstanda mövcud qanunvericiliyə əsasən, parlament seçkiləri 3 halda təyin edilir: təkrar seçkilər, Mərkəzi Seçki Komissiyası və ya Konstitusiya Məhkəməsi əvvəlki seçkilərin nəticələrini ləğv etdikdə, 4 illik səlahiyyət müddəti başa çatanda və ya parlament hökumətə etimad göstərmədikdə. Əgər Prezident buna baxmayaraq başqa səbəbə görə yeni parlament seçkiləri təyin etmək qərarına gəlsə, buna görə cinayət məsuliyyətinə cəlb olunacaq. Bundan sonra, görək həyatına harada davam edəcək: dəmir barmaqlıqlar arxasında, yoxsa barmaqlıqlardan kənarda?”.

İ.Kobaxidze qeyd edib ki, Gürcüstan MSK seçkilərin nəticələrinə yekun vurub, Konstitusiya Məhkəməsi isə seçkilərin legitimliyini təsdiqləyib: “Ona görə də təkrar parlament seçkilərinin təyin edilməsi üçün heç bir əsas yoxdur”. Deməli, eks-prezident Zurabişvili yola düşmüş qatarın arxasınca baxır.

Xatırladaq ki, oktyabrın 26-da Gürcüstanda parlament seçkiləri keçirilib. Mərkəzi Seçki Komissiyasının yekun məlumatlarına görə, hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” partiyası 53,93 faiz səslə qalib gələrək qanunverici orqandakı 150 yerdən 89-unu qazanıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 284 (30688) 24 dekabr 2024-cü il, çərşənbə axşamı

## İdman

# “Qarabağ” – ilin ən yaxşısı

**“Qarabağ” 99 qolla 2024-cü ilin ən yaxşı komandası olub. Peşəkar Futbol Liqasının mətbuat xidməti xəbər verir ki, 36 matçda 89 xal toplayan Qurban Qurbanovun rəhbərlik etdiyi kollektiv böyük fərqlə digər komandaları üstələyib. 28 qələbəsi olan Ağdam klubu qol sayında “100”ün bir addımlığında qalıb.**



2024-cü ildə Misli Premyer Liqasında 180 oyun keçirilib. 2023/2024 mövsümünün ikinci, cari çempionatın ilk yarısını əhatə edən bu matçlarda 472 qol vurulub. 9 komanda hər iki mövsümdə, “Qəbələ” və “Şamaxı” yarım il ərzində Premyer Liqada mübarizə aparıb. “Sabah” ikinci, “Zirə” üçüncü göstəriciyə malikdir. Qəsəbə klubu 36 oyun keçirənlər arasında ən az top buraxan komandadır.

# Boksçumuzun Macarıstan qələbəsi

**Azərbaycan boksçusu Tayfur Əliyev (60 kq) “HELL Boxing Kings”də mövsümün çempionu olub.**




Bu barədə Azərbaycan Boks Federasiyasının mətbuat xidməti məlumat verib.

Avropa Oyunlarının mükafatçısı Macarıstanın Mişkolts şəhərində təşkil olunan final gecəsində yerli boksçu Kovaç Kruzito ilə qarşılaşıb. 6 raund davam edən döyüş həmyerlimizin qələbəsi ilə başa çatıb.

Tayfur Əliyev bu qələbə ilə mövsümün çempionu olaraq xüsusi kəmərə layiq görülüb.

# “Neftçi”nin səfər antirekordu

**“Neftçi” Misli Premyer Liqasının 2024/2025 mövsümündə səfərdə qələbə qazanmayıb. Peşəkar Futbol Liqasının mətbuat xidməti xəbər verir ki, Bakı klubu 9 qarşılaşmada 5 heç-heçə edib və 4 dəfə uduzub. “Ağ-qaralar” rəqib meydanında sonuncu dəfə ötən mövsümün son səfər oyununda 3 xal qazanıb.**



Mayın 18-də “Səbail”lə görüşən “Neftçi” üç cavabsız qol vurub. Ardınca “Səbail” (1:1), “Araz-Naxçıvan” (1:1), “Şamaxı” (0:0), “Zirə” (0:2), “Qarabağ” (0:4), “Kəpəz” (3:4), “Sabah” (0:0), “Sumqayıt” (0:2) və “Turan Tovuz”un (1:1) qonağı olan paytaxt təmsilçisi 9 matçdan ibarət qələbəsizlik seriyası yaşayıb. Bu, klubun tarixində yeni antirekorddur.

“Neftçi”nin səfərdəki ən uzun qələbəsiz oyunlar seriyası 8 matçdan ibarət idi. 2016-cı ilin avqustundan 2017-ci ilin fevralına qədər olan müddətdə 8 qarşılaşmada 1 heç-heçə və 7 məğlubiyyət qeydə alınmışdı.

***XQ***

## XQ-yə məktubun arxasınca...

# Topalhəsənlidə moruq söhbəti

**Sonuncu dəfə Topalhəsənlidə bu ilin may ayında, rayon icra hakimiyyətinin başçısı Elvin Paşayevin kənddə keçirdiyi səyyar qəbul zamanı olmuşam. Açıq havada, kəndin səfalı bir yerində təşkil edilən bu görüş zamanı səsləndirilən nöqsanlara ciddi reaksiyanın olması, problemlərin həlli ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə tapşırıqların verilməsi, bəzi məsələlərin elə yerindəcə həll olunması diqqətimdən yayınmamışdı. Əslində, bu görüş daha çox bir ailə üzvlərinin söhbətini xatırladırdı: sakit, səmimi... Amma yadımda qalan daha çox rayon rəhbərinin “Moruq Festivalına hazırlaşırsınızmı?” sualı olmuşdu.**





Gizlətmirəm, o zaman bir o qədər də əhəmiyyət verməmişdim. Elə bilirdim Topalhəsənlinin özünün adi tədbirlərindən biridir. Çünki tarixən Topalhəsənli moruğu adı, şöhrəti, dadı-tamı ilə tanınıb. Amma avqustun ortalarında öyrəndim ki, bu tədbir ümumrayon tədbiridir və Göygöl rayonunun tarixində ilk dəfədir keçirilir. O zaman xəbəri respublika mətbuatında ilk dəfə “Xalq qəzeti” paylaşdı və Göygöldə moruqçuluq ənənələrindən, moruğun inanılmaz faydalarından, fermerlərin bu sahəyə marağından, onun hətta sənaye üsulu ilə becərilməsindən, festivala hazırlıq işlərindən bəhs edən geniş yazı dərc etdi.

Sentyabrın ortalarında keçirilən və iki gün davam edən tədbir əsl bayrama çevrildi. Rayona gələn turistlərin sayı-hesabı yox idi.Təkcə Bakıdan 8 turizm şirkəti öz qonaqlarını rayona gətirmişdi. Azərbaycanın elə bir şəhər və rayonu yox idi ki, oradan bu festivalda iştirak etməsinlər. Xarici ölkələrdən, o cümlədən İtaliyadan, Rusiyadan, Qazaxıstandan, Özbəkistandan və digər yerlərdən gələnlər də var idi. Bütövlükdə, iki gün ərzində festivalı 55 min nəfərdən çox qonaq ziyarət etdi. Rayonun tarixində bir tədbirə bu qədər adamın qatılmasını heç kim xatırlamır.

Köşkü kəndində təşkil olunan festivalda 100-ə yaxın fermer iştirak edirdi. Festivala hərə öz məhsulu ilə gəlmişdi. Həm nümayiş etdirir, həm də satırdılar. Təkcə moruq deyil, onun mürəbbəsi, şirəsi, tibbi müalicə üçün inanılmaz faydası olan kökü, yarpağı, toxumu da satılırdı.

Bu festival təkcə sərgi-satış üçün nəzərdə tutulmamışdı. Əslində, hədəflər daha geniş idi və məqsəd son 2-3 il ərzində əsl turizm mərkəzinə çevrilən Göygölə daha çox adamın gəlməsini, bu yerin məhsulları, təbiəti, tarixi abidələri, bir sözlə, keçmişi və bu günü haqqında geniş və müfəssəl məlumat vermək idi ki, ona da nail olundu. Festivala gələnlər moruq təsərrüfatlarına da baş çəkdilər, müxtəlif dequstasiya tədbirlərində iştirak etdilər, açıq havada təşkil olunan konsert proqramlarını, idmançıların nümunəvi çıxışlarını izlədilər. Bir sözlə, rayonun ilk Beynəlxalq festivalı öz möhtəşəmliyi ilə hər yerə səs saldı...

Aradan, təxminən, ay yarım keçmiş “Xalq qəzeti”nin Gəncədəki müxbir məntəqəsinə aşağıdakı məzmunda bir məktub daxil oldu: “Hörmətli redaksiya, biz, Topalhəsənli fermerləri, sizə öz təşəkkürümüzü bildiririk ki, daim rayonumuzun həyatını işıqlandırırsınız. Moruq festivalına da geniş yer ayırmısınız. Məktubu ona görə yazırıq ki, bu festival bizə qol-qanad verdi, ölkədə tanıtdırdı, çoxlu dost-tanış, həm də müştəri qazandırdı. İndi moruq sahələrini daha da artırmağa çalışırıq. Bilirik ki, bazarımız həmişə olacaq. Bütün bunlara görə ölkə Prezident İlham Əliyevə öz dərin minnətdarlığımızı bildiririk ki, belə bir şəraiti bizə yaradıb. Rayon rəhbərliyi də sağ olsun ki, festival təşkil etməklə bizi şöhrətləndirdi və tanıtdı...”

Məktubu fermerlərdən Oruc Həsənov, Oktay Rəsulov, Mətləb Qəhrəmanov, Tarix Məmmədov və başqaları, bütövlükdə, 12 fermer imzalamışdı.

Qərara aldıq ki, fermerlərin özləri ilə görüşüb söhbət edək. İndi budur, səfalı Topalhəsənli kəndində, Gəncəçayın kənarındakı səliqəli kafelərin birində çay süfrəsi təşkil ediblər. Süfrəyə də özlərinin hazırladıqları moruq mürəbbəsindən gətiriblər.

Çoxunu üzdən tanıyıram. Festival zamanı görmüşəm, məhsullarından dadmışam, söhbətlərimiz olub. Topalhəsənli kənd bələdiyyəsinin sədri Validə Hacıyeva, rayon icra hakimiyyətinin məsul işçisi **Vüqar Hüseynov** da buradadır.

**Oktay Rəsulov, moruqbecərən:** – Burada əyləşənlərin hər biri zəhmətə qatlaşan adamdır. Maraq üçün bir onların əllərinə baxın. Moruq tikanlarının, kətmənin izləridir. Belə də olmalıdır. İnsan halal zəhməti ilə dolananda yediyi çörək şirin dadır. Kiçik təsərrüfatım var. İlboyu başına fırlanırıq. Sonda isə bəhrəsini görürük. İndi moruq sahəmi imkan daxilində bir qədər də artıracağam. Elvin müəllimin bu rayona gəlişindən sonra torpağa münasibət də dəyişib. Bax, elə festivalın keçirilməsi bilavasitə Elvin Paşayevin təşəbbüsüdür. Elə görüş, tədbir, yığıncaq yoxdur ki, adamları torpağa bağlılığa səsləməsin.

**Mətləb Qəhrəmanov, fermer:** – Həm yetişdirdiyimiz məhsulu satırıq, həm də qonum-qonşudan aldıqlarımızı.Özü də moruğu, böyürtkəni və çiyələyi daha çox Bakıya aparırıq. Bu üç giləmeyvəyə “üç bacı” deyirlər. Üçünü bir qutuya, yanaşı, yığanda alıcı daha çox maraq göstərir. İnanın üçüncü mikrorayon bazarında gün olub ki, 200-300 vedrə məhsul satmışıq. Topalhəsənli moruğun, necə deyərlər, vətənidir. Doğrudur, son illər yerli moruq sortları azalır, daha çox Şəmkir moruğu dediyimiz, əslində, Belarusdan gətirilən sortlar geniş yayılıb. Doğrudur, yerli sortdan çox məhsuldardır. Amma dadı-tamı bizimkinin yerini verməz. Bir də fürsət düşmüşkən qeyd edim ki, xəstəliklər bəzən bol məhsul götürməyimizə mane olur. Yaxşı olar ki, rayonda bu işləri bilən, yeri gələndə bizə məsləhət verən mütəxəssis, aqronom olsun, lazım gələndə ona üz tutaq.

Aldığımız dərman preparatlarının keyfiyyəti də bizi qane etmir. Məhsulun ziyanvericilərdən qorunmasına lazımi təsir göstərmir, çünki keyfiyyətsizdir. Belə olmasaydı son illər moruğa düşən qurdun qarşısını alardı.

**Sərvan Musayev, moruqbecərən:** – Narazı deyiləm dolanışığımızdan. Özümüzün maşınımız var. Bölgələrdə Gəncədə, Mingəçevirdə, Yevlaxda aparıb satırıq. Bu il, təxminən, 8 min manat pul qazanmışıq.

**Validə Hacıyeva, Topalhəsənli bələdiyyəsinin sədri: –** Neçə? Ola bilməz! Necə olur ki, mən 6 sotdan bu il təmiz 3 min 900 manat götürdüm, sən 8 min?

**S.Musayev: –** Axı mənim həyətyanı sahəmdən əlavə başqa yerdə də daha 6 sot sahəm var...

**V.Hacıyeva:** – Ümumiyyətlə, məhsuldarlığı artırmaq üçün kollara yaxşı qulluq etmək lazımdır. Vaxtı-vaxtında artıq pöhrələri qayçılamaq, digər aqrotexniki tədbirlər görmək tələb olunur. Nəyə görə bizim Topalhəsənlidə yetişən moruqla Şəmkirdə yetişən moruq arasında dad fərqi var, bilirsiniz? Çünki biz moruq kollarını Gəncəçayın suyu ilə, Şəmkirdə isə çox zaman artezian suyu ilə suvarırlar. Özü də su, təkcə dadına deyil, rənginə də təsir edir. Yəni bizim moruq qırmızı-çəhrayı, o birilər nisbətən qara rəngə çalır.

**Oruc Həsənov, moruqbecərən:** – 15 sort torpağımız var. 1986-cı ildən həm də alıb satırıq. Vaxt olub ki, kənara 10 tona qədər məhsul çıxarmışıq. Ailəmiz moruqla dolanır.

**Yasin Ələsgərov, Aşıqlı kənd icra nümayəndəsinin müavini:** – Moruğun sığortalanması çox vacibdir. İqlim dəyişikliyi bu məhsulun da keyfiyyətinə mənfi təsir göstərir. Yığım vaxtı bir də baxırsan ki, məhsula qurd düşür. Suyunu bol eləsən də qarşısını almaq çətin olur. Mənə belə gəlir ki, bu məsələ müvafiq nazirliklər səviyyəsində həll olunmalıdır. Əksər meyvə-tərəvəz məhsulları sığorta paketinə salındığı halda, moruq ora daxil edilməyib. Bu isə bəzən bizi çıxılmaz vəziyyətə salır, məhsul zay olur, təsərrüfatımıza ciddi ziyan dəyir.

Yerli moruğun becərilməsinə diqqəti artırmaq lazımdır. Son vaxtlar yerli sortlar çox çətinliklə becərilir və ya səpilən toxum heç bir boy vermir. Bu məhsula tələbat daha çoxdur. Belarus sortu 5-6 manata satıldığı halda, yerli sort 15-20 manata satılır, bəzən də heç tapmaq olmur.

Zurnabad kənd icra nümayəndəsi Niyazi Əliyev, Topalhəsənli icra nümayəndəsinin müavini Tarix Məmmədov və başqaları da danışdılar, Moruq Festivalının Göygölün həyatında bir dönüş olduğunu dilə gətirdilər. Dedilər ki, rayon rəhbərliyi bizi sanki ayıltdı. Moruğa münasibət də kökündən dəyişdi. İndi bu işlə məşğul olmaq istəməyən də yer axtarır moruq əkib yetişdirməyə.

Topalhəsənlilər onu da dedilər ki, insanı həvəsləndirməyi hər adam bacarmır. Gərək ruh yüksəkliyi, işə həvəs yaratmağı bacaran adamlar olsun, həm də ona qiymət versin. Bu gün Göygöldə bu əhval-ruhiyyə hökm sürür.

***Hamlet QASIMOV***
***XQ-nin bölgə müxbiri***

**Göygöl rayonu**

## Hava

# Yağmursuz, amma dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Cənub-qərb küləyi əsəcək, günün ikinci yarısında şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-7°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu, nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-14° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 3-8° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Momotaro – yapon cinsi

**Təbii indiqo boyalı (adı Hindistanda yetişdirilən eyniadlı bitkidən götürülüb) yapon cinsləri (momotaro jeans) çoxəsrlik tarixə malik olması ilə yanaşı, üstün keyfiyyəti təcəssüm etdirir.**



Yaponiyanın cənub-qərbindəki “Momotaro” cins fabrikində istehsal olunan bu geyim növü, əsasən pambıq saplardan işlənib hazırlanır. Pambıq Zimbabve əyalətindən gətirilsə də, təbii boya Yaponiyada istehsal olunur. Bu rəngdən 17-19-cu əsrlərdə yapon xanımlarının milli geyimi olan kimonoların da rənglənməsində istifadə olunurdu.

Momotaro cins geyimləri 2006-cı ildə Yaponiyanın Kojima şəhərində öz sənətkarlıq üslubu ilə tanınmış geyim istehsalçısı Japan Blue tərəfindən yaradılıb. Bu geyimin satış qiyməti 30 min yen, yəni 200 dollara başa gəlir. Markanı özünəməxsus və bahalı edən xüsusiyyətlərdən biri isə onun xüsusi dəzgahda təbii üsulla hazırlanmasıdır. Hazırda paltardan beynəlxalq moda markaları da istifadə edir.

***S.FİDAN***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi

**XANMƏMMƏD İBRAHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Validə Məmmədova Xalq rəssamı, Əməkdar incəsənət xadimi, professor

**TOFİQ AĞABABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 4001**
**SİFARİŞ 2983**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**

**Çapa imzalanmışdır 00:00**